# AZƏRBAYCAN RESPUBLİKASININ
# DÖVLƏT BAYRAĞI



Az 2010/932

ƏHMƏDOV SƏBUHİ MƏMMƏDOV VÜQAR

# AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT BAYRAĞI

88007

ARXİV

M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası

BAKI 2010

89272

X620(2A).8+T3(2A).я2






*"Azərbaycanın bayrağı sadəcə bayraq deyil. O bizim dövlətçiliyimizin, müstəqilliyimizin rəmzidir. Ona görə də gərək hər bir Azərbaycan vətəndaşı, xüsusən gənc nəsil bunu dərk etsin, qiymətləndirsin. Onda bayrağa olan məhəbbət eyni zamanda Vətənə, xalqa, dövlətə olan məhəbbətə bərabər olsun.*

*Gərək hər bir evdə Azərbaycan dövlətinin bayrağı olsun, hər bir ailə Azərbaycan bayrağına itaət etsin. Bu bayraq tək rəsmi yerlərdə yox, idarələrdə, küçələrdə, saraylarda, məktəblərdə yox, gərək hər bir ailənin həyatının əziz bir hissəsi olsun..."*

***Heydər Əliyev***
***Azərbaycan xalqının Ümummilli lideri***

Elmi redaktor: Nailə Vəlixanlı
Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti,
Milli Azərbaycan Tarixi Muzeyinin direktoru, akademik

Əhmədov S.Ə., Məmmədov V.S. Azərbaycan Respublikasının Dövlət Bayrağı. Bakı, 2010, 156 s.

1998-ci il martın 13-də Azərbaycan Respublikasının Prezidenti, Ümummilli lider Heydər Əliyev tərəfindən "Azərbaycan Respublikasının dövlət atributlarının təbliğatı istiqamətində işin gücləndirilməsi" Sərəncamı imzalandıqdan sonra Azərbaycan dövlətçilik tarixinin müxtəlif məsələlərinə həsr olunmuş bir sıra elmi və kütləvi nəşrlər işıq üzü gördü. Bununla belə, Azərbaycan Dövlət Bayrağı, Azərbaycan Dövlət Gerbi, Azərbaycan Himninin yaradılma tarixi, onları təşkil edən elementlərin mənası və tarixdə istifadəsinə həsr olunmuş əsərlərə olan tələbat azalmadı. Təqdim olunan kitab Azərbaycan Dövlət Bayrağının yaradılması tarixi, onu təşkil edən rənglərin və təsvirlərin mənası, tarixdə istifadəsinə həsr olunmuşdur.

Kitab elmi ictimaiyyət və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

*Bu kitab Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin maliyyə dəstəyi ilə çap olunmuşdur.*

© Əhmədov S.Ə., Məmmədov V.S.
© Azərbaycan Respublikası Dövlət Neft Şirkəti

# ÖN SÖZ

*Hər bir xalqın milli-vətənpərvərlik hisslərinin formalaşmasında onun qəbul etdiyi rəmzlərin, simvolların əhəmiyyəti böyükdür. Çox vaxt adət-ənənələrlə, xalqın keçdiyi tarixi yolla sıx bağlı olan bu simvollar baş verən mühüm hadisələrlə bilavasitə əlaqədə olmuş, dövrün, dövlətin, hadisələrin ən önəmli əlamətlərini özündə əks etdirmişdir. Mühüm tarixi abidə olan ənənəvi simvollar dövlətin yaranması ilə onun rəmzlərinə çevrilir, bütün təsviri, emosional və psixoloji vasitələr kompleksi ilə insanın ağıl və hisslərinə ideoloji təsir vəzifəsini yerinə yetirir, cəmiyyətin həyatında baş verən bu və ya başqa hadisələri nəinki əks etdirir, eləcə də onların açılmasına yardım göstərir. Azərbaycanın əsas dövlət rəmzlərindən olan bayraq və gerb yaradılarkən məhz belə prinsiplər rəhbər tutulmuş, dövlətin digər rəmzləri təsis edildikdə isə ilk növbədə dövlət bayrağının və dövlət gerbinin əsas elementləri nəzərə alınmışdır.*

*Bəşər mədəniyyətinin ən qədim mərkəzlərindən olan Azərbaycan ta qədimdən zaman-zaman yaxının, uzağın iddiasına məruz qalmış, nəhayət, XXI yüzilliyin astanasında öz müqəddəs amalına - dövlət müstəqilliyinə yetişmişdir. Ağır itkilər bahasına əldə olunmuş müstəqilliyimizin qorunması, bu gün, dövlətimizin yürütdüyü müdrik siyasət və el oğullarımızın ululardan onlara miras qalmış şücaətləri sayəsində mümkün olmuşdur. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin sözləri ilə desək "Azərbaycan Respublikası öz torpaqlarını qorumaq üçün böyük potensiala malikdir. Onun ən böyük potensialı - bizim vətəndaşların öz Vətənlərinə olan sədaqəti və məhəbbətidir. Bu hisslər xalqımızın tarixi qəhrəmanlıq ənənələri ilə doğulmuşdur..." Bu baxımdan milli dövlətçiliyin möhkəmlənməsinə yönəldilmiş praktiki addımlarla bərabər Azərbaycan dövlətçilik rəmzləri də öyrənilib təbliğ edilməlidir. Müstəqillik və ərazi bütövlüyü uğrunda aparılan mübarizənin gedişində yaranmış və inkişaf etmiş dövlət rəmzləri vətəndaşların mənəvi və emosional tərbiyələndirilməsinin əsas mənbələrindən biridir. Azərbaycanın dövlət rəmzlərinin öyrənilməsi istər dövlətçilik ənənələrinin öyrənilməsi, istərsə də milli ənənələrin canlandırılması baxımından da vacib əhəmiyyət kəsb edir.*

*Sözsüz ki, bu çoxşaxəli problemin həlli rəmzlərimizin tarixini işıqlandıran elmi və elmi-kütləvi əsərlərin mövcudluğundan bilavasitə asılıdır. T.e.n. Səbuhi Əhmədov və Vüqar Məmmədovun Azərbaycan Respublikasının Dövlət Bayrağı haqqında yazdıqları bu kitab da həmin zərurətdən irəli gəlir.*

*Arxeoloji tapıntılar Azərbaycan ərazisində ştandart formalı bayraqların hələ tunc dövründə (b.e.ə. IV minillik - II minillik) istifadə edildiyini təsdiq edir. Şəmkir və Şəki rayonlarında aparılan arxeoloji qazıntılar zamanı aşkar edilmiş buynuzlu maral, üzərində səkkizguşəli ulduz, şüalanan günəş və müxtəlif həndəsi naxışlar olan dairəvi lövhə və başqa formalı tunc ştandartlar, çox güman ki, qəbilə başçısının və ya hökmdarın hakimiyyətinin rəmzi kimi çıxış edirdi. Bu gün Milli Azərbaycan Tarixi Muzeyinin də ekspozisiyasını bəzəyən bu növ ştandartlar, alimlərin rəyinə görə, xüsusi taxta sapa taxılırdı. Maraqlıdır ki, Azərbaycanda tapılmış ştandartların əksəriyyəti buynuzlu heyvan təsvirlidir. B.e.ə VIII-VII əsrlərə aid Manna qalalarını təsvir edən aşşur relyeflərində də belələrinə rast gəlinir. Ehtimal edilir ki, bu dövrdə dövlətçiliyin rəmzi sayılan bu formalı ştandartlar tilsim rolunu da oynayırdılar. Mövcud ədəbiyyat və etnoqrafik materiala görə bu gün də Azərbaycanda qapı və darvazaların yuxarısına, divar və barılara və s. bərkidilən keçi və qoç buynuzları, heyvan (it, at, maral və s.) kəllələri "bəd nəzərdən, bəd qüvvələrdən" qoruyan nişanə, tilsim sayılır. Alimlər elin, obanın tilsimi sayılan bayraqlarda tayfanın hami-ruhunun yaşaması haqqında da fikir irəli sürürlər. Bayrağı əldən vermək, onun ağacını sındırmaq bəd əlamət hesab olunurdu.*

*Dövlətçiliyin ən önəmli əlamətlərindən olan bayraqların ta qədim dövrlərdən hərbi işdə və dövlət tədbirlərində praktiki və mənəvi əhəmiyyəti bilavasitə Azərbaycana aid müxtəlif qaynaqlardakı məlumatlarla da təsdiq olunur. Moisey Kalankatuklunun "Albanların tarixi" əsərində həm albanların, həm də ilk orta əsrlərdə onlarla döyüş meydanında qarşılaşan türklərin bayraqlarının təsvirləri vardır. Təqdim edilən material hər iki tərəfin müxtəlif rəngli, heyvan surətli, "açılmış" bayraqlara malik olduğunu, bu bayraqların həm döyüşdə, həm də dövlət əhəmiyyətli tədbirlərdə qaldırıldığı haqqında məlumat verir. Tədqiqatçıların ehtimalına görə, əjdaha və ya başqa heyvan və quş formasında olan bu cür bayraqların (ştandartların) gövdə hissəsi ipək parçadan olur, gümüşdən olan bayraq sapı isə əfsanəvi heyvanın başını əks etdirirdi. Mövcud ədəbiyyat buna bənzər bayraqların erkən orta əsr Avropasında və digər Şərq ölkələrində də geniş yayıldığını göstərir.*

*Bayrağın hərbi əhəmiyyətini xüsusi vurğulayan tədqiqatçılar onun döyüş meydanında oynadığı mühüm rolu da qeyd edirlər. Türk dünyasının təkraredilməz abidəsi olan "Kitabi-Dədə Qorqud" dastanında düşmən hücumunun qarşısını ala bilən Salur Qazanın qardaşının "Kafərin tuğilə sancağı (yəni bayrağı) qılıncladı"ğı və "yerə saldı"ğı göstərilir. Bu isə düşmənin məğlub edilməsi demək idi.*



*Bayraqların müqayisəli öyrənilməsi onların indi də erkən orta əsrlərdə olan formasını və hətta məzmununu saxladığını təsdiq edir. O vaxtlar olduğu kimi indi də onlar öz rəng müxtəlifliyi (qırmızı, yaşıl, sarı, ağ, mavi və s.) ilə seçilirlər.*

*Təqdim olunan kitab zəngin tarixi mənbələr (arxeoloji, yazılı, epiqrafik, illüstrativ və s.) və mövcud elmi ədəbiyyat əsasında yazılmışdır. Müəlliflər həm Azərbaycan, həm də xarici ölkələrin tədqiqatçılarının əsərlərindən yaradıcı istifadə edərək, Azərbaycanda dövlətçilik rəmzlərinin forma və mahiyyətinin inkişaf yoluna nəzər salmış, ayrı-ayrı simvolların tarixinin öyrənilməsi kimi çətin problemin kompleks tədqiqatını həyata keçirmişlər.*

*İşin strukturu heraldika elminin qanunları ilə şərtləndirilmişdir: müəlliflər Azərbaycanda mövcud olmuş dövlətçilik rəmzlərinin tarixini araşdırmış, daha sonra Azərbaycan Respublikasının Dövlət Bayrağı üzərində olan rəng və simvolların mahiyyət və mənalarını açmağa çalışmışlar. Maraqlıdır ki, tədqiqat boyunca Şərq heraldikası ilə müqayisələr aparılmış, ümummüsəlman və ümumtürk rəmz və simvolları barədə məlumatlar verilmişdir. Tarixşünaslıqda indiyədək məlum olmayan bir çox tarixi faktlar bu kitabda öz əksini tapmışdır.*

*Kitabı daha oxunaqlı və baxımlı edən, onun elmi əhəmiyyətini artıran üstün cəhətlərdən biri burada əksəriyyəti rəngli olan çoxsaylı fotoşəkil, rəsm, sxem və şəkillərin verilməsidir. Kitabda, həmçinin, Azərbaycan Respublikasının Dövlət Bayrağı və digər dövlət rəmzləri ilə bağlı ölkədə mövcud olan normativ hüquqi aktlar, eləcə də Azərbaycan Respublikasının Prezidentinin müvafiq fərman və sərəncamlarının tam mətnləri toplanılmışdı. Güman edirəm ki, əsər yalnız mütəxəssislər tərəfindən deyil, eləcə də geniş oxucu kütləsi və ictimaiyyət tərəfindən maraqla qarşılanacaqdır.*

**Nailə Vəlixanlı**
**Azərbaycan Milli Elmlər Akademiyasının**
**Vitse-prezidenti, Milli Azərbaycan**
**Tarixi Muzeyinin direktoru, akademik**



Şəki Xan Sarayında divar rəsmi, XVIII əsr.

# GİRİŞ

Azərbaycan cəmiyyətinin XXI əsrdə inkişaf tendensiyalarından biri vətəndaşların öz tarixi keçmişinə olan marağının artması, dövlətçiliyin tarixi məsələləri ilə yaxından maraqlanmasıdır. Müstəqil Azərbaycan Respublikasının yaranması və dövlətçiliyin gücləndirilməsi şəraitində təkcə dövlətçilik atributları deyil, ölkədə sabitliyi təmin edən, cəmiyyət və dövlətin inkişafına zəmin yaradan ali hakimiyyət orqanlarının tarixi atributlarına da maraq artmışdır. Tarixi mənbələr təsdiq edir ki, hələ e.ə. IV minillikdə Azərbaycanda hakimiyyət rəmzləri məlum idi, ilk dövlət qurumları yarandıqda dövlət rəmzləri də yaranmışdı. Müxtəlif dövrlərdə yadelli işğalçılara qarşı xalq məhz bu rəmzlər altında vuruşmuşdur. Elə dövrlər olmuşdur ki, Azərbaycan öz dövlətçiliyini itirmiş, hansısa imperiyanın əyalətinə çevrilmişdir. Lakin gizli və açıq şəkildə, passiv və ya fəal formada aparılan mübarizə sonda öz bəhrəsini vermiş və Azərbaycan xalqı yenidən müstəqilliyə qovuşmuş və dövlətçilik ənənələrini bərpa edə bilmişdi. Xalqın tarixi yaddaşında qalmış keçmiş dövlətçilik rəmzləri və hakimiyyət atributları yeni mərhələlərdə müasir tələblərə cavab verən şəkildə yenidən həyata qaytarıldı. Beləliklə, müstəqilliyin qazanılması, dövlətçiliyin bərpası dövlətçilik rəmzlərinin də bərpası ilə müşayiət olunurdu.



Şəkil 1. Əsrlər boyu Azərbaycan döyüşçüləri ölkənin müstəqilliyi uğrunda öz bayraqları altında vuruşmuşlar (Şəki Xan Sarayında divar rəsmi, XVIII əsr).

1828-ci ildə İran Qacarlar dövlətiylə Rusiya imperiyası arasında Türkmənçay müqaviləsinin imzalanması ilə Azərbaycan xalqının dövlətçilik rəmzləri və xanlıqların hakimiyyət atributları ləğv olundu. 90 il sonra, 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti yarananda dövlətçilik rəmzlərinin, eləcə də orden və medalların tərtib edilməsi istiqamətində işlər başladı. Bu məqsədlə qədim və orta əsrlərə dair tarixi materialların öyrənilməsi, dövlətçiliklə bağlı tarixi eksponatların toplanması işi aparıldı. Bu öz növbəsində geniş xalq kütlələri arasında vətənpərvərlik, milli ideya uğrunda mübarizə aparmaq qətiyyəti, mübarizə ruhunun qaldırılması, öz xalqının tarixindən qürur duymaq kimi hisslərin yaranmasına xidmət edirdi. Lakin, 1920-ci ildə Azərbaycan Sovet Rusiyası qoşunları tərəfindən işğal ediləndə yuxarıda göstərilən proses dayandı, milli atributlar qa-



Şəkil 2. 1919-cu ildə buraxılmış poçt markasında Azərbaycan bayrağının təsviri (Milli Azərbaycan Tarixi Muzeyi).

dağan edildi. Azərbaycanda sovet hakimiyyəti illərində mövcud olmuş rəmzləri isə, əslində, Sovet Rusiyasının rəmzlərinin azacıq dəyişdirilmiş surətləri idi.

1991-ci il avqustun 30-da Azərbaycan SSR Ali Sovetində Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa olunması haqqında Deklarasiya, 1991-ci il oktyabrın 18-də isə Azərbaycan Respublikasının Müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul olundu **(şəkil 3)**. Lakin müstəqilliyin qazanılmasına baxmayaraq, uzun müddət ərzində dövlətçilik rəmzlərimizə həsr olunan elmi tədqiqat əsərləri yox dərəcəsində idi. Azərbaycanın dövlətçilik rəmzləri tarixinin araşdırılmasını çətinləşdirən amil ilk növbədə tarixi mənbələrin azlığı ilə izah olunur. Belə ki, sovet hakimiyyəti illərində Azərbaycanın dövlətçilik rəmzləri nəinki öyrənilməmiş, hətta bir çox mənbələr sovet imperiyasının arxiv və muzeylərinə aparılmışdır. Misal üçün, 1920-ci ildə Azərbaycan Parlamentinin binası üzərində dalğalanan üçrəngli bayrağımız sovet işğalı baş verəndən sonra Moskvaya İnqilab muzeyinə (hal-hazırda "Rusiyanın Müasir Tarixi Muzeyi") aparılmışdır. Ümumiyyətlə, sovet tarixşünaslığı dövlətçilik rəmzləri terminini qəbul etmirdi, çünki hesab olunurdu ki, bütün dünyada kommunizm qalib gəldikdən sonra bütün dövlətlər ləğv olunacaq, sərhədlər açılacaqdır.

Bu sahədə köklü şəkildə dəyişiklik 1998-ci il martın 13-də Azərbaycan Respublikasının Prezidenti, Ümummilli lider Heydər Əliyev tərəfindən "Azərbaycan Respublikasının dövlət atributlarının təbliğatı istiqamətində işin gücləndi-



Şəkil 3. XX əsrin sonlarında azadlıq mübarizəsinə qalxan Azərbaycan xalqı yenidən öz bayrağını ucaltdı (1989-cu il, noyabr, Bakı şəhəri).





rilməsi" adlı Sərəncamın imzalanmasından sonra baş verdi. Sərəncamda xüsusi vurğulanırdı ki, vətəndaşların, ilk növbədə gənclərin dövlət atributlarına dərin hörmət ruhunda tərbiyə olunması cəmiyyətdə vətənpərvərlik ruhunun gücləndirilməsinə xidmət edir. Sərəncamdan sonra Azərbaycan dövlətçilik tarixinin müxtəlif tərəflərinə həsr olunmuş bir sıra elmi və populyar nəşrlər işıq üzü görmüşdür. Bununla belə qeyd etmək lazımdır ki, Azərbaycan Dövlət Bayrağı, Azərbaycan Dövlət Gerbi, Azərbaycan Himninin yaradılma tarixi, onları təşkil edən elementlərin mənasına həsr olunmuş əsərlərə böyük tələbat var. Təqdim olunan kitab Azərbaycan Dövlət Bayrağının yaradılması tarixi, onu təşkil edən rənglərin və təsvirlərin mənasına həsr olunmaqla mövcud olan boşluğu doldurmaq məqsədilə tərtib edilmişdir.

**Azərbaycan Respublikasının Konstitusiyası.**

**Maddə 23. Azərbaycan dövlətinin rəmzləri**

**I.** Azərbaycan Respublikasının dövlət rəmzləri Azərbaycan Respublikasının Dövlət bayrağı, Azərbaycan Respublikasının Dövlət gerbi və Azərbaycan Respublikasının Dövlət himnidir.

**II.** Azərbaycan Respublikasının Dövlət bayrağı bərabər enli üç üfqi zolaqdan ibarətdir. Yuxarı zolaq mavi, orta zolaq qırmızı, aşağı zolaq yaşıl rəngdədir və qırmızı zolağın ortasında bayrağın hər iki üzündə ağ rəngli aypara ilə səkkizguşəli ulduz təsvir edilmişdir. Bayrağın eninin uzunluğuna nisbəti 1:2-dir.

**III.** Azərbaycan Respublikasının Dövlət bayrağının və Azərbaycan Respublikasının Dövlət gerbinin təsviri, Azərbaycan Respublikasının Dövlət himninin musiqisi və mətni Konstitusiya qanunu ilə müəyyən edilir.



# BAYRAQ ANLAYIŞI. DÖVLƏT BAYRAĞI

Dövlətin yaranması ilə meydana gələn, onun ləğvi ilə aradan qaldırılan bir sıra elementlər var ki, onların varlığı dövlətin mövcudluğundan xəbər verir. Bura ideoloji, iqtisadi, siyasi, hərbi, dini-fəlsəfi və s. elementlər aiddir. Dövləti xarakterizə edən bu elementlər sırasında siyasi hakimiyyət (hakimiyyətin formaları və dövlət institutları), ərazi (dövlət institutlarının fəaliyyət göstərdiyi və hökumətin hakimiyyəti yayılan, sərhədlərlə çərçivələnən məkan), iqtisadi potensial (o cümlədən, öz valyutasına malik olmaq hüququ), silahlı qüvvələr, ölkə əhalisinin etnik tərkibi, dövlət dili, dövlət ideologiyası (din, ənənələr, inkişaf haqqında təsəvvürlər), və nəhayət, dövlətçilik simvolları önəmli yer tuturlar. Dövlətçilik anlayışı ilə müəyyən ərazinin sərhədləri çərçivəsində cəmiyyətin təşkili dərəcəsi bildirilir; dövlətçiliyin mövcudluğu isə cəmiyyətdə sabitliyi və hakimiyyət davamlılığını təmin edir.

Tarixi inkişaf yollarından asılı olaraq dövlətçilik rəmzləri daim dəyişir. Belə ki, "Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibəti ilə Azərbaycan xalqına müraciəti"ndə göstərilir ki, müasir Azərbaycan dövlətçiliyinin rəmzləri Parlament, hökumət, ordu, pul vahidi, Bayraq, Gerb, Himn və Konstitusiyadır.

Hələ dövlətlərin təzə-təzə fomalaşdığı, ilk dövlətlərin yarandığı dövrlərdə dövlətçiliyin zahiri tərtibatına böyük diqqət yetirilirdi. Bu tərtibatda önəmli rolu rəmzlər oynayırdı. Rəmzlər onun daşıyıcısının dünyagörüşü və ideologiyasını biruzə verən əşya şəklində deklarasiya olunurdu. Qədim Çin filosofu Konfusinin dili ilə desək, dünyanı insanlar deyil, rəmz və nişanələr idarə edirlər.[1] Doğrudan da, hər hansı ölkəni tanıtmaq üçün iki üsuldan istifadə edilir: verbal və işarəli. Verbal üsula ölkənin adı, işarəli üsula gerb və bayraq aid olunur. Əlavə şərhə ehtiyac olmadan gerb və bayrağın mövcudluğu konkret dövlətin varlığını

1- E.ə. 551-479-cu illərdə yaşamış Konfusinin yaratdığı fəlsəfi cərəyanın əsas müddəaları Qədim Çin dövlətinin rəsmi ideologiyasını təşkil etmişdir.



Şəkil 4. Qədim Misir gəmisində aypara və günəş təsvirləri olan ştandartlar (Cəbəl əl-Arak ərazisində tapılmış bıçaq dəstəyi üzərində təsvir. D.Rola əsasən).

bildirir. Aypara və ulduzu olan göy, qırmızı, yaşıl üfqi zolaqlı bayraq Azərbaycanı bildirir.

Bizim adət etdiyimiz formada, yəni ağac saplı və onun üzərinə taxılmış parçadan ibarət ən qədim bayraq təsviri Qədim Misirdə tapılmışdır. Belə ki, firon III Ramzesin (e.ə. 1204-1173-ci illər) hakimiyyəti dövründə çəkilmiş divarüstü təsvirdə belə bayrağı görmək mümkündür.[2] Qədim Misirdə ölkənin hər əyalətinin və iri şəhərinin öz rəmzi olduğundan (ölkədə ümumi tanrılardan başqa "yerli", yəni hər ərazinin özünün sitayiş etdiyi tanrılar da var idi) onların gəmilərində müxtəlif ştandartlar qurulurdu **(Şəkil 4)**.

Yazılı mənbələrdə bayrağın ənənəvi formalarının təsvir edilməsi e.ə. 1112-ci ilə aid edilir və Qədim Çin dövlətində imperator Çounun hakimiyyəti dövrünə təsadüf edir. Məlumatlardan aydın olur ki, burada parçası ağ rəngdə olan, üzərində göy və sarı əjdahalar, ağ pələng, qırmızı quş təsvir edilən bayraqlardan istifadə edilirdi.[3] Elə həmin dövrdə Qədim Hindistanda üzərində sarı heyvanların təsviri olan qırmızı və yaşıl rəngli üçbucaq formalı parçaya malik bayraqlar mövcud idi.[4] Beləliklə, bayraqların vətəni Şərqdir, bu isə onunla bağlıdır ki, məhz Şərqdə ilk dövlətlər yaranmışdır.



Şəkil 5. Daş lövhə üzərində Assuriya çarı Tikulti-Ninurtaya məxsus ştandart (İstanbul Arxeologiya Muzeyi. F.Kurtoğluya əsasən).

Qədim Assuriyada ştandart hökmdarın iqamətgahı üzərində və ya onun arabasında qurulurdu. Arxeoloqlar daha çox öküz şəkli olan ştandartları aşkar etmişdirlər. İstanbul Arxeologiya Muzeyində Assuriya çarı Tikulti-Ninurtaya aid daş lövhə qorunur. Lövhə üzərində verilən təsvirdən aydın olur ki, çarın hakimiyyət rəmzi sapa taxılmış günəş rəmzi (araba təkərini xatırladan halqa və daxilində 8 guşəli ulduz) və ona bağlanmış iki lentdən ibarət olmuşdur **(Şəkil 5)**.

Əhəməni dövlətində üzərində qartal fiquru taxılmış ştandart istifadə olunurdu, bəzi hərbi hissələrdə günəş rəmzləri var idi. Zərdüştlüyün yayıldığı dövrdə qvardiya hərbi hissələrinə qızıl xoruz (od rəmzi) fiquru olan ştandartlar - sancaqlar daşımaq hüququ verilirdi. Erkən orta əsrlər dövründə Sasani dövlətində günəş rəmzi olan sancaqlar çoxluq təşkil edir, bununla belə üzərinə parça taxılmış bayraqlardan da istifadə olunurdu. Rəvayətə görə, belə bayrağın icad olması dəmirçi Gavənin adı ilə bağlanırdı: zülmə qarşı çıxan dəmirçi Gavə öz önlüyünü çıxarıb ağac sapdan asmış və beləliklə bayraq düzəltmişdir.[5]

Qədim Yunanıstanda hər şəhər-dövlət üzərinə rəmz taxılan sancağa malik idi: Afinanın rəmzi zeytun dənəsi və bayquş təsviri, Spartanın - "A" hərfi, Messeniyanın - "M" hərfi, Korinfin - qanadları olan at (peqas) və s.

[2] - Флаги рассказывают. Ленинград, 1972, стр.5.
[3] - Виллинбахов Г.В. Русские знамёна. Очерки. Санкт-Петербург, 2005, стр. 13.
[4] - Иванов К.А. Флаги государств мира. Москва, 1971, стр.4.
[5] - Kurtoğlu F. Türk bayrağı və ay yıldız. Ankara, 1992, sah. 16.







Şəkil 6. Qədim Misir hərbi dəstəsinin daş lövhə üzərində təsviri. Öndə gedən başçı sol əlində aypara və şahin təsviri olan ştandart saxlayır (D.Rola əsasən).

Qədim Romada bayraq və sancaqlar ümumi adı "siqna militariya" (hərbi rəmzlər) adlı nəzəriyyə şəklində formalaşmışdılar. Ordunun hər legionunun və onun tərkibinə daxil olan hər koqorta, manipula və senturiyanın öz rəmzləri var idi. Bu rəmzlər üzərinə müxtəlif fiqurlar taxılmış sancaqlar, sonralar isə üzərində yazı olan parçalı bayraq şəklində idilər. Sancaqlar üzərinə gümüşdən hazırlanmış açıq əl, qartal, at, qurd, ayı, ildırım fiqurları taxılırdı. Suvari hərbi hissəyə latın dilində "Vexsillum" adlanan parçalı bayraq verilirdi. Hərbi hissə buraxıldıqda və ya ləğv edildikdə onun rəmzləri məbədlərə təhvil verilir və burada müqəddəs əşya kimi qorunurdu **(Şəkil 7)**. Beləliklə, Qədim Romada bayraq və sancaqları qoruyaraq tarixi rəmzlər kimi saxlamaq, sonrakı nəsillərə ötürmək ənənəsi yaranmışdır. İmperator Konstantinin dövründə (IV əsr) Romada xristianlıq dövlət dini kimi qəbul ediləndə üzərində xaç rəmzi olan bayraq və sancaqlardan istifadə edilməyə başladı.[6]



Şəkil 7. Qədim Roma ordusunun bayraqdarı və hərbi rəmzlər.

Məhəmməd peyğəmbərin hicrətinin I ilində müsəlmanlar "Livayi beyza" adlanan və paklıq, təmizlik rəmzi olan ağ qumaşdan hazırlanmış uzunsov düzbucaq bayraq altında fəaliyyət göstərmişdilər. Türk tədqiqatçısı F.Kurtoğlu bildirir ki, Xeybər müharibəsindən sonra qara rəngli bayraqlardan da istifadə edilirdi. Sonralar Əməvilər sülaləsi ağ, onların rəqibləri Abbasilər qara bayraqlardan istifadə edirdilər.[7] Xəlifə əl-Məmunun dövründən başlayaraq yaşıl bayraq istifadə edilirdi, çox keçmədi ki, bu bayrağın üzərinə islam rəmzi olan aypara, Quran-i Kərimdən cihad və zəfərlərə səsləyən bəzi ayələr tikilməyə başladı.

[6] - Yena orada, sah. 18.
[7] - Yena orada, sah. 21-22.



Şəkil 8. Müsəlman döyüşçülərin dəstəsində bayraqlar (əl-Zəriri, "Məqamlar" əlyazması, İraq, XII əsr).

Tədricən bu ənənə Ərəb Xilafətinin bütün əyalətlərində, sonra isə islam dövlətlərində yayılmışdır **(Şəkil 8)**.

Demək olar ki, bütün tədqiqatçılar belə fikirdədirlər ki, bayraq döyüşçülərin toplanmaq yerini göstərən şərti rəmz kimi meydana gəlmişdir.[8] Təbiidir ki, bu şərti rəmz tayfanın bütün döyüşçülərinə tanış olmalı və düşmən tayfanın şərti rəmzindən fərqlənməli idi. Beləliklə, əgər bayrağın birinci funksiyası toplanma yerini göstərən rəmz olmalıdırsa, onun ikinci funksiyası döyüş zamanı öz döyüşçülərinə birləşmə yerini bildirməli idi. Bu səbəbdən bayraq əlvan və kifayət qədər iri olmalı idi ki, uzaq məsafədən seçilsin.

Hərbçiliyin inkişafı zamanı bayrağın növbəti funksiyası meydana gəlmişdir ki, bu da qoşun komandanının mövqeyini göstərməkdən ibarət olmuşdur. Başdan ayağadək zireh geyinmiş döyüşçülər toz-dumanın içində, döyüşün gedişi zamanı öz sərkərdələrini görməli və ya ən azı, onun harada olmasını bilməli idilər. Nəticədə, komandan hər yerdə öz bayrağı ilə hərəkət edirdi: döyüşçülər bilirdilər ki, komandan bayrağın olduğu yerdədir. Döyüş zamanı hər iki tərəfin döyüşçüləri düşmən bayrağı olan tərəfə atılırdılar ki, düşmən sərkərdəsini öldürsünlər və onun bayrağını salsınlar və düşmənlər arasında çaxnaşma yaransın. Döyüş zamanı döyüşçülər öz sərkərdələrinin bayrağını görməyə çalışırdılar. Belə ki, bayrağın hərəkətləri ilə (sağa və sola yelləmə, qaldırıb saldırma) sadə komândalar verilirdi, çünki döyüş zamanı səslə verilən komandalar çox vaxt eşidilmirdi və nəticədə bayrağın növbəti - vacib hərəkətləri göstərmək funksiyası meydana gəlmişdir.

Bayraq üzərində elə rəmzlər təsvir edilirdi ki, hamı onları başa düşsün. Bu isə, əksər hallarda nəsil və ya tayfanın totemləri olurdu. Beləliklə, bayrağın itirilməsi təkcə toplama və birləşmənin şərti rəmzinin, siqnal elementinin itirilməsi deyil, həm də nəsil və ya tayfanı bəd qüvvələrdən qoruyan rəmz olan əşyanın itirilməsi demək idi. Bu səbəbdən bayrağın daşınması ən güclü, intizamlı döyüşçüyə tapşırılır, onun mühafizəsi üçün ən etibarlı döyüşçülər təyin olunurdu. Orta əsrlər dövründə islam ölkələrində bayraqdar funksiyasını "əmir-ələm" (ələm daşıyan əmir) vəzifəsini tutan zadəgan icra edirdi.[9] Beləliklə, bayrağın ən vacib funksiyası formalaşdı: bayraq - şərəf və ləyaqət rəmzi kimi qəbul olunurdu. Məhz bu funksiya tədricən bayrağı dövlətçilik rəmzinə çevirdi.

Dövlət quruculuğu, hərbi iş və inzibati idarəetmənin ayrılmaz tərkibi olan "bayraq" termininin dəqiq açıqlanması son dövrlərədək yox idi. İlk növbədə bu

[8]- Маковеев М. О Знамени, которому присягаем. Москва, 1974, стр.8; Курочкин Н. Знамя части. Киев, 1970, стр. 7; Флаги рассказывают, стр. 6; Шатунов Г. Символ воинской чести, доблести и славы. Москва, 1975, стр. 5

[9]- Əhmadov S. XII -XV asrlarda Azarbaycanda harb işinin tarixi t.e.dn. dissertasiyasının avtoreferatı, B., 2001, sah. 7.



8800-7






Şəkil 9. Bayrağın tərkib hissələri.

onunla bağlı idi ki, bayraq bir çox dillərdə bir neçə anlayışla bildirilir: azərbaycan dilində - bayraq, sancaq, tuğ, buncuq; rus dilində - знамя, штандарт, флаг, стяг, прапор, вымпел, значок, бунчук; ingilis dilində - solours, banner, standard, ensign, flaq; fransız dilində - enseiqne, draplau, oriflamme, banniere, etendard, pavillion, pennon, fanion; alman dilində - Fahne, Banner, Panier və s. Anlayışların belə müxtəlifliyi bayraqların tarixi formalarının müxtəlif olması ilə bağlıdır. Hal-hazırda qəbul olunmuş nəzəriyyəyə görə bayrağa aşağıda göstərilən şəkildə tərif verilir: **Bayraq - bir tərəfi sapa birləşdirilən, çox vaxt üzərində emblematik təsvir, yazılar və orden lentləri ilə bəzədilən bir və ya çoxrəngli parçadır. Bayraq insanların milli, hərbi, partiya**

M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası

**və peşə birliyinin rəmzidir.** Beləliklə, bayrağın zahiri görünüşü onun insanları hansı prinsip əsasında birləşdirməsini bildirməlidir.

Simvolizm nöqteyi-nəzərindən bayraqlar 2 qrupa bölünürlər: 1.birlik rəmzi olan bayraqlar (milli, dövlət, müxtəlif təşkilatların, hərbi hissələrin, gəmilərin bayraqları); 2. hakimiyyət rəmzi olan bayraqlar - vəzifəli şəxsə verilən ştandartlar.

Müasir ədəbiyyatda, əsasən qəzet və jurnallarda çap olunan məqalələrdə dövlət və milli bayraqlar çox vaxt qarışdırılır, halbuki, bunlar fərqli anlayışlardır. Dövlət bayrağı - dövlət süverenliyinin rəmzidir. Milli bayraq bu və ya digər millətin formalaşdığı dövrdə yaranır və dövlət bayrağından fərqlənə bilər.

Bayrağı təşkil edən elementlər "bayraq kompleksi" adı ilə birləşdirilir. Bayrağın əsasını onun parça hissəsi təşkil edir. Parça hissə sapa xüsusi bayraq mıxları ilə vurulur və dördbucaq, üçbucaq şəklində və ya iki dişli ola bilər. Sapa taxılmaq üçün parça hissəyə kisəcik tikilir. Bayrağın parça hissəsi adətən ipəkdən olur. Belə olduqda bayrağın parçası azacıq külək olduqda belə yellənir. Bayrağın parçasının sapa yaxın olan hissəsi saplıq hissə, əks tərəfi isə sərbəst hissə adlanır. Parçanın üst və alt kənarları, dörd küncü, həmçinin üz və arxa tərəfləri var (bayrağın parçası sapdan sağa açılanda görünən hissə üz tərəf sayılır). Parça hissənin qorunması üçün onun üzərinə gön və ya parça kisəcik taxılır. Bayrağın ağac sapı adətən kəsikdə dəyirmi formada olur. Sapın başına ucluq taxılır. Ucluq metaldan nizə, kürə və ya dövlətdə qəbul olunmuş müəyyən rəmz şəklində olur. Ucluğun boru hissəsinə çox vaxt lentlər və ya qotazlı qaytanlar asılır. Parçadan aşağıda sapa metal halqa bərkidilir, bəzən onun üzərində xatirə yazıları olur. Sapın aşağı hissəsinə taxılan boru dayaq rolunu oynayır. Bayraq kompleksinə pantaler daxildir. Pantaler bayrağın daşınmasını asanlaşdırmaq üçün bayraqdarın çiynində asılan gön qayışdır. **(Şəkil 9)**.

Dövlətçilik nəzəriyyəsi və onun tarixi ilə bağlı əsərlərin çox olmasına baxmayaraq, dövlətçilik rəmzlərinin tarixi ilə bağlı əsərlər azdır. Nəzərə almaq lazımdır ki, bayraqlar haqqında elm - veksillologiya çox gəncdir. Hələ XX əsrin 20-ci illərində sovet tarixşünaslığında "bayraqşünaslıq" termini meydana gəlmiş, lakin "bayraqşünaslıq" bayraqları müstəqil tarixi mənbə kimi deyil, köməkçi tarixi mənbə kimi qəbul edirdi. XX əsrin ortalarında "veksillologiya" termini yayılmışdır. Termin ilk dəfə 1957-ci ildə amerikalı tədqiqatçı U.Smit tərəfindən təklif edilmişdir. Niderland, Belçika və Danimarkada daha çox "banneristika" terminindən istifadə edilir (german dillərində "banner" - bayraq deməkdir). Yunanıstanda qədim dövrlərdən "labarum" terminindən istifadə olunur, lakin termin digər dillərdə yayılmamışdır. Alman dilində istifadə edilən "flaq" termini isə çox Avropa dillərində yayılmışdır. 1962-ci ildə ABŞ-nın Boston şəhərində







Şəkil 10. Luristan (İran) ərazisində tapılmış bürünc ştandart.

"Bayraqların öyrənilməsi mərkəzi" açılmış və hal-hazırda bu mərkəzdə bir çox ölkənin bayraqlarla məşğul olan tədqiqatçıları birləşmişlər. Bayraqlarla bağlı ilk beynəlxalq konqres 1965-ci ildə Niderlandda keçirilmişdir.

Bayraqlarla bağlı tədqiqatlar əsasən onların tərkib hissələrinin təsvir edilməsindən, parça növlərinin öyrənilməsindən, onların bərpa və konservasiya problemlərindən kənara çıxmamışdır. Muzeylərə düşməzdən əvvəl bayraqlar illərlə istifadə-

də olur. Orden və medallar, sikkə və bonalardan fərqli olaraq bayraqlar adətən 1-2 nüsxədə düzəldilir. Bütün bu səbəblərdən onlar ən nadir tarixi abidələrdən hesab olunur. Bununla belə bayraqlar vacib tarixi mənbə və ən baxımlı muzey eksponatlarıdır. Bayraqların üzərində olan təsvirlərin araşdırılması, onların mənalarının açıqlanması məsələləri ilə yenicə məşğul olunmağa başlanmışdır.

Veksillologiya termini "vexillum" latın sözündən götürülmüş və hərfi tərcümədə "bayraqları öyrənən elm" mənasını verir. Veksillologiya bütün növ bayraqlar, sancaqlar, ələmlər, ştandartlar, buncuqlar, həmçinin onların struktur komponentlərini, bu komponentlərin hazırlandığı materialları və onların rənglərini, üzərində olan şəkil və yazıların mənalarını öyrənir, bayraqlar və digər sadalanan rəmzlərin sosial funksiyasını, tarixi rolunu və təkamül mərhələlərini araşdırır.

Müəyyən rəmzi işarənin təsvir edilməsi üçün vacib olan bayraqlar müxtəlif formalarda hələ qədim dövrlərdə meydana gəlmişdilər. Əksər hallarda parça hissə, onun taxılması və daşınması üçün istifadə edilən sapdan və sapa taxılan müxtəlif rəmzi elementlərdən (ucluq, lentlər, qotazlar və s.) ibarət olan bayraq onun sahibinin şərəf və ləyaqət təcəssümü olmuşdur. Təyinatından aslı olaraq bayraqlar müxtəlif ölçülərdə olur.

Bayraqların müxtəlif növləri mövcuddur. Onların əsasları aşağıdakılardır:

Dövlət Bayrağı - dövlətçilik rəmzi olaraq dövlət idarələri üzərində asılır. Onun qaldırılıb-endirilməsi təntənəli şəraitdə həyata keçirilir.

Milli bayraq - bir çox hallarda Dövlət Bayrağını təkrarlayır. Bu bayraqlar öz millətinə hörmət rəmzi olaraq bütün vətəndaşlar tərəfindən istifadə oluna bilər.

Ticarət donanması bayrağı - ticarət gəmisinin hansı ölkəyə mənsubluğunu göstərir. Bir çox hallarda ticarət donanması bayrağı Dövlət Bayrağını təkrarlayır.

Hərbi-dəniz donanması bayrağı - dövlətin hərbi donanmasının rəmzi olaraq hərbi gəmilərdə qaldırılır. Üzərində Dövlət Bayrağının rəng və elementləri ola bilər.

Hərbi hissə bayrağı - Silahlı Qüvvələrin hər bir hərbi hissəsinə verilən bayraq olaraq bu hərbi hissənin rəmzi sayılır. Bayrağın itirilməsi hərbi hissənin ləğv edilməsi, günahkar şəxslərin cinayət məsuliyyətinə cəlb olunması ilə nəticələnir.

Vəzifəli şəxsin ştandartı - müəyyən vəzifənin rəmzi olaraq istifadə edilən bayraqdır. Vəzifəni daşıyanın qərargahında olan ştandart həmin şəxsin nəqliyyat vasitələrində də yerləşdirilir.

Müəyyən təşkilatın və ya şəxsin rəsmi olaraq təsdiqlənmiş rəmzi olan bayraqda təşkilatın və ya şəxsin qazandığı təltif nişanları öz əksini tapmalıdır. Bu səbəbdən verilmiş təltif nişanları (orden, medal, lent, fəxri ad) bayraqda göstərilməlidir.

Bayraqları qruplara bölərkən aşağıdakı təsnifat əlamətləri nəzərə alınır:





1. Forma - texnoloji əlamətlər (bayraq, standart, vımpel və s.);
2. Hadisələrə və ya dövrlərə aidiyyatı (1945-ci ilin mayında Reyxstaq üzərinə sancılmış Qələbə bayrağı; inqilab, üsyan bayraqları, müəyyən tədbirlə bağlı düzəldilmiş bayraq (misal üçün, konfrans, simpozium, idman yarışlarının bayraqları);
3. Məxsusluğu: şəxsi, ailəvi, peşə; korporativ; konfessional; hərbi; etnik; inzibati ərazi vahidləri; milli; beynəlxalq; dövlət bayraqları.

Bayraq özünün sahibi barəsində məlumatı aşağıdakı vasitələrlə çatdırır:

- parça hissənin forması, rəngi, üzərində olan şəkil və yazılarla;
- sapın rəngi və uzunluğu ilə;
- sapa taxılan elementlərin (ucluq, lent, qotazlar) forması, rəngi və şəkilləri ilə;
- əlavə elementlərlə (bayrağa taxılmış təltif nişanları).

Veksillologiyada istənilən rəngdən istifadə etmək mümkündür. Veksillologiya Assosiasyalarının Beynəlxalq Federasiyası (FIAV) tərəfindən təsdiqlənmiş qaydalara görə rənglər layihələrdə yazılı formada da göstərilə bilər. Bunun üçün aşağıdakı hərflərdən istifadə edilir: R - qırmızı; B - göy; V - yaşıl; N - qara; M - qəhvəyi; W - ağ; P - al-qırmızı; F - bənövşəyi; Gr - boz; Or - narıncı; Au - qızıl; Ag - gümüşü. Rəngin tündlüyü və ya açıqlığı "+" və "-" işarələri ilə göstərilir: "B+", yəni tünd göy; "M-", yəni açıq qəhvəyi və s. Bir fiqur təsviri digəri üzərinə qoyulduqda onların rəngləri aşağıdakı şəkildə göstərilir: "B/Y", yəni sarı fon üzərində göy fiqur (və ya zolaqlar) və s.



Bakı xanlığının bayrağının fraqmenti (XVIII əsr)

# AZƏRBAYCANDA BAYRAQLARIN TƏKAMÜL TARİXİ

Azərbaycanda bayraq hələ e.ə. XIV-XIII əsrlərdə ştandart şəklində meydana gəlmişdir. Bürüncdən düzəldilmiş və ağac sapcığa taxılmış bu ştandartlar, ehtimal ki, hökmdarın hakimiyyətinin rəmzi mənasını daşıyırdı. Maraqlıdır ki, bütün tapılmış ştandartlar buynuzlu heyvanların təsvirləri ilə bəzədilmişdir.[10] Manna qalalarını təsvir edən e.ə. VIII-VII əsr Assuriya divar rəsmlərində də belə şəkillərə rast gəlmək olar **(şəkil 11)**.[11] Ehtimal olunur ki, bu dövrdə dövlətçiliyin bu nişanələri qoruyucu talisman rolunu oynayırdı (indiyədək Azərbaycanın bir çox rayonlarında keçi və qoç buynuzları divar və darvazaların yuxarı hissəsində bərkidilir və "bəd nəzər, bəd qüvvələrdən" qoruyan vasitə hesab edilir). Belə bir mülahizə mövcuddur ki, Qobustanın qayalarındakı daşların birində bayraq daşıyan döyüşçü təsvir edilmişdir. Bu fərziyyə hələ öz sübutunu tapmasa da, Lena çayı hövzəsindəki qədim qayaüstü rəsmlərdən biri bu fərziyyənin doğru olmasına dəlalət edə bilər **(şəkil 12)**.[12]

Hərbi əməliyyatlarda bayrağın önəmli rolu onun praktiki əhəmiyyətini artırmış və nəticədə forma dəyişikliyinə səbəb olmuşdur. Azərbaycanda döyüşdən əvvəl qoşunlar bayrağın ətrafında düzülür və bununla baş komandanın yerləşdiyi yeri büruzə verirdi.[13]

Bəzi hallarda belə nişanə kimi komandanın bəzədilmiş çadırı çıxış edirdi (məsələn, X əsr Azərbaycan Salarilər dövlətində). Tarixçi H.Delbürk ehtimal edir ki, Avropada XII-XIII əsrlərdən sonra üzərində müqəddəs əşyalar olan araba (ital. "karoççio") nişanəsi səlib yürüşləri zamanı Şərqdən götürülmüşdür.[14] Lakin bu nişanələrin iri və ağır olması onlara nisbətən daha yüngül və çevik olan bayrağın əhəmiyyətini artırmalı idi. Döyüş ayrı-ayrı toqquşmalara bölündükdən sonra bayraq ehtiyat qüvvələri və yaralıların daima nəzarətdə saxladıqları oriyentir rolunu



Şəkil 11. Manna qalalarını təsvir edən e.ə. VIII-VII əsr Assuriya divar rəsmlərində rəmzlər (buynuzlar).



Şəkil 12. Sibirdə Lena çayı hövzəsində qədim qayaüstü rəsmlərində bayraq təsviri.

[10] - Azərbaycanda əksər hallarda ştandartlara maral, öküz, keçi təsvirləri taxılırdı (bu barədə növbəti paraqrafda ətraflı məlumat verilir).
[11] - Ахундов Д.А. Архитектура древнего и раннесредневекового Азербайджана. Б., 1986, с.83.
[12] - Липец С.С. Образы батыра и его коня в тюрко-монгольском эпосе. М., 1984 (фото IV форзаца).
[13] - Мамедов С.Г. История военного дела в Азербайджане (с древнейших времен до века). Б., 1998, с. 206, 224.
[14] - Дельбрук Г. История военного искусства в рамках политической истории, т.3., М., 1938, с.113.



Şəkil 13. Erkən orta əsr Avropa salnamələrində "heyvanabənzər bayraq" təsviri.



Şəkil 14. Sibirdə qədim hun qəbirlərindən aşkarlanmış bayraqlar.

oynayırdı. Döyüşün gedişinin göstəricisi kimi bayraq çox böyük əhəmiyyətə malik idi: əgər düşmən bayrağa çatıb onu yıxırdısa, məğlubiyyət qaçılmaz idi. Məhz buna görə "Kitabi-Dədə Qorqud" dastanının qəhrəmanları ilk həmlə ilə düşmənin "tuğ və bayrağını qılınclayıb salmağa" can atırdılar.[15] Döyüşən tərəflər bayrağı düşməndən qorumaq üçün onun ətrafına ən etibarlı döyüşçüləri yerləşdirirdilər. Bir çox hallarda ən qızğın toqquşmalar bayraq ətrafında baş verirdi.

VII əsr alban tarixçisi Moisey Kalankaytuklu özünün "Alban tarixi" əsərində maraqlı məlumat verir və "bizim qoşunlar havada yellənən bayraqlar", "bütpərəstlərin qoşunları heyvanabənzər bayraqlar daşıyırlar" ifadələrini işlədir. Sovet tədqiqatçısı K.V.Trever ehtimal etmişdir ki, mənbədə göstərilən "heyvanabənzər bayraqlar" ipək parça və sapa taxılan gümüş heyvan başı təsvirindən ibarət idi.[16] Eyni cür bayraqlar erkən orta əsr Avropa və Şərq dövlətlərində tətbiq olunurdu **(şəkil 13)**. Beləliklə, bayraqların ilkin təkamülü ştandart (heyvan təsvirləri ilə) - "heyvanabənzər bayraq" - "yellənən bayraq"dan keçmişdir. Gördüyümüz kimi, bayraq ucluqları kiçilir, parça hissə isə böyüyürdü. Ehtimal ki, bu, parça hissənin daha çox məlumat əks etdirmək qabiliyyəti ilə bağlı idi.

Beləliklə, artıq erkən orta əsrlərdə bayraq indiyədək dəyişməz qalmış formanı almışdır: bir və ya çoxrəngli parça hissə yan tərəfi ilə sapa bərkidilir, sapın başına ucluq taxılır və əlavə elementlər (saçaq, lent və s.) asılırdı. Bayraqların ölçüləri haqqında dəqiq məlumat vermək çox çətindir: hər halda, belə nəticəyə gəlmək olar ki, süvari dəstələrin bayraqları piyada dəstələrin bayraqlarına nisbətən daha kiçik düzəldilirdi. Müxtəlif formalarda (dördbucaq, üçkünc, beşkünc, uzunsov düzbucaq) olan bayraqlara parçadan dillər tikilirdi ki, onlar da müəyyən məlumatı əks etdirirdi. **(şəkil 14)**. Əlahiddə dəstələr öz başçılarının rəmzlərini daşıyan və ya dövlətin baş bayrağının kiçildilmiş surətindən istifadə edirdilər.[17] Azərbaycan Ərəb xilafətinin tərkibində olduğu zaman (VII-XI əsrin ortaları) bayraqlar "rəyya" anlayışı ilə tanınırdı. Eyni anlayışla həm də min nəfərlik dəstə də adlandırıldığından, bu hər min döyüşçüyə (minliyə) bir bayraq düşdüyünü söyləməyə imkan verir. Xalq azadlıq üsyanının rəhbəri Babəkin qoşunlarında həm baş bayraq, həm də dəstələrin bayraqları al-qırmızı rəngdə (od-alov rəngində) olduğundan farsdilli müəlliflər xürrəmiləri "surxaləm" ("albayraqlılar"), ərəbdilli müəlliflər isə "muxammira" ("qırmızı geyinənlər")[18] adlandırırdılar.

[15]- Kitabi Dədə Qorqud (tərt. Zeynalov F., Əlizadə S., qeydlər Əliyarov S.) B., 1988, s. 50.
[16]- Тревер К.В.Очерки по историй и культуре Кавказской Албаний. М.- Л., 1959, с. 287-288.
[17]- Рашид ад-Дин Фазлуллах. Джами ат-таварих. т. II, Пер. Ю.П.Верховского. М.- Л., 1960, с. 29, 30; Ибн ал-Асир. Тарих ал-Камил (Материалы по истории Азербайджана). Пер. Жузе П.К. Б., 1940, с. 117.
[18]- Seyfullaoğlu A. Xürrəmilər üsyanının hərbi-siyasi cəhətləri. "Hərbi bilik", 1999, № 2, səh. 87; Вторая записка Абу Дулафа. Пер. П.Г.Булгакова, А.Б.Халидова. М., 1960, с. 37.





Azərbaycanda IX-XI əsrləri əhatə edən feodal dağınıqlığı dövrü dövlətçilik və onun rəmzləri ənənələrinə də təsir etmişdir. Vassalitet prinsipləri (yəni hər feodalın öz ağabəyinə tabe olduğuna baxmayaraq öz torpaq və qoşununun tam sərbəst sahibi hesab edilməsi) hər feodalı digərlərindən seçmək üçün vasitələr axtarmağa vadar edirdi. Belə vasitələr paltar (müəlliflər bir çox hallarda döyüşə düzülmüş feodal qoşunlarını "al-əlvan tovuz quşları"na bənzədirlər) və bayraqlardan ibarət idi. Əgər paltarların bəzədilmə səviyyəsi ilk növbədə feodalın maddi imkanlarından asılı idisə, bayraq istifadəsi müəyyən qaydalarla tənzimlənirdi. Hər hansı bir rütbənin və ya vəzifənin verilməsi iqta torpaq payı, fəxri xələt, nağara və bayraq verilməsi ilə tamamlanırdı. Təbii ki, bunları öz vassalına verən ağabəy maraqlı idi ki, onun vassalının bayrağı eyni rəmzlərə malik olsa da, onun öz bayrağından daha kiçik və az bəzədilmiş olsun. Məhz bu zaman bayraqları bildirmək üçün müxtəlif anlayışlardan istifadə edilir. Mənbələr bayraq, sancaq, ələm, tuğ kimi anlayışları göstərir (müəlliflər "bayraq və nişanələr" deməklə bayrağı hər zaman xüsusi olaraq qeyd edirlər).[19] Müxtəlif mənbələrin, o cümlədən miniatürlərin təhlil edilməsi aşağıda göstərilən nəticəyə gəlməyə imkan verir. Həm bayraq, həm də sancağın ucluğu "muncuq" anlayışı ilə bildirilirdi. "Ələm" anlayışı sap üzərinə taxılmış çərçivəyə çəkilmiş parça hissəni bildirirdi (hər halda ələm bu mənada "Samak-Əyyar" (X-XIII əsrlər) əsərində təsvir edilib).

Maraqlıdır ki, atəşpərəst müəllif tərəfindən qələmə alınmış bu xalq romanında al və qara ələmlərin mübarizəsindən söhbət açılır, bu da atəşpərəstlərin və müsəlmanların mübarizəsinin təcəssümü kimi qəbul edilə bilər).[20] İstanbulun Əsgəri Muzeyində saxlanılan XV əsr ələmləri göstərir ki, bu zamanadək onların forması dəyişmiş, daha əlverişli olmuşdur.[21] Bu zaman o, üçbucaq parça hissədən və muncuq taxılan sapdan ibarət idi. Muncuqlar ayparaşəkilli və ya uzunsov beşbucaq formasında olub, Qurandan götürülmüş ayələr ilə bəzədilmişdir. Miniatürlər və muzey nümunələri göstərir ki, bir çox muncuqlar açılan gül qotazını xatırladır **(şəkil 15)**. "Tuğ" adlanan nişanın içi boş olan sapı (çəkisini yüngülləşdirmək üçün: süvari üçün bu amil çox önəmli idi) və ya kürəsi, ya da ayparaşəkilli muncuğu var idi.[22] Muncuğun altında göy, qara, qırmızı rənglərlə boyanmış at tüklərindən ibarət bunçuq bağlanırdı ki, onun tükləri ya sər-



Şəkil 15. Açılan gül şəklində bayraq ucluğu. Milli Azərbaycan Tarixi Muzeyi, XVII əsr.

[19]- ан-Несеви, Шихаб ад Дина Манкбурны. Жизнеописание султана Джалал ад-Дина Манкбурны. Пер. Буниятова З.М., Б., 1973, с. 184; Зайн ад Дин Казвини. Зайл-и тарихи гузида. Пер. Кязимова М.Д., Пириева В.З. Б., 1990, с. 119.
[20]- Самак-айар. Пер. Кондыревой Н.М. кн. Ы., М., 1984, с. 555; ан-Несеви, с. 203.
[21]- Bodur F. Türk maden seneti, Istanbul, 1987, sah. 175.
[22]- Wendalen Boeheim. Waffen -kunde. Leiptiq, 1890, p.371; Гийас ад-Дин Али. Дневник похода Тимура в Индию. М., 1958, с. 52; Хунджи Фазлуллах ибн Рузбихан. Тарих-и алам арай-и амини. Пер. В.Минорского, Буниятова З.М.Б, 1987, с. 104; Yezdi Şəraf ad -Din Əli. Zəfərnamə. B., 1996, s. 37, 43.



Şəkil 16. XVI əsr miniatüründə müxtəlif növ bayraqların təsviri.



Şəkil 17. Divarüstü daş lövhədə piyada bayraqdar təsviri. Cənubi Dağıstan, XII əsr.

bəst yellənir, ya da hörüklənirdi. Tuğlarda müxtəlif sayda bunçuqların olması onun sahibinin müəyyən hərbi rütbəni daşıdığını bildirirdi. Feodallar arasında ən kiçik rütbə cəngavər hesab edilirdi. Cəngavər nişanə kimi nizənin və ya dəbilqənin ucuna bərkidilmiş bayraq (fars. - yalov) daşıyırdı.[23] Miniatürlər göstərir ki, bəzi hallarda cəngavərin yalovu üzərində olan təsvirlər onun ağabəyinin bayrağında olan təsvirləri təkrarlayırdı **(şəkil 16)**. Yalovların uzunluqları və onlara tikilmiş dillərin sayının müxtəlif olması nökərlər arasında təbəqələrin olmasını göstərir. "Yalov" (od, alov) sözü ilə adlandırılması bu kiçik bayraqların əsasən qırmızı rəngdə olduğunu bildirir.

Bir çox hallarda bayraqlar nəsil və qəbilə rənglərinə boyanır və onların nişanələrini daşıyırdı. III-VI əsrlərdə nəsillərin bir qismi nişanə kimi heyvan - vaşaq, öküz, şir, qurd və s. təsvirləri daşıyır və bu bayraqlarda öz əksini tapmışdır. İslamın təsiri bu nişanələri müxtəlif həndəsi, bitki naxışları və ümummüsəlman

[23] - Wendalen Boeheim, c.365; Измайлов В. В блеске мисюрок и бахтерцов. //«Родина» 1997, № 3-4, с.108; Денисов Е.Н., Портнов М.З., Денисова М.М. Русское оружие (IX-XIX вв.). М., 1953, с. 45, 49.





nişanələri (zülfüqar qılıncı, aypara, Qurandan ayələr) ilə əvəz etdi. Maraqlıdır ki, əjdaha təsviri islamdan əvvəl yaranmış, dahi Azərbaycan şairi Nizami Gəncəvinin əsərlərində əks olunmuş, XV əsr miniatürlərində və hətta Şəki Xan Sarayının divar rəsmlərində təsvir edilmiş bayraqlarda göstərilmişdir.

Bayraqların parça hissələri müxtəlif rənglərlə boyanırdı. Ən çox göy, al, yaşıl rənglərdən istifadə edilir, naxış və təsvirlər isə qızılı rəngdə təsvir edilirdi. Al-əlvan rənglərin olması qoşunun idarə olunmasını asanlaşdırdı: komandan toz, tüstü içində, metal əsləhənin parıltısı ilə özünün və ya düşmənin alayının mövqeyini bayraqlar vasitəsilə öyrənirdi. Təbii ki, o, heraldika elmini yaxşı bilməli idi. Ağqoyunlu dövrünün tarixçisi Əbu-Bəkir ət-Tihrani (XV əsr) göstərir ki, bayraqların hərəkətləri ilə müəyyən siqnallar verməк olurdu.[24] Təbii ki, bu məlumat "bayraqların hərəkəti əlifba"sının mövcud olmasından xəbər verirdi. Bir çox hallarda bayraqlarda hökmdarın tuğrası təsvir edilirdi.

Avropa alimləri Malkom, Deqin, Buve belə bir fərziyyə irəli sürmüşlər ki, Qaraqoyunlu və Ağqoyunlu bayraqlarında onların totem heyvanı olan ağ və qara qoyunlar təsvir edilmişdir.[25] Sonralar sovet şərqşünası I.P.Petruşevskinin əsərləri vasitəsi ilə bu fərziyyə ehtimal kimi deyil, danılmaz bir fakt kimi qələmə verilmiş, bir çox elmi və dərs vəsaitlərinə daxil edilmişdir.[26] Tədqiqatçı C.Heyətin fikrincə, qara və ağ qoyunlar ağ fon üzərində təsvir edilirdi.[27] Müəllif döyüşçülərin öz bayraqlarının ağ fonunda ağ qoyunu necə seçdiyi barədə məlumat vermir. Bütün yuxarıda sadaladığımız "faktlar" tarixi dəlillər ilə təkzib olunur. Belə ki, Ağqoyunlu dövrü tarixçisi Dəvvani (XV əsr) "Ərd-namə" əsərində bildirir ki, Ağqoyunlu döyüşçüləri "rayat-i bayda" ("ağ bayraq") altında yasalda (türk. - hərbi parad) fərəhlə addımlayırdılar və bu "Bayanduri nəslinin bayrağı idi".[28] Venetsiya səfiri İosofat Barbaro (XV əsr) Uzun Həsənin sarayında olduğu dövrdə dövlətin vətəndaşlarını "Ak-Koylu" adlandırırdı.[29] Gördüyümüz kimi, heç bir fakt müsəlman dövlətləri olan Qara və Ağqoyunlu dövlətlərinin bayraqlarında heyvan təsvirlərinin olduğunu təsdiqləmir. Və nəhayət, İstanbulun Əsgəri Muzeyində aşkar edilmiş Ağqoyunlu dövlətinin bayrağı mübahisələrə son qoyur **(şəkil 18)**. Bu bayraq ağac sapa taxılmış ağ parçadan ibarətdir. Uzunsov üçbucaqlı ağ parça üzərində qızıl hərflər ilə "Sultan Həsən Bahadır" sözləri yazılmış, mərkəzdə Uzun Həsənin tuğrasının təsviri, kənarlarında isə Qurandan ayələr verilmişdir.[30]



Şəkil 18. Ağqoyunlu hökmdarı Uzun Həsənin bayrağı. Əskəri Muzey, İstanbul.

[24] - Tihrani Əbu-Bakr. Kitabi Diyar Bakriyya (tərc. R.Şükürov). B, 1988, s.114.
[25] - Minorski V. A çivil and military review in Fars in 881 (1476). //BSOAS, London, v.10, p. 153; Sumer F. Karakoyunlular. Ankara, 1992, səh.13
[26] - Петрушевский И.П.Государства Аз-на в XV в. //ССИА, Б., 1949, с. 192-193.
[27] - Heyət C.Türklərin tarix və mədəniyyətinə bir baxış. BB., 1993. səh. 112.
[28] - Minorsky, p. 154, 156.
[29] - Барбаро и Контарини о России. Пер. Е.Ч.Скржинской. Л., 1971, с.10
[30] - Sumer F. Karakoyunlular. Ankara, 1992, səh.13



Şəkil 19. I Şah İsmayıl Xətai və onun bayrağının təsviri. XVI əsr Təbriz miniatürü.

"Cahanarayi Şah İsmayıl" əsərinə (XVI əsr) istinad edən tədqiqatçı M.Abbaslı bildirir ki, "Şah İsmayıl Bağdada özünün ay-ulduzlu bayraqları altında yaxınlaşmışdır".[31] Ehtimal olunur ki, bu elementlərin təsvirləri I Şah İsmayılın qoşunlarının bayraqlarında olmuşdur. Miniatürlərdə I Şah İsmayıl ağ üçbucaq bayraq altında təsvir edilir **(şəkil 20)**. Səfəvi müəllifi Oruc bəy Bayat və XVI-XVII əsr Avropa səyyahları göstərirlər ki, əvvəllər olduğu kimi "hər min nəfər döyüşçü üzərində bir döyüş bayrağı dalğalanır"; bəylərbəyi hakimiyyət rəmzi kimi al bayraq, tümən ağası isə tuğ alırdı.[32] Maraqlıdır ki, bu dövrdə Osmanlı imperatorluğunda qotazların sayı əvvəllər olduğu kimi rütbənin nişanəsi kimi çıxış edirdi; üç qotazlı bunçuğu vəzir, iki qotazlını bəylərbəyi, 1 qotazlını isə sancaqbəyi alırdı.[33]

Daşıdıqları nişanədən asılı olaraq bayraqdarlar bayraqdar, sancaqdar, ələmdar və tuğçı adlandırılırdılar. Bayrağa görə məsuliyyət ən təcrübəli və sadiq əmirə həvalə edilirdi. Tarixçi Əl-Hələbi (XV əsr) göstərir ki, bu şərəf kadi əl-əsgər, yəni hərbi məhkəmə sədrinə də həvalə olunurdu.[34] Bir çox hallarda xüsusi əmir seçilir və o, "əmir-ələm" rütbəsini alaraq öz dəstəsiylə dövlətin baş bayrağının təhlükəsizliyinə cavabdehlik daşıyırdı.[35]

Yuxarıda qeyd edilmişdir ki, orta əsrlərdə Azərbaycanda bayraqlar "bayraq", "sancaq", "tuğ", "bunçuq" terminləri ilə tanınırdı. Bu terminlərin mənalarının və mənşəyinin öyrənilməsi vacib əhəmiyyət kəsb edir.

Orta əsr türk dilçi alimi Mahmud Qaşqarlının "Divan lüğət ət-türk" (XI əsr) əsərində bayraq sözü iki şəkildə işlənilir. Belə ki, terminin "batraq" ifadəsi ilə döyüşə təkbaşına atılan döyüşçünün nizəsinə taxılan kiçik ipək parça bildirilirdi. Terminin ikinci - "bayrak" şəkli isə bir tayfadan olan hərbçilər dəstəsinin emblemini nəzərdə tuturdu ki, o da iri ağac sap və ona taxılmış böyük ipəkdən ibarət olurdu.[36] Türkiyə tədqiqatçısı F.Kurtoğlu tarixi mənbələrə əsaslanaraq bildirir ki, Azərbaycan türklərinin dilindBə və Caqatay türkcəsində "baydak" termini vardır. Bu termin bəylik (hakimiyyət) rəmzi olaraq verilən bayrağa işarə idi.[37] Maraqlıdır ki, Azərbaycan dilinin Şəki dialektində "baydaq" sözü indiyədək işlənilir: hər hansısa bir insanın bir yerdə məskunlaşması "baydağını çaxıb oturdu" ifadəsi ilə bildirilir.

[31]- Abbaslı M. Şah İsmayılın hayat yolu miniatürlərdə. B., 1981, səh.8.
[32]- Книга Орудж бека Баята Дон Хуана Персидского. Пер. О.А.Эфендиева. Б., 1988, с.34.
[33]- Wendalen Boeheim, c.371.
[34]- ал-Халаби Мухаммед. Поход эмира Йашбека. Пер. З.М.Буниятова. Б., с. 16, 33, 81.
[35]- ал-Несеви, с. 115. Raşidədiin onu "bayraq raisi" adlandırır. (Рашид ад -Дин Фазлуллах. Джами ат-таварих. т. ХХХ. Баку. 1957. Пер. А.К.Арендса., автор критич. текста А.А.Ализаде, с. 141).
[36]- Kurtoğlu F., səh.3-4.
[37]- Yena orada, səh.4





Altayda yaşayan türk tayfalarında "Paydara" termini işlədilirdi. Belə ki, qurban kimi kəsilmiş müqəddəs heyvanın dərisi soyulur, aşılanandan sonra isə ağac sapa taxılaraq yaşayış məntəqəsinin ortasında qurulurdu.[38]

"Paydara" termini ilə bildirilən bu rəmz tayfanın simvolu sayılırdı. Belə ehtimal etmək olar ki, sonrakı dövrlərdə heyvan dərisi, üzərində həmin heyvanın təsviri verilən parça ilə əvəzlənmişdir.

Maraqlıdır ki, Altay və Sibir şamanlarında mərasimlər zamanı xüsusi qırmızı bayraq qaldırılır və bu bayrağa "yalama" deyilirdi.

Filoloji təhlil aparan türk tədqiqatçısı F.Kurtoğlu belə nəticəyə gəlmişdir ki, "bayraq" terminindəki "Bay" anlayışı "böyük, böyüyə layiq, böyüyə məxsus", mənalarını verirdi.[39]



Şəkil 20. Hərbi orkestrin yanında dayanmış döyüşçünün əlində sancaq təsviri. XV əsr Təbriz miniatürü.

Türk xalqlarında rəmzi işarəni bildirmək üçün "sancaq, sancak" terminindən də istifadə olunurdu. Bu terminin kökü "sancmaq" sözü ilə bağlı olmuş, dövlətin, tayfanın və ya vəzifəli şəxsin müəyyən əraziyə taxılmış (sancılmış) rəmzini bildirmişdir. Müasir Avropa dilində "sancaq" terimінə ən yaxını "ştandart" terminidir. Qədim dövrlərdə sancaq üzərinə metaldan başlıq taxılan sapdan ibarət olmuş, orta əsrlər dövründə ona bəzi hallarda parça hissə əlavə olunurdu **(şəkil 20)**. F.Kurtoğlu bildirir ki, bir çox hallarda çadırın ortasında qurulan dayaq üzərinə asılan hər hansı bir rəmz də sancaq adlanırdı.[40]

Yazılı mənbələrdə bayraqlara aid edilən terminlərdən biri də "ələm" terminidir. "Azərbaycan Sovet Ensiklopediyası"nda ələm "hansısa bir tayfa, dövlət, ordu, təriqətə aid bayraq, rəmz" kimi göstərilmişdir.[41] Belə izah ələmin digər bayraq formalarından nə ilə fərqlənməsini müəyyən etməyə imkan vermir. Avropa muzeylərində qorunan islam dövlətlərinin bayraqlarını araşdıran tədqiqatçı V.Bexaym belə nəticəyə gəlmişdir ki, ələm ağac sap və ona 90° bucaq altında bərkidilmiş şüvüldən ibarət olmuşdur. Bu şüvüldən eni 3 m., uzunluğu 4-5 m. olan parça asılırdı. Parça üzərində Quranın 48-ci surəsindən seçmələr, bəzən "Əlinin əli və Zülfüqar qılıncı", nadir hallarda isə Quranın 61-ci surəsindən seçmələr verilirdi.[42] Ələmin parçası qırmızı və ya qara rəngdə olur, onun ucluğu açıq əl (xəmsə) və ya uzunsov beşbucaq şəklində idi.[43] "Ələm" istilahı "Kitabi-Dədə Qorqud" dastanında verilir.[44] Hesab olunur ki, dastanda rast gəlinən "qaba aləm" birləşməsi "böyük bayraq" mənasını verir.[45] Ələmi daşıyan insan "ələmdar" və ya "əmir-ələm" adlanırdı.

[38]- Yena orada, səh.4
[39]- Yena orada, səh.5.
[40]- Yena orada, səh.8.
[41]- ASE, IV cild, səh. 164
[42]- Wendalen Boeheim., p.510.
[43]- Əhmadov S. Bayraqların inkişaf mərhələləri. Hərbi bilik, 1998, № 2, səh.80.
[44]- Kitabi Dada Qorqud, səh. 102.
[45]- Əhmadov S. "Kitabı Dada Qorqud" dastanında hərbi texniki terminlər. ATM, 2006, səh.49.



Şəkil 21. Gəmi üzərində tuğlar. Qədim Misir, küp üzərində təsvir (D.Rola əsasən).



Şəkil 22. XVII əsr türk tuğu. Drezden muzeyi, Almaniya.

"Azərbaycan Sovet Ensiklopediyası"nda sancaq anlayışı yalnız Osmanlı dövlətinin inzibati-ərazi vahidi kimi qiymətləndirilir.[46] "Brokqauz və Efron ensiklopedik lüğəti"ndə "Sancaq-Şərif" terminin izahı verilir. Lüğətin müəllifləri qeyd edirlər ki, bu terminlə Məhəmməd Peyğəmbər və ilk xəlifələrin bayrağı adlanırdı. Parçası yaşıl olan sancaqlı bayrağın ucluğu ərəb qrafikası ilə yazılan "ələm" sözü şəklində idi.[47] V.Bexaym qeyd edir ki, sancaq ələm şəklində idi, lakin ölçüləri kiçik olur və onun parçasında Quranın 48-ci surəsindən seçmələr verilirdi.[48] "Kitabi-Dədə Qorqud" dastanında sancaq daim tuğla bərabər göstərilir.[49]

"Azərbaycan Sovet Ensiklopediyası"nda, "bayraq", "Dövlət bayrağı", "hərbi bayraq" terminləri haqqında məlumat verilsə də, onların izahı və mənşəyi göstərilmir.[50] V.Bexaymın fikrincə, bayraq termini üzərində "Əlinin əli və Zülfiqar qılıncı" təsvir olunan üçbucaqlı parça hissədən və ağac sapdan ibarət olan rəmz bildirilir.[51] Osmanlı dövlətində "bayraq" termini ilə həmçinin 300 nəfərlik yüngül silahlanmış süvari dəstəsi, 1843-cü ildən isə hərbi dairə başa düşülürdü.

Üzərinə lentlər və lələklər bağlanan ştandartın ilkin forması hələ Qədim Misirdə mövcud olmuşdur **(şəkil 21)**. Türk dillərində işlədilən "tuğ" termini "buncuq" terminin sinonimidir. Rusiya tədqiqatçısı T.D.Skrinnikova sübut etmişdir ki, "tuğ" türk mənşəli sözdür. Digər Rusiya tədqiqatçısı Q.M.Vasilyeviçinin fikrincə, "tuğ" sözü altay dillərində işlədilən "turu" və "tut" sözlərindən əmələ gəlmişdir ki, bu sözlər "yeri səma ilə birləşdirən dünya ağacı"nı bildirirlər.[52] Tədqiqatçı S.V.Dmitriyevin araşdırmaları sübut edir ki, "tuğ" termini semantika baxımından "tuğra" (möhür), "tulğa" (üzərində lələklər olan dəbilqə), "duq" (şamanların tanrıların yanına qalxması üçün (məcazi mənada) ritual ağacların başlarına bağladıqları ipək saplar) terminləri ilə bağlıdır.[53] "Kitabi-Dədə Qorqud" azərbaycan dastanında "tuğ" termini işlədilir.[54] Ehtimal edilir ki, tuğ, üzərində qotazlar olan sapdan ibarət olmuşdur.[55] Hər halda məhz belə növ Şərq tuğları Avropa muzeylərində qorunurlar **(şəkil 22)**.

"Buncuq" sözü Ural dağlarından qərbdə məskunlaşmış qərb türk tayfalarında daha çox işlədildiyindən Rusiya və Avropada geniş yayılmışdır.[56] Ədəbiyyatda belə fərziyyələr vardır ki, termin aşağıdakı türk sözləri ilə bağlıdır: "boncuq" (təsbeh

[46] - ASE, IX cild, səh. 291
[47] - Брокгауз Ф.А, Ефрон Н.А. Энциклопедический словарь. С-Пб, 1891, т.4, стр. 278.
[48] - Wendalen Boeheim., p. 510
[49] - Kitabi Dədə Qorqud, səh. 50.
[50] - ASE, I cild, səh. 544, , III cild, səh. 515-516; .X cild, səh.202-203
[51] - Wendalen Boeheim., p. 510.
[52] - Василевич Г.М. Древние охотничьи и оленеводческие обряды эвенков// Собрание МАЭ АН СССР, г. XXVII, М.-Л., 1957, с. 155-156
[53] - Дмитриев С.Б. Знаменный комплекс в военно-политической культуре средневековых кочевников Центральной Азии// Para bellum, № 14, 2002. с 48.
[54] - Kitabi Dədə Qorqud, s. 50.
[55] - Əhmadov S. "Kitabi Dədə Qorqud" dastanında harbi texniki terminlər. ATM, 2006, səh. 78
[56] - Менгес К.Г. Восточные элементы в «Слове о полку Игореве». Л., 1979, с. 160.





üçün dənəciklər), "buncuk" (atın boynuna taxılan bəzək əşyası), "muncuq" (asılma element, adətən bəd nəzərdən qorunmaq məqsədi ilə istifadə olunur).[57] Beləliklə, "buncuq" sözü ilə asılan hər hansı bir elementin bildirilməsini ehtimal etmək olar. Türk xalqlarında atın müqəddəs heyvanlardan biri olmasını nəzərə alaraq buncuğun üzərinə at tüklərindən qotazların asılmasını qeyd edə bilərik (Altayda yak, öküz quyruğu, Şərqi Sibirdə isə qurd quyruğu asılırdı).

XVIII əsrin I yarısına aid bayraqların təsvir olunduğu əlyazmalardan Mirzə Məhəmməd Kövkəbi Astrabadinin "Tarix-i Nadiri" əsərini göstərmək olar. Nadir şah Əfşarın (1736-1747) əyanlarından olan Astrabadi yürüşləri təkcə yazılı formada deyil, həm də miniatürlər şəklində təsvir etmişdir **(şəkil 23)**.[58] Əlyazmada verilən rəngli miniatürlərdə əsasən, üçbucaq formasında parçası olan bayraqlar təsvir olunub.[59] Bayraqların ucluqları xəmsə (açıq əl) və ya gül şəklindədir. Miniatürlərin birində çadırın üst hissəsinə taxılmış, üzərində insan siması olan günəş təsvirli dördbucaq bayraqlar çəkilmişdir **(şəkil 24)**.

Əvvəlki dövrlərdən fərqli olaraq, XVIII əsrin sonları - XIX əsrin əvvəllərində mövcud olmuş Azərbaycan xanlıqlarının bayraqlarını əyani olaraq görmək mümkündür. Belə ki, Milli Azərbaycan Tarixi Muzeyinin kolleksiyasında halhazırda 12 xanlıq bayrağı: Gəncə xanlığının 4 (bayraqlar və silahlar fondu, inv.№ 446, 447, 448, 471), Bakı xanlığının 1 (bayraqlar və silahlar fondu, inv.№ 455), Şəki xanlığının 3 (bayraqlar və silahlar fondu, inv.№ 451, 452, 453), İrəvan xanlığının 2 (bayraqlar və silahlar fondu, inv.№ 461, 473), Təbriz xanlığının 1 (bayraqlar və silahlar fondu, inv.№445), Xoy xanlığının 1 bayrağı (bayraqlar və silahlar fondu, inv.№ 449)[60] qorunur. Həmçinin Gəncə xanlığına aid bir bayraq N.Gəncəvi adına Gəncə Tarix-Diyarşunaslıq Muzeyində saxlanılır (GTDM inv.№ 2988).

Azərbaycan xanlıqlarının bayraqları XVI-XVIII əsrlərə aid edilən gözəl şərq parçalarından tikilmiş, müxtəlif ornament və yazılarla bəzədilmişdir. Üçkünc, dördkünc, beşkünc və düzbucaq formalarda olan bu bayraqlar üzərindəki ornamentlər qurama və ya tikmə üsulu ilə salınmış, təbii boyalarla çəkilmişdir. Bayraqlara müxtəlif rəngli ipək, eləcə də qızılı və gümüşü saplardan zər saçaqlar salınmışdır. Bayraq sapları silindrik formalı yüngül ağac gövdələrindən dülar salınmışdır. Bayraq sapları silindrik formalı yüngül ağac gövdələrindən düzəldilmiş, boyanmış, onların başlarına fiqurlu metal ucluqlar taxılmış, onlara qızılı, gümüşü və başqa rəngli ipək saplardan toxunmuş qotazlar bağlanmışdır.



Şəkil 23. Nadir şahın qoşunlarının bayraqları (Mirzə Məhəmməd Astrabadinin əlyazmasında miniatür, XVIII əsr).



Şəkil 24. Nadir şah əyanı təltif edir. Arxa planda çadır üzərində bayraq təsvirləri (Mirzə Məhəmməd Astrabadinin əlyazmasında miniatür, XVIII əsr).

[57] - Дмитриев С.Б., с.51; Менгес К.Г., с.160; Радлов Б.Б. Опыт словаря тюркских наречий. т. XV, 4.2. М., 1963, таблица 1815.
[58] - Локкарт Л. Надир шах. Критическое исследование на основе первоисточников. Лондон, 1938// Перевод с английского Гезаловой И.Р. Баку, 2004, с.353
[59] - Mirza Mahammad Mehdi Xan Astrabadi. Tarix-e cahanqoşaji Nadiri, Tehran, 1991, miniatürlər 1,9,10,11,12
[60] - Azərbaycan bayraqları. Kataloq. N.Vəlixanlının redaktəsi ilə. B., 2005, s.8-39.



Şəkil 25. Gəncə xanlığının bayrağı (MATM).



Şəkil 26. *Gəncə xanlığının* bayrağı *üzərin-da* ornament və yazılar.



Şəkil 27. Gəncə xanlığının bayrağının ucluğu.

Kolleksiyada qorunan bayraqlar orijinallığı və bənzərsizliyi ilə seçilirlər. Misal üçün, *Gəncə xanlığının bir bayrağı* (ölçüləri 127x174 sm) dördkünc olub, iki yaşıl və bir qırmızı şaquli zolaqdan ibarətdir[61] **(şəkil 25)**. Zolaqlar üzərində qızılı və al-qırmızı rənglə yazılar yazılmış və ornamentlər verilmişdir. Belə ki, üç gümbəz təsviri ilə tamamlanan ikihissəli çərçivənin daxilində ərəbcə yazılmışdır: "Allah döyüş zamanı vuruşanları evdə oturanlardan üstün tutur. Allah onlara fərq qoymadan, hamısının Allaha ilahi qüvvə yaxınlaşmasından ötrü dərəcələr bəxş edər və onların günahlarını bağışlayar. Allah mərhəmətlidir, bağışlayandır" (MATM kolleksiyasında olan bayraqlar üzərindəki yazılar akademik Nailə Vəlixanlı tərəfindən oxunmuşdur) **(şəkil 26)**. Mərkəzi qırmızı zolaq üzərində olan dördbucaqlarda aşağıdakı yazı beş dəfə təkrarlanmışdır: "Allahdan başqa Allah yoxdur, Məhəmməd Allahın elçisidir". *Bu bayrağın olduqca orijinal* ucluğu mövcuddur. *Belə ki*, polad-dan tökülmüş ucluğun alt hissəsindəki boru sağdan sola gedən yivlərlə bəzədilmişdir. Onun üst hissəsində isə ağzından alov püskürən qurd (canavar) təsvir edilmişdir. Alov dilləri birləşərək süngü formasını alır **(şəkil 27)**.

Bakı xanlığının bayrağı (ölçüləri 220x122 sm) çoxsaylı ornamentlərlə bəzədilmişdir[62] **(şəkil 28)**. Belə ki, dar, yaşıl və enli qırmızı şaquli hissələrdən ibarət olan bayrağın parçasına qızılı, gümüşü və moruğu saplarla naxışlar salınmışdır. Yaşıl parçaya yaxın yuxarı sol hissədə yerləşən parçanın üstündə tikilmiş ellipsvari ornamentin daxilində üç aypara təsvir edilmiş və ərəb dilində "Ya Məhəmməd, möminləri müjdələ" və "Allahdan kömək və yaxın qələbə", eləcə də "Allah kömək edəndir və Allah qoruyandır" sözləri yazılmışdır. Nisbətən aşağıda tikilən digər ellipsin daxilində iki kvadratın üst-üstə qoyulması ilə əmələ gətirilmiş səkkizgüşəli ulduz, yarpaq və üçləçəkli güllərlə əhatələnib **(şəkil 29)**.

[61] - Yenə orada, s.10.
[62] - Yenə orada, s.16.







Şəkil 28. Bakı xanlığının bayrağı (MATM).



Şəkil 29. Bakı xanlığının bayrağı üzərində ornamentlər.

Bayrağın digər hissələrində səpələnmiş ornamentlər sırasında dolçavari təsvir maraq doğurur. Onun uzunsov səkkizləçəkli gül şəklində olan aşağı hissəsi ərəb qrafikası elementlərini ("Bismillah" və ya "Bakuya") xatırladan naxışlarla bəzədilmiş, "qapaq" hissəsi nəbati naxışlar salınmış gümbəzvari formada toxunmuşdur. Dolçanın nəbati və həndəsi naxışlarla bəzənmiş iki əyilmiş qulpu ağızlarından alovun şöləsini əks etdirən ləçəkli güllər çıxan əjdaha başları ilə tamamlanır. Əjdahanın gözləri qızılı-sarı və açıq qəhvəyi rəngli saplarla tikilmişdir. Dolçadan aşağıda təsvir edilmiş ellipsin daxilində yaşıl-qızılı fon üzərində tünd moruğu saplarla "Məhəmməd" sözü toxunmuşdur.

Bakı xanlığının bayrağının ucluğu-üzərinə kürə və süngüvari çıxıntı taxılmış tunc borudan ibarət olmuşdur.

Şəki xanlığının bayraqları arasında düzbucaqlı üçbucaq formasında olan bayraq (ölçüləri 143x105x93,5 sm) maraq doğurur[63] **(şəkil 30)**. "Qafqaz Hərbi







Şəkil 30. Şəki xanlığının bayrağının üz tərəfi (MATM).

Şəkil 31. Şəki xanlığının bayrağının fraqmenti.

Şəkil 32. Şəki xanlığının bayrağının astar tərəfi.

[63] - Yenə orada, s.20-21.



**Şəkil 33. Şəki xanlığının bayrağının fraqmenti. 1000 kiçik kvadrat xanaların hər birində Quran *ayələrindən ayrı-ayrı* sözlər yazılmışdır.**

Tarix muzeyi üzrə bələdçi" kitabının 15-ci səhifəsində göstərilir ki, bu bayraq 1606-cı ildə Hindistanda Hacı Hüseyn tərəfindən hazırlanmış və Nadir şah Əfşarın Hindistan yürüşü zamanı qənimət kimi ələ keçirilmişdir. Sonralar Şəkidə üsyan qaldırmış Hacı Çələbi xana qarşı yürüşdə bu bayraq Nadir şahın qoşunlarında olmuşdur. Məlumdur ki, 1744-1745-ci illər döyüşlərində Şəki döyüşçüləri bir neçə bayraq ələ keçirmiş, eyni *zamanda məlumdur* ki, 1746-cı ildə sülh danışıqlarının gedişində Nadir şah xana bayraq bağışlamışdır. Barəsində söhbət açılan bayrağın qənimət kimi şəkililər tərəfindən ələ keçirilməsi və ya Şəki xanına hədiyyə olaraq verilməsi barəsində mənbələrdə dəqiq məlumat yoxdur.

Bayrağın açıq qəhvəyi rəngli saya parçadan olan üz hissəsində əvvəldən *olan sanskrit yazılarla yanaşı, sonradan ərəb və fars dillərində əlavələr edilmiş,* Quranın müxtəlif surələrindən ayələr, eləcə də həmin ayələrin başlanğıcında mənası, məqsəd və mahiyyəti bu gün də alimlər üçün anlaşılmaz qalan, "Allahın sirri" hesab edilən bir və ya bir neçə hərf verilmişdir (mim, ha, mim, dəl; dəl, mim, ha və s.). Bayrağın orta hissəsində olan 1000 kiçik kvadrat xananın hər *birində* Quran *ayələrindən* ayrı-ayrı sözlər verilmişdir. Bu xanaların əmələ gətirdiyi böyük kvadratın aşağı haşiyəsində, eləcə də bütövlüklə bayrağın kənarlarında da Quran ayələri verilmişdir **(şəkil 31, 33)**. Bayrağın yuxarı və aşağı hissələrində olan düzbucaqlı üçbucaqlarda da içərisində Quran yazıları olan kvadrat xanalar, müxtəlif ayə və kiçik surələr yerləşdirilmiş, Allahın epitetləri qeyd edilmiş, həmçinin sağ düzbucaqlıda döyüşdə qələbəyə inam və ümid yaradan "Kömək Allahdandır və yaxın qələbə" Quran ayəsi verilmişdir. Həmçinin yazıların birində "Böyük sultan, ən böyük xaqan, insan başlarının ağası Nadir şah, Allah onun hakimiyyətini əbədi etsin, 1155-ci il" ifadəsi verilmişdir (hicri 1155-ci il miladi təqviminin 1742/1743-cü illərinə bərabərdir).





Bayrağın astar hissəsinə açıq qəhvəyi tirmə parçanın üzərində cərgə ilə butalar salınmışdır **(şəkil 32)**. Qırmızı çiçək və yaşıl yarpaqlardan tərtib edilmiş butaların bir cərgəsi sola, digəri isə sağa tərəfdir. Bayrağın qara və yaşıl rənglərə boyanmış sapı üzərinə mis ucluq taxılmışdır.



Şəkil 34. İrəvan xanlığının bayrağı (MATM).

Muzeyin kolleksiyasında qorunan nadir bayraqlardan biri də İrəvan xanlığının bayrağıdır.[64] Tünd qırmızı mahud parçadan düzbucaqlı üçbucaq formasında tikilən bu bayrağın ölçüləri 145x261x217 sm-dir. Bayrağın yuxarı enli hissəsində hələ XI-XII əsrlərdə Böyük Səlcuq imperatorluğunun rəmzi olmuş şir və günəş təsvirləri qurama üsulu ilə tikilmişdir. Açıq qəhvəyi rəngli quramadan hazırlanmış şir sağ qabaq pəncəsi qaldırılmış halda yandan təsvir edilmişdir, günəş isə insan sifəti ilə verilmişdir **(şəkil 34)**. Şir və günəşin təsvirindən yuxarıda, bir-birinin yanında açıq qəhvəyi mahud parçadan iki altıgüşə kartuş tikilmişdir. Bir kartuşda ərəb dilində "Mən qanuna (şəriətə) uyğun hərəkət edirəm", "1241", digərində isə "Kömək Allahdandır və yaxın qələbə", "1241" sözləri yazılmışdır (hicri 1241-ci il miladi təqviminin 1825/1826-cı illərinə bərabərdir). Bayrağın hər iki üzündəki təsvirlər eynidir.

Bayrağa qəhvəyi, qızılı və bej rəngli ipək saplardan saçaq salınmışdır. Qaraağacdan düzəldilmiş bayraq sapı (uzunluğu 260 sm, kəsikdə eni 3,8 sm) rənglənmiş, onun yuxarı hissəsindən gümüşü saplarla toxunmuş uzun qotaz asılmışdır. Əvvəllər hərbi hakimiyyət rəmzi sayılan tuğdan Azərbaycanda və qonşu türk xalqlarında hələ orta əsrlərdə sərkərdələrin rütbə və hakimiyyət nişanı kimi istifadə olunurdu. Tuğ içərisi boş, yumşaq silindrik ağaca bərkidilən at quyruğundan ibarət idi. Milli ornamentlərlə bəzədilən ağacın yuxarı sonluğu ya kürə, yaxud da aypara ilə qurtarırdı. At quyruğu ilk dövrlərdə sadə formada asılırdısa, sonralar hörük kimi toxunaraq müxtəlif rənglərə boyanırdı. Yaranma tarixi hələ Mərkəzi Asiya türkdilli köçəri xalqları ilə bağlı olan tuğ, hərbi hakimiyyət rəmzi kimi əhəmiyyətini qoruyub saxlamışdır. Milli Azərbaycan Tarixi Muzeyində Gəncə xanı Cavad xana məxsus olmuş tuğ qorunmaqdadır[65] **(şəkil 35)**. Tuğun mövcud olan hissəsi 170 sm uzunluğundadır. Tuğun başlığı qızılı suyuna çəkilmiş mis kürə formasında hazırlanıb və qabarıq qurşaqla əhatələnib **(şəkil 36)**. Sapın yuxarı hissəsi genişlənərək hörülmüş qırmızı, ağ və boz rəngli altı sıra at tükü ilə bəzədilmişdir. Aşağıda sapın səthi at tükündən olan

[64] - Yenə orada, s.21.
[65] - Azərbaycan dövlətçiliyi və onun rəmzləri. N.Vəlixanlının redaktəsi ilə. B.,2000, s.51.

Şəkil 35. Gəncə xanı Cavad xana məxsus olmuş tuğ (MATM).

Şəkil 36. Cavad xanın tuğunun ucluğu.

Şəkil 37. Tuğun qotazı.







ağ, boz, qara, qırmızı rəngli toxunma romblarla naxışlanmışdır. Romblardan aşağıda sapın uzunluğunun 2/3 hündürlüyündə ağ və qırmızı rəngli at quyruğu asılmışdır. Burada həmçinin nazik kəmər üzərində gümüşü iplərdən toxunmuş iri qotaz asılmışdır **(şəkil 37)**. Sapın bu, yəni bəzədilmiş hissəsi aşağıda enli metal (mis) halqa ilə tamamlanır. Halqanın içinə qara rəngə boyanmış konusvari ağac dəstək taxılmışdır ki, məhz bu dəstəkdən tutaraq onu daşıyırlar.

Şəkil 38. Şəki xan sarayının divar rəsmlərində bayraq təsvirləri.









Şəkil 39. Şəki xan sarayının divar rəsmlərində bayraq təsvirləri.

XVIII əsr Azərbaycan memarlığının incilərindən sayılan Şəki xanlarının yay sarayı eyni zamanda tarixi mənbə kimi böyük əhəmiyyətə malikdir.

Belə ki, burada təsvir olunan müxtəlif xarakterli səhnələr, o dövrün içtimai - siyasi, mədəni və hərbi xüsusiyyətlərini öyrənməyə imkan verir.[66]

Sarayın ikinci mərtəbəsinin salonunda taxçanın birinci və ikinci rəflərində haşiyə şəklində verilən döyüş və ov səhnələrindəki bayraqlar dövlətcilik tariximizin öyrənilməsində mənbə kimi xüsusi məna kəsb edir **(şəkil 38)**. Saray divar rəsmlərində 16 növ bayraq təsvir olunub və onlar müxtəlif forma və rəngləri ilə seçilirlər.

Rəsmlərdə təsvir edilən bayraqlar aşağıdakı hissələrdən ibarətdir: bayrağın parça hissəsi, ağacdan düzəldilmiş sap, sapın başına taxılmış metal ucluq. Döyüş səhnəsində əks olunmuş suvari və piyada bayraqdarların əlindəki bayraqların parça hissələrinin 5-i dördkünc formalı, 5-i uzunsov ikidişli üçbucaq formalı, 5-i üçkünc formalı və biri açılmamış olduğu üçün naməlum formalıdır. Şəkillərdən aydın olur ki, təsvir edilən bayraqların forma müxtəlifliyi onların sahiblərinin hakimiyyət pilləkəninin müxtəlif pillələrində dayanması ilə bağlı olmuşdur. Belə ki, burada bayraqlar xan və onun əyanlarının, həmçinin ayrı-ayrı dəstələrdə olan adamların əlində təsvir olunub **(şəkil 39)**.

Bayraqların saplarına taxılan ucluqların birincisi xəmsə (açılmış insan əli), ikincisi süngü və üçüncüsü isə mürəkkəb formalıdır. **(şəkil 40-42)**. Mürəkkəb ucluq iki hissədən ibarətdir, alt hissəsi açılan zanbaq gülü formasındadır, üst

[66] - Ахмедов С.А., Гаибова Г.Н., "Росписи дворца Шекинских ханов как источник по военной истории Азербайджана" Respublika elmi konfransının materialları, B., 1997, səh.123.





Şəkil 40. Şəki xan sarayının divar rəsmlərində bayraq təsviri.

Şəkil 41. Şəki xan sarayının divar rəsmlərində bayraq təsviri.

Şəkil 42. Şəki xan sarayının divar rəsmlərində bayraq təsviri.

hissəsi isə rombvari nizəni xatırladır. Bu tip bayraq ucluqlarına bir çox orta əsr müsəlman dövlətlərində rast gəlinir, bir neçə belə nümunə Milli Azərbaycan Tarixi Muzeyi kolleksiyasındadır.[67] Qeyd etmək lazımdır ki, təsvir edilən bayraqların parça və ucluq hissələrinin formaları hələ orta əsr Azərbaycan miniatürlərində təsvir edilən ənənəvi formadadırlar.[68]

Şəki xan sarayının divar rəsmlərində təsvir olunan bayraqların rəngləri və təsvirləri müxtəlifdir. Bayraqların parçası əsasən qırmızı, sarı, yaşıl rənglərdən və onların çalarları ilə bəzədilib. Təsvirlərdə zolaqlı bayraqlar da var. Bu əlvan rənglərə orta əsr Azərbaycan bayraqlarını təsvir edən miniatürlərdə də rast gəlinir. Fərq ondadır ki, orta əsr bayraqlararında parca hissə, demək olar ki, bütövlükdə ornamentlərlə bəzədilmiş, XVIII əsr bayraqlarında isə, əksinə, ornament parçanın yalnız bir hissəsini tutur.

Şəki xan sarayının divar rəsmlərində təsvir olunan bayraqlar üzərində cürbəcür rəmz və işarələr göstərilib. Onlardan birində olan təsvir, qədim dövr türk tamğalarını xatırladır, burada bir-birlərinə birləşdirilmiş ucları sola və sağa baxan ayparalar göstərilib **(şəkil 42)**. 2-ci bayrağın parçasında xəmsə təsvir edilib, növbəti bayraqda üçkünc, uzunsov bayrağın üzərində nəbatı ornamentlər mövcuddur. Bir bayrağın üzərində əyri tiyəli qılınc təsvir edilmişdir. Üçkünc iki dişli uzunsov bayrağın mərkəzində şir və günəş (şir-i xurşid) təsvir olunmuşdur. Axırıncı bayraq üzərində, üçkünc ikidişli uzunsov bayrağın sapa yaxın olan hissəsində günəş təsvir olunub.

Qacar boyakarlıq məktəbinin XIX əsrin əvvələrinə aid əsərləri üzərində bayraq təsvirləri mövcuddur. Həmçinin bayraq təsvirləri I Rusiya-İran (1804-1813) və II Rusiya-İran (1826-1828) müharibələrində iştirak etmiş rus rəssamlarının şəkillərində verilmişdir (mənşəcə fransız olan səyyah Q.Druvilin kitabında, general A.Yermolovun əlyazmasında, rəssam V.Maskovun qravürlərində). Bayraq təsvirləri XIX əsrin 30-40-cı illərində Azərbaycanda olmuş Rusiya rəssamı knyaz Q.Qaqarinin rəsm əsərlərində də verilir.[69]

[67] - "Azərbaycan bayraqları" kataloqu, Bakı, 2005, səh.13-14.
[68] - K.Kerimов, "Азербайджанские миниатюры", М., 1980.







Şəkil 43. Qarabağ xanı Mehdiqulu xana bağışlanmış fəxri bayraq (MATM).

Milli Azərbaycan Tarixi Muzeyinin fondlarında müxtəlif tarixi hadisələrin şahidləri olmuş 93 bayraq qorunur. Muzeyin fondlarında qorunan bayraqlar sırasında ən vaciblərindən biri Rusiya imperatoru I Aleksandrın Mehdiqulu xan Qarabağlıya bağışladığı fəxri bayraqdır.

Məlumdur ki, 1805-ci il mayın 14-də Rusiya imperiyası ilə Qarabağ xanlığı arasında Kürəkçay müqaviləsi imzalandı və ona əsasən xanlıq imperiyanın tərkibinə daxil oldu. Xanlıq adından müqaviləni onun başçısı İbrahimxəlil xan, imperiya adından general P.D.Sisianov imzaladı.[70]

1806-cı ilin əvvəlində Məhəmməd Həsən xan vəfat etdi və fevralın 24-də İbrahimxəlil xan Mehdiqulu xanı rəsmən öz varisi elan etdi. Lakin 1806-cı ilin iyunun 12-də mayor D.T.Lisaneviçin rəhbərliyi ilə rus qoşunları tərəfindən İbrahimxəlil xan və onun ailə üzvlərinin qətlə yetirilməsi hərbi-siyasi vəziyyəti dəyişdi.[71] Rus komandanlığı tərəfindən keçirilmiş formal istintaq elan etdi ki, D.Lisaneviç "pis niyyətli şəxslərin təsiri ilə" hərəkət etmiş, rus qoşunlarının komandanlığının qətlə aidiyyatı yoxdur. Lakin mayorun cəzasız qalması və hətta ona podpolkovnik rütbəsinin verilməsi yerli xanları başqa nəticəyə gəlməyə vadar etdi. Qafqazda nüfuz sahibi olan Qarabağ xanının öldürülməsi nəticəsində bütün Şimali Azərbaycanda üsyanlar başladı. Dərbənd istisna olmaqla bütün Şimali Azərbaycan azad edildi və rus qoşunlarının 1801-1805-ci il yürüşlərinin nəticələri heçə endirildi. Üsyanları yatırtmaq üçün imperator Qafqaza əlavə qüvvələr göndərdi.[72] Lakin hisslərə qapılmayan Mehdiqulu xan Kürəkçay müqaviləsinin şərtlərini təsdiqlədi. General-mayor Nesvetayevin təqdimatı ilə imperator I Aleksandr Mehdiqulu xanın Qarabağ xanlığına iddia hüquqlarını təsdiqlədi. XIX əsr Rusiya tarixçisi P.Dubrovin qeyd edir ki, Mehdiqulu xanın Qarabağın hakimi təsdiq edilməsi barədə fərman 1806-cı il sentyabrın 10-da imzalanmışdır. Mir Mehdi Xəzaninin yazdığına görə, həmin fərman sentyabrın 19-da bəyan edildi.[73] Mirzə Camal Cavanşir yazırdı ki, fərmanla birlikdə Meh-

[69] - Əhmədov S. İllüstrativ mənbələr Azərbaycan hərb sənətinin tədqiqində mənbə kimi (knyaz Q. Qaqarinin albomu əsasında) // ATM, 2003, s.230-234.
[70] - Шюкюров К.К. Кюрекчайский договор: об основных положениях, претворении в жизнь и последствиях упразднения // Кюрекчайский договор-200. Баку, 2005, с.146. Rzaqulu bəy Mirzə Camal oğlu. Pənah xan və İbrahim xanın Qarabağda hakimiyyətləri və o zamanın hadisələri. Ön söz, farscadan tərcümə və şərhlər N.Axundovundur. //Qarabağnamələr. II kitab, Bakı, 2006, s. 270; Аббасгулу ага Бакиханов, Гюлистани-Ирем. Баку, 1926, стр.155.
[71] - Azərbaycan tarixi. Yeddi cilddə // AMEA A.Bakıxanov adına Tarix İnstitutunun nəşri. Bakı, 2000, c. IV, s. 20; Исмайлов М. Карабах в XIX - начале XX века. // Карабах. Сборник статей. Баку, 2004, с. 85-86.
[72] - Керим ага Фатех. Краткая история шекинских ханов, Баку, 1958, с.52; А. Бакиханов, Гюлистани-Ирем. Баку, 1926, стр.155; В.А.Потто. Утверждение русского владычества на Кавказе, т. I, Тифлис, 1901, с. 244.
[73] - Mir Mehti Xəzani. Kitab-i tarixi Qarabağ. Müqəddimə və şərhlər A.Fərzəliyevindir, transliterasiya A.Fərzəliyev və A.Ramazanovundur. // Qarabağnamələr. II kitab, Bakı, 2006, s. 234;

diqulu xan imperatordan bayraq və daş-qaşlarla bəzədilmiş qılınc almışdır[74] **(şəkil 43)**. Bayraq və qılınc Mehdiqulu ağaya 1807-ci ildə təqdim olundu.

İstər yerli, istərsə də rus mənbələri Mehdiqulu xanın mülayim xasiyyətini və Rusiyaya sədaqətini qeyd edirlər. Lakin Qafqazda imperiya siyasətinin icraçısı Gürcüstandakı Rusiya qoşunlarının komandanı və Əlahiddə Qafqaz Korpusunun komandiri general A.P.Yermolov Azərbaycan xanlığının ləğvinə yönəldilmiş addımlar atırdı. Özünün baş köməkçisi, Cənubi Qafqazın müsəlman əyalətlərinin hakimi, erməni mənşəli general M.Q.Madatovla birlikdə o, Mehdiqulu xanı daim sıxışdırır və hətta ona sui-qəsd də hazırlayırdı. 1822-ci il noyabrın 21-də Mehdiqulu xan İran şahının oğlu şahzadə Abbas Mirzənin yanına qaçmalı oldu. Sonralar Yermolovu əvəz etmiş general knyaz İ.F.Paskeviçin səyləri nəticəsində müəyyən olunmuşdur ki, Mehdiqulu xan Qarabağı "Madatovun ona qarşı törətdiyi haqsızlıqlara etiraz əlaməti olaraq tərk etmişdir".

1826-cı ildə II Rusiya-İran müharibəsinin gedişində Mehdiqulu xan şahzadə Abbas Mirzə Qacarın qoşunlarının dəstə komandiri kimi Qarabağa qayıtdı. Nəticədə bir çox qarabağlılar Abbas Mirzənin tərəfinə keçdilər.[75] Lakin mənbələrdən aydın olur ki, şahzadə ilə xan yola getmirdilər. Xan əvvəl rus ordusunda xidmət edib şahzadə tərəfindən əsir götürülmüş bir çox azərbaycanlının azad edilməsinə nail oldu, lakin Şuşa qalasının mühasirəsində iştirak etmədi.

Rus qoşunlarının yeni komandanı İ.F.Paskeviç Mehdiqulu xanı Qarabağa qaytarmağa çalışırdı. Uzun danışıqlardan sonra o, buna nail oldu. Mirzə Adıgözəl bəy yazır ki, xanın 1827-ci ildə qayıdışı təntənəli şəkildə təşkil edlimişdi. Ağkavansara adlı yerdə xanı Cənubi Qafqazın Müsəlman Əyalətlərinin yeni hakimi polkovnik İ.N.Abxazov və iki rus piyada taborundan ibarət fəxri qarovul qarşıladı.[76] Mir Mehdi Xəzani qeyd edir ki, 1838-ci il oktyabrın 30-da imperator I Nikolay xüsusi fərmanla Mehdiqulu xanın bütün müsadirə edilmiş əmlakını qaytarmışdır. Həmçinin xana "daşqaşlarla bəzədilmiş qılınc və çıqqa" verilmişdir[77] ("çıqqa" - baş geyiminin qabaq hissəsinə taxılan və qiymətli daşlarla bəzədilən dekorativ lövhə; Avropa dillərində "eqret" termini ilə bildirilirdi). Fərmana əsasən xan və onun oğulları fəxri bayraqdan hakimiyyət rəmzi kimi istifadə edə bilərdilər.

Gülüstan (1813-cü il) və Türkmənçay (1828-ci il) Rusiya-İran müqavilələri ilə Azərbaycan Rusiya və İran dövlətləri arasında bölüşdürüldü. Bu proses Azərbaycan dövlətçiliyi və onun atributlarının ləğv olunması ilə müşayiət olunurdu. Cənubi

[74] - Mirza Camal Cavanşir Qarabaği. Qarabağ tarixi. //Qarabağnamələr. I kitab, Bakı, 2006, s.158
[75] - Azərbaycan generalları, s. 35.
[76] - Yenə orada, s. 35.
[77] - Mir Mehti Xazani, s. 234;





Azərbaycan xanları nominal olsa da öz torpaqlarında hakimiyyəti saxladılar. Şimali Azərbaycanda isə xanlar hakimiyyətlərini itirdilər. Hətta "xan" titulunu daşımaq üçün imperatorun xüsusi icazəsi olmalı idi. Bu isə çox nadir hallarda baş verirdi. Misal üçün, Bakı xanları nəslindən olan Abbasqulu ağa Bakıxanov Rusiyaya sədaqətlə xidmət etmiş, polkovnik rütbəsinə yüksəlmiş, orden və medallarla təltif edilmiş, lakin "xan" titulunu daşımaq hüququ ona verilməmişdi.

Bu səbəbdən Mehdiqulu xanın bayrağı onun ölümündən sonra Sarskoe Selo saray cəbbəxanasına təhvil verilmişdir.[78] 1888-ci ildə Tiflisdə Qafqaz Hərbi-Tarixi Muzeyi (QHTM; ona bəzən "Şöhrət Məbədi" ("Храм славы") də deyilirdi) açılanda burada Qafqazla bağlı bayraqları nümayiş etdirmək qərara alındı. Muzeyin açılışında iştirak etmiş imperator III Aleksandr bayraqların muzeyə verilməsi ideyasını bəyənmişdir. 1906-cı ilin martında Sarskoe Selo Saray cəbhəxanası ləğv edildi, onun materialları Ermitaj, Artilleriya Muzeyinə və QHTM-nə verildi.[79] 1907-ci il fevralın 11-də Qafqaz Canişini qraf I.I.Voronsov-Daşkovun iştirakı ilə QHTM-nın ekspozisiyasının təntənəli açılışı oldu. 1913-cü ildə "Путеводитель по Кавказскому военно-историческому музею" ("Qafqaz Hərbi-Tarixi Muzeyinin bələdçisi") adlı kitab tərtib edildi. Kitabın "Fəxri xan bayraq və möhürləri" hissəsində belə bir informasiya verilmişdir: "№ 224. Знамя почетное, пожалованное императором I Мехти-Кули-хану Карабахскому в 1807 году" ("№ 224. 1807-ci ildə imperator I Aleksandr tərəfindən Mehdiqulu xan Qarabağlıya verilmiş Fəxri bayraq").[80]





Şəkil 44. Mehdiqulu xanın fəxri bayrağının sap üzərindəki qotazı.

Şəkil 45. Mehdiqulu xanın fəxri bayrağının iplər üzərindəki qotazlardan biri.

Şəkil 46. Fəxri bayrağın baftasının naxışı.

[78] - Артиллерийский Исторический Музей. Знаменный отдел. Краткий указатель коллекции. Составитель Белавенец П.И. Ленинград, 1927, с.6.
[79] - Там же.
[80] - Путеводитель по Кавказскому Военно-Историческому Музею, Изд.4, Тифлис, 1913, с. 53



Şəkil 47. Zaqafqaziya atlı-müsəlman alayının fəxri bayrağı (MATM). Bayraq üzərindəki yazılar Azərbaycan dilində ərəb əlifbası ilə verilmişdir.



Şəkil 48. Kəngərli süvari dəstəsinin fəxri bayrağı (MATM). Bayrağın bir tərəfində Rusiya imperiyasının gerbi, digər tərəfində isə aypara təsviri verilmişdir.

Mehdiqulu xanın fəxri bayrağı ağac sapa taxılmış ağ qanovuz parçadan, qotazları olan iki ipdən və alt borudan ibarətdir (bayrağın ucluğu dövrümüzə qədər gəlib çatmayıb).

Parça hissə (115x100 sm) ikitərəfli olub qalındır. Parça hissə üzərində Rusiya imperiyasının gerbi təsvir olunub. Parçanın kənarlarına zərif, gümüş güləbətinlə işlənmiş bafta tikilmişdir. Uzunluğu 330 sm olan ağac sap iki hissədən ibarətdir və onlar bir-birinə metal halqa ilə birləşdirilmişdir. Sapın üst hissəsindən gümüş iplərlə toxunmuş qotaz asılıb. Ayrıca olaraq iki uzun ip də kiçik qo*tazlarla tamamlanır* **(şəkil 45)**.

Çar Rusiyasının tərkibində olanda Azərbaycanın öz dövlətçilik rəmzləri yox idi. Yalnız azərbaycanlılardan təşkil edilmiş qeyri-nizami hərbi hissələrə bayraq daşımaq hüququ verilmişdir. Qeyd etmək lazımdır ki, Rusiya imperiyası ordusunda azərbaycanlılardan ibarət bir neçə hərbi hissə olmuş, hətta imperatorun Şəxsi Mühafizə Konvoyunda azərbaycanlılardan ibarət Müsəlman Eskadronu mövcud idi. Hal-hazırda çar ordusu tərkibində olmuş 1-ci, 2-ci, 3-cü, 4-cü atlı müsəlman alaylarının, həmçinin Kəngərli süvari dəstəsinin döyüş və fəxri bayraqları, Şirvan atlı milis dəstəsinin fəxri bayrağı, Zaqafqaziya atlı müsəlman alayının fəxri bayrağı, Naxçıvan bəy drujinasının döyüş bayrağı, Zaqatala qeyri-nizami atlı - müsəlman alayının döyüş və fəxri bayraqları Milli Azərbaycan Tarixi muzeyində qorunmaqdadır[81] **(şəkil 47, 48)**.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə milli dövlətçilik rəmzlərinin qəbul olunması istiqamətində əhəmiyyətli işlər görülmüşdür.[82]

1920-ci il aprel işğalı nəticəsində Azərbaycan Xalq Cümhuriyyəti süqut etdi və Azərbaycanda sovet hakimiyyəti quruldu. Milli dövlətçiliyi tərənnüm edən bütün atribut və dövlətçilik rəmzləri - parlament, ordu, pul vahidi ləğv olundu. Hətta dövlətin adı da dəyişdirilərək Azərbaycan Sovet Sosialist Respublikası qoyuldu. Əvəzində Azərbaycanda qondarma sovet atribut və rəmzləri təşkil edildi. Sovet hakimiyyətinin ilk illərində xalqın yaddaşından onun öz rəmzlərini silmək çətin idi, ona görə müəyyən şəkildə onların təsvirləri saxlanılmışdı. Misal üçün, dövlət sənədlərində 8-güşəli ulduz sovet quruluşunun rəmzinə çevrilən qırmızı 5-güşəli ulduzla əvəz edilsə də aypara təsviri saxlanılmışdı. Doğrudur, bu aypara qırmızı rəngdə verilirdi. Azərbaycan SSR Qırmızı Əmək bayrağı ordeni üzərində də bütün sovet rəmzləri ilə bərabər aypara təsviri verilmişdir **(şəkil 49)**. Lakin, tədricən bu rəmz də aradan qaldırılır və 30-cu illərin dəhşətli Stalin

[81] - Azərbaycan bayraqları, s. 35-51.
[82] - Azərbaycan Xalq Cümhuriyyəti dövründə milli dövlətçilik rəmzlərinin qəbul olunması istiqamətində görülmüş işlər kitabın növbəti paraqrafında ətraflı göstərilmişdir.





repressiyaları başlayanda, müstəqilliyin rəmzi olan üçrəngli bayrağı, aypara və 8-güşəli ulduzu öz doğma rəmzləri kimi qəbul edən insanlar da təqiblərə məruz qaldılar. Sovet repressiya aparatında çalışanlar yaxşı anlayırdılar ki, bu rəmzlər türkçülüyü, islamçılığı və xalqın tərəqqiyə doğru inkişafını tərənnüm edir, ona görə də təkcə insanlara qarşı deyil, rəmzlərə qarşı da mübarizə aparılırdı.

Müstəqil Azərbaycanın rəmzləri ləğv olunandan sonra xalqa sovet yad rəmzləri təqdim edilməyə başladı. 1920-ci il aprelin 28-də yaradılmış Azərbaycan İctimai Şuralar Cümhuriyyətinin (sonrakı Azərbaycan SSR) bayrağının rəngi qırmızı idi. Bayrağın üzərində üzü bayraq ağacına tərəf olan ağ rəngli aypara və ayparanın içərisində eyni rəngli beşgüşəli ulduz var idi. 1921-ci il Azərbaycan SSR Konstitusiyası qəbul ediləndə bayrağın təsvirində dəyişiklik nəzərdə tutulurdu: "Bayraq al qumaş rəngindədir, onun sol küncündə yaşıl fon üzərində qızılı rəngdə "AİŞC" və ya Azərbaycan İctimai Şuralar Cümhuriyyəti yazısı yerləşdirilmişdir". "AİŞC" hərfləri ərəb əlifbası ilə yazılmış, 1922-ci ildən isə ərəb və latın əlifbaları ilə verilmişdir. 1924-cü ildə yenidən dəyişiklik olundu: bayrağın üzərində onun ümumi eninin 1/6 ölçüsündə oraq və çəkic şəkli, onlardan yuxarıda isə aypara və beşgüşəli ulduz təsviri verildi. 1930-cu ildən sonra bayrağın üzərindəki ərəb əlifbası ilə yazılmış hərflər yığışdırıldı və dövlətin adı ancaq latın qrafikası ilə göstərildi. 1939-cu ildə latın əlifbasının kiril əlifbasına keçilməsi ilə əlaqədar bayrağın üstündəki "Az.SSR" sözləri yeni əlifba ilə yazıldı, aypara və ulduz təsvirləri silindi. 1952-ci il oktyabrın 7-də Azərbaycan SSR Ali Sovetinin fərmanı ilə respublikanın dövlət bayrağının yeni layihəsi qəbul olundu. Əvvəlki sovet dövrü bayraqlarından fərqli olaraq bu bayrağın müəllifi azərbaycanlı idi - Dövlət İncəsənət Muzeyinin direktoru, xalq rəssamı Kazım Kazımzadə. Bayraq ikirəngli üfqi zolaqdan ibarət, oraq çəkicli idi. Bayrağın eninin 3/4 bərabər olan birinci zolağı qırmızı, qalan hissəsi isə ikinci göy rəngli zolaqdan ibarət idi **(şəkil 50)**. 1956-cı ildə bayrağın üzərindəki oraq və çəkic şəkilləri bayraq sapından mərkəzə doğru bir qədər uzaqlaşdırılmış, təsvir bayrağın hər iki üzündə verilmişdir. 1981-ci ilin martından etibarən Azərbaycan bayrağının bir üzündən oraq və çəkic təsvirləri çıxarılmışdır.

Qeyd etmək lazımdır ki, sövet dövrünə aid Azərbaycan bayraqları Milli Azərbaycan Tarixi Muzeyində qorunur.[83] Beləliklə, Azərbaycan SSR bayrağı digər respublikaların bayraqlarından yalnız Xəzərin sahilində yerləşməsi ilə fərqlənirdi. Zəhmətkeşlərin qanını, Xəzərin sularını, fəhlə və kəndlinin əməyini bildirən bu bayraq mahiyyət etibarı ilə Azərbaycan xalqına zidd idi, onun tarixi, dini-mədəni irsi, dünyagörüşü barəsində məlumat vermirdi.



Şəkil 49. Azərbaycan SSR Qırmızı Əmək bayrağı ordeni üzərində sovet rəmzləri ilə bərabər aypara təsviri (MATM).



Şəkil 50. Azərbaycan Sovet Sosialist Respublikasının Dövlət bayrağı (MATM).

[83] - Azərbaycan bayraqları, s. 57-79.



**Milli Azərbaycan Tarixi Muzeyi.**

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN DÖVLƏT BAYRAĞI



Şəkil 51. Azərbaycan Xalq Cümhuriyyətinin ilk bayrağı (Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası).

1918-ci il may ayının 28-i Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı. Həmin gün Müstəqillik Bəyannaməsinin qəbul edilməsi ilə Azərbaycan xalqının öz dövləti - Azərbaycan Xalq Cümhuriyyəti yaradıldı. Müstəqil dövlətin yaradılması dövlətçilik ənənələrinin bərpası demək idi. Dövlət qarşısında duran ən vacib vəzifələrdən biri dövlət atributlarının, Dövlət bayrağı, Dövlət gerbi, Dövlət himni və Dövlət möhürünün yaradılması idi. Ən mühüm dövlət rəmzlərindən olan Dövlət bayrağının qəbul edilməsi daha tez həyata keçirildi. İlkin forma kimi Osmanlı imperiyasının bayrağı seçilmişdir. Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti 1918-ci il iyunun 21-də Dövlət bayrağı haqqında qərar qəbul etdi.[84] Həmin qərara əsasən qırmızı rəngli Dövlət bayrağının üzərində ağ rəngli aypara və səkkizgüşəli ulduz təsvir olunmuşdu. Beləliklə, osmanlı bayrağından fərq ulduzun beşgüşəli deyil, 8-güşəli olmasında idi **(şəkil 51)**. 1918-ci il iyunun 4-də Azərbaycanla Osmanlı dövləti arasında imzalanmış müqaviləyə əsasən Osmanlı imperiyası müxtəlif sahələrdə Azərbaycana dəstək olmuş və kömək göstərmişdir. Önəmli köməyi Nuru paşanın rəhbərliyi altında Azərbaycana gəlmiş türk hərbi hissələri göstərmişdilər: azərbaycanlılardan ibarət hissələrlə Qafqaz İslam Ordusu tərkibində birləşdirilən osmanlı hərbçiləri 1918-ci il iyun - avqust döyüşlərində bolşevik-daşnak qüvvələrinin darmadağın olunmasında, 1918-ci il sentyabrın 15-də Bakını general Denstervilin rəhbərlik etdiyi ingilis qüvvələrindən azad edilməsində yaxından iştirak etmişdilər. 1918-ci il döyüşlərində həlak olmuş türk əsgərlərinin qəbirləri qədirbilən xalqımız tərəfindən göz bəbəyi kimi qorunur və bu qəbirlər üzərində dalğalanan bayraqlar göstərilən qardaş köməyinin bariz nümunəsidir **(şəkil 52)**.

Müstəqil dövlət olan Azərbaycan Xalq Cümhuriyyəti özünün milli, digər dövlətlərdən fərqlənən dövlət atributları, o cümlədən Dövlət bayrağına malik olmalı idi. Dövlətçilik ənənələri inkişaf etdikcə, dövlət quruculuğu işləri sürətlə

[84] - Azərbaycan Xalq Cümhuriyyətinin ensiklopediyası. Yaqub Mahmudovun redaktəsi ilə. Bakı, 2004, I cild, səh.: 158, 309-310.



Şəkil 52. Bakının azad edilməsi uğrunda həlak olmuş türk və azərbaycan əsgərlərinin şərəfinə ucaldılmış xatirə abidəsi.

vüsət aldıqca bu barədə təsəvvürlər da artırdı. Nəticədə Dövlət bayrağının təsvirinin dəyişməsi istiqamətində iş başladı. Dövlət bayrağının formaları müzakirə olunarkən üç ideyanın: türkçülük, islamçılıq, müasirlik ideyalarının, bu bayraqda əks olunmasına əsas diqqət yetirildi. Eyni zamanda bayraqda olan təsvirlər Azərbaycan xalqının keçmişini, qədim tarixini, zəngin mədəniyyətini də əks etdirməli idi. Qeyd etmək lazımdır ki, türkçülük, islamçılıq, müasirlik ideyalarının Azərbaycanda rəmzi ideyaya çevrilməsinin öz tarixçəsi var. Belə ki, bu ideyaların formalaşmasında Azərbaycanın görkəmli filosof və ictimai xadimi Seyid Cəmaləddin Əfqaninin (1838-1897) müstəsna rolu var. "İslam Birliyi" ("İttihadi İslam") dini-siyasi mübarizə cəbhəsinin banisi olan Seyid Cəmaləddin Əfqani özünün "Milli vəhdət fəlsəfəsi və din birliyinin həqiqi mahiyyəti" və "İttihadi-islam" adlı əsərlərində o, inkişaf üçün müsəlman xalqlarına din birliyi, milli vəhdət və Avropa mədəniyyətinin və dövlətçiliyinin mütərəqqi ənənələrinin öyrənilməsinin vacibliyi ideyası ilə çıxış etmişdir. Sonralar onun ideyaları "milliləşmə, Islamlaşma, müasirləşmə" formasına salındı.[85] Cəmaləddin Əfqaninin fəlsəfəsi sonralar Ismayıl bəy Qasprali, Ziya Göyalp, Əli bəy Hüseynzadə, Əhməd bəy Ağayev, Məhəmməd Əmin Rəsulzadə, Nəcəf bəy Vəzirov, Ceyhun Hacıbəyli və digər görkəmli ideoloqlar üçün əsas olmuşdur.[86] XX əsrin əv-

[85] - Azərbaycan Xalq Cümhuriyyətinin ensiklopediyası, I cild, s. 327.
[86] - Azərbaycan Xalq Cümhuriyyətinin ensiklopediyası, I cild, s. 328.







ВЫПИСКА

изъ журнала постановленiй Правительства Азербайджана отъ 9-го Ноября 1918 г.

| СЛУШАЛИ: | ПОСТАНОВИЛИ: |
| --- | --- |
| Докладъ Председателя Совѣта Министровъ о нацiональномъ флагѣ.- | Нацiональнымъ флагомъ признать флагъ, состоящiй изъ зеленаго, краснаго и голубого цвѣтовъ съ бѣлымъ полумѣсяцемъ и восьмигранной звѣздой.- |

Съ подлиннымъ вѣрно:

Дѣлопроизводитель

Настоящая выписка препровождается Г. Министру Юстицiи для свѣдѣнiя.

Ноября "4" дня 1918 г.

гор. Баку.

Секретарь Правительства

№ 2248.

Дѣлопроизводитель

Şəkil 53. Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının qəbul edilməsi barədə Parlamentin qərarından çıxarış (Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası).

vəllərində yaşayıb - yaratmış Azərbaycan ziyalılarının əsərlərində "milliləşmə, Islamlaşma, müasirləşmə" ideyaları öz son şəklini Məhəmməd Əmin Rəsulzadənin fikirlərində tapmışdılar. Belə ki, 1914-cü ildə redaktoru Əlabbas Müznib olan "Dirilik" jurnalında Məhəmməd Əmin Rəsulzadənin "Dirilik nədir?" silsilə məqalələri çap edilmişdir. Burada o, millətin dirçəlməsi üçün milli özünüdərk, din, milli dil, tarixi keçmişə münasibət, müasirlik kimi atributların olmasını vacib hesab etmişdir.[87]

Əvvəlki paraqraflarda göstərilmişdir ki, Azərbaycanda ən çox istifadə edilən ənənəvi rənglər sırasında qırmızı, yaşıl, göy rənglərin xüsusi yeri var idi. Artıq XIX əsrin sonlarında bütün Şərqdə və hətta Avropa ölkələrində yaşıl rəng İslamçılıq, göy rəng - türkçülük rəngi kimi qəbul olunurdu. Çox mənaları olan



Şəkil 54. Azərbaycan Xalq Cümhuriyyətinin Dövlət bayrağı.

[87] - Azərbaycan Xalq Cümhuriyyətinin ensiklopediyası, I cild, s. 328.

qırmızı rəng Azərbaycan ziyalılarının əsərlərində daha çox müasirləşməyin rəngi kimi təbliğ olunurdu. Bu səbəbdən Azərbaycan Xalq Cümhuriyyətinin yeni bayrağı üçün rənglər seçiləndə yaşıl, qırmızı və göy rənglər əsas zolaqlar kimi götürülmüşdür.

Bayrağın üzərindəki rəmzlərə gəldikdə isə, aypara və 8-güşəli ulduzun seçilməsi heç də təsadüfi olmamışdır, bu rəmzlərin Azərbaycanda işlədilməsinin zəngin tarixi var.

1918-ci il noyabrın 9-da Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin iclasında Hökumətin sədri Fətəli xan Xoyskinin məruzəsi əsasında Azərbaycan dövlətinin yeni Dövlət bayrağının forma və təsvirləri qəbul edilmişdir. Hökumətin həmin iclasında Azərbaycan dövlət bayrağının "yaşıl, qırmızı və mavi rənglərdən, ağ aypara və səkkizgüşəli ulduzdan ibarət" olması qərara alındı[88] **(şəkil 53-54)**.

Bayraqdakı mavi rəng - türklüyün, qırmızı - müasir azadlıq ideologiyasının, yaşıl isə islamın rəmzi idi. Bayraqdakı ulduzun 8-güşəli olmasını F.Xoyski öz nitqində belə əsaslandırmışdır ki, ulduzun güşələrinin sayı dövlətin əski əlifba ilə yazılmış adında oxunan hərflərin sayına bərabərdir.[89] Tədqiqatçılar İ.Əliyev, E.Məhərrəmov belə fərziyyə irəli sürmüşdülər ki, 8-güşəli ulduzla "Od yurdu" ifadəsi də nəzərdə tutula bilər. Bayraq barədə Cümhuriyyətin rəsmi mətbu orqanı olan "Azərbaycan" qəzetində çap edilmiş "Azərbaycan bayrağı" adlı məlumatda deyilirdi: "Hökümət tərəfindən yaşıl, qırmızı və mavi rəngdə olan üçrəngli Azərbaycan bayrağının layihəsi təsdiq olunmuşdur. Qırmızı rəngin fonunda aypara və səkkiz guşəli ulduzun təsviri olmalı idi. Aypara və ulduz ağ rəngdə nəzərdə tutulmuşdu".[90]

Cəmiyyət tərəfindən müsbət qarşılanan yeni bayraq 1918-ci il dekabrın 7-də Azərbaycan parlamentinin binasında qaldırıldı. Parlamentin açılışı mərasimində Məhəmməd Əmin Rəsulzadə demişdir: "... müstəqil Azərbaycanı təmsil edən o üç boyalı bayrağı Şurayi-Milli qaldırmış, türk hürriyəti, islam mədəniyyəti və müasir əfkari-əhraranəsini təmsil edən bu üç boyalı bayraq daimən başlarımızın üstündən ehtizaz edəcəkdir...".[91] Parlament deputatlarının sürəkli alqışları ilə qarşılanan bu sözlər bir daha sübut etdi ki, bayrağın tərtibatçıları öz seçimlərində yanılmamışdılar. "Azərbaycan" qəzetinin 10 dekabr 1918-ci il tarixli sayında göstərilmişdir ki, Rəsulzadə Azərbaycanın Dövlət bayrağındakı üç

[88] - Azərbaycan Xalq Cümhuriyyətinin ensiklopediyası, I cild, s. 158, 310.
[89] - Əliyev İ., Məhərrəmov E. Azərbaycan respublikasının dövlət rəmzləri. Bakı, 2000, s. 10.
[90] - Mərdanov M., Quliyev Ə. Azərbaycan Respublikasının dövlət rəmzləri. B.,2001, s. 74-75.
[91] - Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920) Parlament. (Stenoqrafik hesabat). Bakı, 1998, I cild, s.34





**Şəkil 55. Azərbaycan Xalq Cümhuriyyətinin ordenlərinin layihələrində üçrəngli bayrağın təsviri (Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası).**



rəng barəsində demişdir: "Türk milli mədəniyyətinin, müasir Avropa demokratiyasının və islam sivilizasiyasının simvoludur".[92] Azərbaycan mədəniyyətinin görkəmli simalarından olan Üzeyir Hacıbəyov yazırdı: "Azərbaycan Respublikası o zaman bütün Şərqdə (və Avropada) ən demokratik parlament modelinə malik idi və sağlam bir milliyət fikri və türkçülük şüuru üzərində qurulmuşdu... Eyni zamanda, Azərbaycan çağdaş bir cəmiyyət qurmağa, Avropa zehniyyəti ilə çalışmağa əzm etmişdir. Bayrağımızın üç rəngi (mavi, qırmızı, yaşıl) bu ümdənin timsalıdır".[93] Ü. Hacıbəyov "Azərbaycan" qəzetinin 28 may 1919-cu il tarixli nömrəsində dərc olunmuş "Bir yaş" məqaləsində yazırdı: "Mavi rəngi türklüyə, yaşıl rəngi islamlığa, al rəngi mədəniyyətə işarə olan bayrağımızın məna-yi,-mənəviyyəsi də budur".[94]

Üçrəngli bayraq və onun elementləri Cümhuriyyətin digər rəmzlərində də öz əksini tapmışdır. Belə ki, 1920-ci il yanvarın 30-da Azərbaycan Hökuməti Dövlət Gerbinin layihəsinin müsabiqəsi elan olunmuşdur. Təqdim olunan br çox layihələr sırasında Azərbaycan bayrağının rənglərində (mavi, qırmızı, yaşıl) haşiyəsi olan qalxan, ətrafında palıd yarpaqları, buğda çələngi, ortasında alov təsvir olunan layihəyə üstünlük verilmişdir. Müsabiqənin nəticələri 1920-ci il mayın 28-də elan olunmalı idi, lakin respublikanın süqutu buna imkan vermədi.[95] Azərbaycan Xalq Cümhuriyyətinin Dövlət ordenlərinin tərtib edilməsi barədə müsabiqə də 1920-ci il yanvarın 30-da elan olunmuş, müsabiqə komissiyasına yüzlərlə layihələr daxil olmuş, lakin müsabiqənin nəticələri layihələri 1920-ci il mayın 28-də elan olunmalı idi. Hal-hazırda Azərbaycan Respublikası Mərkəzi Dövlət Tarix Arxivində qorunan orden layihələrindən aydın olur ki, onların əksəriyyətində Azərbaycan bayrağının təsviri olmuş, ya da onun rənglərindən (mavi, qırmızı, yaşıl) istifadə olunmuşdur **(şəkil 55)**.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə ordunun Döyüş bayrağı da tərtib edilmişdir. Silahlı Qüvvələrin tərkibinə daxil olan hərbi hissələrin şərəf, şan-şöhrət rəmzlərindən biri onların Döyüş Bayrağıdır. Döyüş Bayrağı, hərbi hissədə xidmət edən hər bir hərbi qulluqçunu Vətəninə sədaqətlə xidmət etməyə, onun yolunda son damla qanınadək vuruşmağa səsləyir. Əsrlərdən bəri gələn hərbi ənənələrdən biri də Döyüş Bayrağına olan sədaqət və onun toxunulmazlığını təmin etmək ənənəsidir. Döyüş Bayrağı hərbi hissə təşkil edilərkən bu hissəyə təqdim edilir və hərbi hissə mövcud olanadək (hərbi hissənin adının və nömrəsinin dəyişilməsinə baxmayaraq) onu müşayiət edir. Hərbi hissənin bütün şəxsi heyəti onu qorumalı, düşmən əlinə keçməməsini, bu və ya digər səbəbdən (yanğın, tufan, zəlzələ və s.) itirilməməsini təmin etməlidir. Əgər hərbi hissənin Döyüş Bayrağı itirilərsə, hərbi hissə dərhal ləğv edilir, bu şərəfsizliyin bilavasitə günahkarları və hərbi hissənin komandirini hərbi tribunal məhkəməsinə verilirlər. Döyüş Bayrağına malik olan hərbi hissədə 1 №-li post - Döyüş Bayrağını qoruyan saatdarın postudur.[96]

[92] - Mərdanov M., Quliyev Ə., s. 75.
[93] - Yenə orada, s.76.
[94] - Yenə orada.
[95] - Azərbaycan Xalq Cümhuriyyəti, I cild, s.310.





1918-1920-ci illərdə Azərbaycan Ordusunda hərbi-tərbiyəvi iş qurularkən Döyüş Bayrağının əhəmiyyəti şəxsi heyətə daim aşılanır, ona hörmətin, dövlətə olan hörmət kimi qiymətləndirilməsi daim vurğulanırdı.

Ordu təzə yaradılanda hərbi hissələrin Döyüş Bayrağı Azərbaycan Xalq Cümhuriyyətinin Dövlət bayrağı formasında idi. Lakin ordu hissələri tam formalaşandan sonra həm dövlətçilik rəmzlərini, həm də türk xalqlarının hərbi şöhrətini özündə əks etdirən ayrıca Döyüş Bayrağının qəbul edilməsi zərurəti yarandı. Bayrağın layihəsinin hazırlanması hərbi topoqrafiya şöbəsinə tapşırıldı; layihədə bu zaman milli simvollardan istifadəyə, milli ənənələrlə bağlı olan elementlərin nəzərə alınmasına xüsusi diqqət yetirilməli idi.



Şəkil 56. Azərbaycan Ordusunun (1918-1920-ci illər) Döyüş bayrağının layihəsi (ARMDTA).

Piyada və süvari alayları, əlahiddə taborlar və hərbi məktəb üçün döyüş bayraqlarının təsviri 1919-cu il dekabrın 8-də elan edildi (Ali Qərargahın Baş İdarəsinin 561 №-li qərarı; sənəd ali Qərargahın rəisi general-leytenant Məhəmməd bəy Sülkeviç tərəfindən imzalanmışdır)[97] **(şəkil 56)**. Döyüş Bayrağı - parça, lent, ucluq, ağac və dəstəkdən ibarət idi. Parça gümüşü saçaqlarla tamamlanan, kənarlarına gümüşdən naxış vurulan mavi rəngli ipək ştof və atlas parçalardan ibarət idi. Parçanın digər üzünün naxışı görünməsin deyə o, ikiqat bükülmüşdü. Yuxarı sol küncündə gümüşü saplarla səkkizguşəli ulduz və aypara çəkilmişdi. Bayrağın kənarlarına salınmış naxış Şərqin böyük sərkərdəsi Əmir Teymurun Səmərqənd şəhərində qəbrinin üzərində olan təsvirdən götürülmüşdü; bu Şərqin qəhrəmanlıq ənənələrinə sadiqliyi təcəssüm etdirirdi. Bayrağın bir üzündə ərəb əlifbası ilə "Azərbaycan" sözü, o biri üzündə isə "Quran"dan ayə - "Nasri min Allah və Fəth karib" (Allahdan kömək və yaxın qələbə) yazılmışdı.[98] Bayrağın lentləri 15 və 20 sm enində yaşıl və qırmızı rəngli parçadan hazırlanmış, ucluqları 10 sm uzunluğunda saçaqlarla tamamlanmışdı **(şəkil 62)**. Qırmızı lentin üzərində gümüşü saplarla içində 7 ox olan ox qabı, nizə və iki yay çəkilmişdi. Yaşıl lentin üzərində də gümüşü saplarla içində 7 ox olan ox qabı, iki yay, boncuq və Teymurləngin nizəsinin rəsmi salınmışdı. Lent-



Şəkil 57. Azərbaycan Ordusunun (1918-1920-ci illər) Döyüş bayrağının lentləri (ARMDTA).

[96] - Əhmədov S. Azərbaycan Ordusu: uniforma, rəmzlər, nişanlar. Bakı, 2008, s.24
[97] - AR MDTA, f. 2894, siy. 1, iş 6, v.154.
[98] - Əhmədov S. Azərbaycan Ordusu, s.24

lər bayraq ağacının yuxarısına düyünlənirdi. Bayrağın ucluğu 5 hissədən ibarət idi: konus, silindr, kürə (şar), kəsik ellipsoid və nizə. Bayraq ağacı 2,6 m uzunluğunda və 3,7 sm diametrində olmalı idi. Dəstək - gümüşü silindrdən ibarət olub, bayrağın aşağı qurtaracağında ağaca geydirilirdi. Dəstəyin aşağı və yuxarı qurtaracağı 2,5 mm-lik qızılı haşiyə ilə əhatə edilmişdi. Daha sonra 1,5 mm enində qızılı haşiyə ilə tamamlanan mavi mina ilə işlənmişdi. Qızıl haşiyələrin arasında yuxarı künclərdə Azərbaycan ulduzları nəqş olunmuş, aşağı künclərdə isə qızıldan ayparalı altun ziqzaq, daha sonra bayrağın rəngləri ilə boyadılmış, kürəciklərlə bəzədilmiş qabarıq gümüşü halqalar keçirdi. Dəstəyin gümüşü hissəsində bayrağın aid olduğu hissənin adı və həmin hissənin yaranma tarixi həkk olunurdu. Döyüş Bayrağının təsvirinin elan olunması ilə bağlı əmrdə deyilirdi ki, təsdiq olunmuş eskizlərin əsasında həmin dövrdə xalqın milli şüurunun inkişafı, məscid və kitablarda, habelə böyük Teymurləng və onun davamçıları tərəfindən inşa edilmiş tikililərdə əks olunan qədim memarlıq nişanələri dayanmışdır ki, onlar indi də Azərbaycan xalqı üçün əzizdir.[99] Maraqlıdır ki, "Quran" ayəsindən kəlmə və sözsüz ki, hələ VII əsrdən başlayaraq müsəlman bayraqlarında olan "Nasri min Allah və Fəth karib" (Allahdan kömək, yaxın qələbə) ifadəsi XVIII əsrin II yarısı-XIX əsrin əvvəllərində mövcud olmuş Azərbaycan xanlıqlarının bayraqlarında da yazılmışdır.[100]

Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920-ci illər) dövründə Azərbaycan dövlətçiliyini əks etdirən tarixi eksponatların Vətənə qaytarılması istiqamətində məqsədyönlü iş aparılmışdır. Cümhuriyyətin hərbi naziri, artilleriya generalı Səməd bəy Mehmandarovun göstərişi ilə Tiflis muzeylərində Azərbaycan dövlətçiliyi ilə bağlı eksponatların siyahısının tərtib olunmuş və Azərbaycana qaytarılması işi başlamışdır.[101] Hökumətin tədbirləri sayəsində Azərbaycanın ilk milli muzeyi olan "İstiqlal" muzeyinin təşkili başlandı.[102] Lakin Azərbaycan Xalq Cümhuriyyətinin ləğvi və Azərbaycanın Sovet Rusiyası tərəfindən işğal edilməsi nəzərdə tutulanları həyata keçirməyə imkan vermədi.

1920-ci ilin iyununda Bakıda Azərbaycan Dövlət Muzeyi təşkil olundu və dövlətçiliyin tarixi atributlarının qaytarılması məsələsi yenidən gündəmə gəldi.[103] 1924-cü ildə keçirilən Ümumazərbaycan diyarşünaslıq qurultayında qəbul edilən qətnaməyə əsasən Azərbaycan hökumətinə tövsiyyə olunmuşdur ki, Azərbaycan tarixinə aid əşyaların xarici muzeylərdə aşkar edilib, vətənə qaytarılması istiqamətində əməli tədbirlər həyata keçirsin.[104] 1925-ci ilin yanvarında Azərbaycan SSR Mədəniyyət Xalq Komissarlığı Kollegiyasında Azərbaycan Dövlət Muzeyinin müdiri tarixçi alim Davud Şərifov məruzə ilə çıxış edərək SSRI-nin mərkəzi muzeyləri, habelə müttəfiq respublikaların muzeylərində saxlanılan Azərbaycan tarixi eksponatlarının qaytarılması məsələsini qaldırmışdır. Məruzəyə əsasən Kollegiya Azərbaycan Dövlət Muzeyinin əməkdaşlarını ezamiyyətə göndərməyi qərara aldı.[105] Nəticədə Tiflisdən QHTM-dən Azərbaycana bir çox tarixi və arxeoloji eksponatlar verildi. Materiallar arasında Azərbaycan xanlıqlarının bayraqları, həmçinin Qarabağ xanı Mehdiqulu xanın da bayrağı var idi.[106] Bayraqları ekspozisiyada nümayiş etdirmək üçün hazırladılar, lakin 1928-ci ildə Azərbacynda repressiyalar başlandı. Represiyalara məruz qalan ziyalılar arasında Azərbaycan Dövlət Muzeyinin müdiri D.Şərifov da var idi. Onun əvəzinə muzeyin direktoru vəzifəsinə S.Manasyan təyin olundu. Keçmiş hadisələrin şahidləri olmuş bayraqların və digər hakimiyyət rəmzlərinin nümayişi Azərbaycanda dövlətçilik və hərbi işin dərin köklərə malik olmasını sübut edən ən yaxşı təbliğat vasitəsidir. Dövlətçiliyimizin rəmzləri olan bu bayraqlar üzərindəki olan təsvir və yazılar islamçılığımızı və türkçülüyümüzü təsdiqləyir, əcdadlarımızın hansı amallar uğrunda vuruşmalarını göstərir. Azərbaycan xalqının tarixi keçmişinin silinməsi məqsədi ilə S.Manusyan "keçmişin qalıqları ilə mübarizə" adı ilə Azərbaycan tarixinin maddi sübutlarını respublikadan çıxarırdı. Bir çox eksponatlar, o cümlədən xanlıqlar dövrü abidələri və 1918-1920-ci illərlə bağlı olan eksponatlar Moskva muzeylərinə göndərildi. Yalnız 1991-ci ildə Azərbaycanın müstəqillyi bərpa olunandan sonra tarixi keçmişə qayıdış başladı.

[99] - AR MDTA, f. 2894, siy. 1, iş 6,, v.157
[100] - Əhmadov S. Azərbaycan Ordusu, s.25.
[101] - Azərbaycan Respublikasının Mərkəzi Dövlət Tarix Arxivi, f. 2898, siy. 2, v.11.
[102] - Бахшиева А.Т., Из истории музейного дела в Азербайджане (на материалах МИА), Баку, 2005, с.19.
[103] - Azərbaycan bayraqları, c. 6.

[104] - Бахшиева А.Т. Из истории, с. 52, 55.
[105] - Там же, с.54.
[106] - Там же, с.55.



# AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT BAYRAĞI

XX əsrin 80-ci illərin sonlarında müstəqillik uğrunda mübarizəyə başlayan Azərbaycan xalqı qondarma bayrağı deyil, özünün əsl rəzmi olan üçrəngli bayrağı qaldırmışdır.



Şəkil 58. Azərbaycan Respublikasının Dövlət Gerbi.

Üçrənqli bayragımız 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Heydər Əlievin sədrliyi ilə keçən 1-ci sessiyasında Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli dövlət bayrağı kimi qəbul olundu. Azərbaycan xalıqının ümummilli lideri Heydər Əliyev bununla göstərdi ki, milli özünüdərkin ilk mərhələsi milli rəmzlərin qaytarılmasıdır, milli müstəqilliyin bünövrəsinin qoyulması isə həmin müstəqilliyi tərənnüm edən rəmzlərin qaldırılmasıdır. Bu cəsarətli addım bütün Azərbaycan xalqı tərəfindən alqışlandı, dəstəkləndi, o dövrki Azərbaycan siyasi rəhbərliyinə əhəmiyyətli təsir göstərdi.

1990-cı il noyabrın 29-da "Azərbaycan SSR adının və dövlət bayrağının dəyişdirilməsi haqqında" fərman verildi və 1991-ci il fevralın 5-də parlament tərəfindən təsdiq olundu.[107] İftixar hissi ilə qeyd edə bilərik ki, 80-ci illərin sonu - 90-cı illərin əvvəllərində Azərbaycan xalqına qarşı başlanmış elan olunmamış müharibə və torpaqların işğalı, müstəqilliyi boğa bilməmiş, üçrəngli bayraq altında öz müstəqilliyi və ərazi bütövlüyü uğrunda vuruşan xalq **"Bayraqları bayraq yapan üstündəki qandır, torpaq uğrunda ölən varsa - Vətəndir"** sözlərini təsdiqləmişdir.

Azərbaycan Respublikasının Dövlət rəmzlərinə Dövlət Bayrağı, Dövlət Gerbi və Dövlət Himni aid edilir. Dövlət Gerbinin rəngli və ağ-qara təsviri 1993-cü il 19 yanvar tarixli Konstitusiya qanunu ilə, Əsasnaməsi isə 1993-cü il fevralın 23-də təsdiq edildi. Dövlət Gerbinin əsasını təşkil edən qalxan üzərində Azərbaycan Respublikasının Dövlət bayrağının rəngləri verilmişdir **(şəkil 58)**. Müasir gerbimizin təsviri tərtib edilərkən hələ 1919-cu ildə tərtib edilmiş layihə əsas kimi götürülmüşdür. Milli Məclisin 1992-ci il 27 may tarixli qərarı ilə Azərbaycan Respublikasının 1919-cu ildə Üzeyir Hacıbəyov tərəfindən yazılmış "Azərbay-

[107] - Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası, c. I, s. 158, 310.




Şəkil 59. Ümummilli lider Heydər Əliyev və Azərbaycanın dövlət müstəqilliyini təcəssüm edən üçrəngli bayrağımız.

can marşı" (sözləri Əhməd Cavadındır) (müasir oranjiman bəstəkar Aydın Əzimov tərəfindən həyata keçirilmişdir). Dövlət Himni kimi qəbul olunmuşdur. Onun əsasında 1993-cü il martın 2-də Azərbaycan Respublikasının Dövlət Himni haqqında Əsasnamə təsdiq edilmişdir.[108]

1995-ci ildə Prezident Heydər Əliyevin rəhbərliyi ilə işlənmiş və ümumxalq referendumunda qəbul olunmuş Konstitusiyada Azərbaycan Respublikasının Dövlət Bayrağının əsas elementlərinin yazılı təsviri verilmişdir.

Ümummilli lider Heydər Əliyev Azərbaycan Respublikasının Dövlət rəmzləri, o cümlədən Dövlət Bayrağının təbliğinə böyük əhəmiyyət verirdi. Onun Şəki şəhərinə səfəri zamanı zəhmətkeşlərin qarşısında çıxışından bir parçaya diqqət yetirək:

[108] - Yenə orada, s. 160.





*"Azərbaycanın müstəqillyinin rəmzi bizim bu üç rəngli bayrağımızdır.*

*Mən bayaqdan baxıram, orada deyəsən, bir gənc qızdır, bayrağı əlində tutubdur. Bayaqdan ona fikir verirəm. Sizin hamınız fikir verin. Bayrağı bir əlində tutub, külək bayrağı o tərəfə, bu tərəfə vurur, amma əlində düz saxlayıbdır.*

*Qızım, sənin üzünü görürəm - gözəl qızsan. Mən səni öpürəm, bağrıma basıram. Sən ki, Azərbaycanın müstəqilliynin rəmzi olan o bayrağı o qədər sevirsən, onu əlində o cür saxlayırsan, buna görə sənə mən hörmət-ehtiramımı, sevgimi bildirirəm. Bu, xalqımızın müstəqilliyidir.*

*Mərasim başlayandan mən ona baxıram, bəzən deyirəm, bəlkə başqa adamın əlidir. Deyirəm, bəlkə süni əldir. Görürəm yox, özü də qızdır. Heyranam, heyranam. Bu bayraq Azərbaycan Dövlətinin göylərində daim dalğalanacaq və heç vaxt enməyəcəkdir."*

Vətəndaş cəmiyyətinin formalaşmasında, gənclərin vətənpərvərlik tərbiyəsində dövlət müstəqilliyini təcəssüm etdirən Dövlət rəmzlərinin böyük rolunu nəzərə alaraq Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 1998-ci ildə "Azərbaycan Respublikasının dövlət atributlarının təbliği istiqamətində işin gücləndirilməsi haqqında" sərəncam imzalamışdır. Məhz bu sərəncamın imzalanmasından sonra ölkədə dövlətçilik rəmzlərinin elmi araşdırılması və təbliği istiqamətində bir sıra kitablar, bukletlər, broşurlar hazırlanmışdır. Fərmana reaksiya olaraq ölkədə dövlət atributları, o cümlədən Dövlət bayrağına həsr olunmuş bir sıra elmi əsərlər işıq üzü görmüşdür.[109]

Heydər Əliyev Azərbaycanın dövlətçilik rəmzlərinin təbliği barədə demişdir: *"Bu sırada mən hesab edirəm ki, məktəblərdə Azərbaycanın müstəqilliyinin atributları yaxşı təbliğ olunmalıdır. Azərbaycanın Dövlət müstəqilliyini təmsil edən Azərbaycanın bayrağına münasibət, onun müqəddəsliyi hər bir cocuqda, yeniyetmədə daxilən olmadır. Azərbaycanın bayrağı sadəcə bayraq deyil. O, bizim dövlətçiliyimizin, müstəqilliyimizin rəmzidir. Keçmişdən qalan ənənələrə görə bu bayrağa o qədər də əhəmiyyət verilmirdi, bu bayraq müəyyən qədər formal xarakter daşıyırdı. Ancaq indi biz yeni bir həyatdayıq. Biz öz müstəqil dövlətimizdəyik, ölkəmizdəyik. Hansı ölkəyə gediriksə gedək, Azərbaycanın bayraqlarının o ölkədə asılması həm Azərbaycanın orada təmsil olunmasını göstərir, həm də bizim ölkəmizi tanıdır, eyni zamanda bizdə böyük iftixar hissi doğurur."*

[109] - Azərbaycanda dövlətçilik və onun rəmzləri, N. Valixanlının redaktəsi ilə, Bakı, 2000, 96 s.; Mahmudov Y. Azərbaycan Dövlətçiliyi İslam dinin qəbulundan sonrakı dövrdə \\ «Dirçəliş -XXI əsr», №48, B., 2002, s.59-70; Azərbaycan Bayraqları. Kataloq. N.Valixanlı, Z.Dulaeva, S.Əhmədov, R.Səfərova. Bakı, 2005, 85 s.; Əhmədov S. Bayraqların inkişaf mərhələləri \\ Hərbi bilik, 2000, №2, 78-82 s. və s.



Şəkil 60. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin andiçmə mərasimi.

*"Mən çox ölkələrə gedirəm. Hava limanında Azərbaycan bayraqlarını görəndə həddindən artıq sevinirəm. Yaşadığım iqamətgahın, ayləşdiyim avtomobilin üstündə Azərbaycan bayrağını, hansı bir yerə danışığa gedəndə Azərbaycan bayrağını görürəm. Bu bizim müstəqil dövlətimizin rəmzidir. Ona görə də lazımdır ki, hər bir Azərbaycan vətəndaşı, xüsusən gənc nəsil bunu dərk etsin, qiymətləndirsin. Onda bayrağa olan məhəbbət eyni zamanda Vətənə, xalqa, dövlətə olan məhəbbətə bərabər olsun!..."*[110]

[110] - Mardanov M., Quliyev Ə. Azarbaycan Respublikasının dövlat ramzlari. B., 2001, s. 96.



AZƏRBAYCAN RESPUBLIKASININ DÖVLƏT BAYRAĞI

Ümummilli lider Heydər Əliyev kursunun davamçısı Azərbaycan Respublikası Prezidenti İlham Əliyev ölkəmizin dövlətçilik rəmzlərinin təbliği istiqamətində işləri yeni, daha geniş və əhatəli müstəviyə keçirmişdir. Belə ki, respublikanın hər yerində inzibati mərkəzlərdə hündür polad dayaqlar üzərində Azərbaycan Respublikasının üçrəngli bayraqları ucaldılmışdır. İlk belə bayraq Bakının Milli Parkında (keçmiş dənizkarı bulvar) Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin iştirakı ilə qaldırılmışdır **(şəkil 61)**.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyev 2006-cı il fevral ayının 7-də "Azərbaycan Respublikası Prezidenti yanında Heraldika Şurasının yaradılması haqqında" 362 №-li Fərmanı imzalamışdır. Azərbaycanda heraldika sahəsində əsaslı dönüş yaratmağa yönəlmiş fərmana əsasən respublikada rəmz və işarələrin, ilk növbədə dövlətçilik rəmzlərinin tədqiqi və təbliği sahəsində vahid dövlət siyasətinin həyata keçirilməsinin vacibliyi vurğulanırdı. Fərmana edilmiş 1 №-li Əlavə ilə Heraldika Şurasının Əsasnaməsi təsdiqlənmiş, həmçinin respublikanın görkəmli ziyalıları və dövlət xadimlərindən ibarət Şuranın tərkib heyəti müəyyənləşdirilmişdir.

Azərbaycan vətəndaşlarının milli həmrəyliyini, vahid məfkurə ətrafında sıx birləşməsinin başlıca amillərindən birinin Azərbaycan Respublikasının Dövlət Bayrağı olmasını nəzərə alaraq Azərbaycan Respublikası Prezidenti İlham Əliyev 2007-ci noyabrın 17-də "Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində Dövlət bayrağı meydanının yaradılması haqqında sərəncam" imzalamışdır. Həmin Sərəncama uyğun olaraq, 2007-ci il dekabrın 30-da Bakının Bayıl qəsəbəsində - Hərbi Dəniz Qüvvələrinin bazası yaxınlığında Dövlət bayrağı meydanının təməli qoyulmuş, inşaat işlərinə başlanılmışdır.

Tikinti işlərinin gedişi ilə müntəzəm maraqlanan dövlətimizin başçısı bir neçə dəfə bu meydana gələrək, inşaat işlərinin yüksək keyfiyyətlə aparılması ilə bağlı müvafiq tövsiyyə və tapşırıqlarını vermişdir. Dövlət bayrağı meydanında işlər mütəxəssislər tərəfindən yüksək peşəkarlıqla hazırlanmış xüsusi layihə əsasında həyata keçirilir. Tikinti işlərinə xarici və yerli mütəxəssislər cəlb olunmuşlar. Layihəyə əsasən, 20 min kvadratmetr ərazisi olan meydanda bütün lazımi infrastrukturun yaradılması istiqamətində ardıcıl işlər aparılmalı, dayağının hündürlüyü 162 metr olan Dövlət bayrağının uzunluğu 70 metr, eni 35 metr, ümumi sahəsi 2450 kvadratmetr, çəkisi isə 350 kiloqram olmalıdır.

2008-ci il sentyabrın 15-də Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin imzaladığı "Azərbaycan Respublikası Prezidentinin standartı (bayrağı) haqqında" fərmanla müəyyən edilib ki, Azərbaycan Prezidentinin standartı (bayrağı) onun rəsmi simvoludur.







Azərbaycan Prezidentinin ştandartının (bayrağının) etalonu (orijinalı) Azərbaycan Respublikasının Prezident sarayında yerləşən xidməti otağında saxlanılır. Ştandartının (bayrağının) dublikatı Prezident sarayının və AR Prezidentinin iqamətgahlarının üzərində, Azərbaycan Respublikası Prezidentinin iştirakı ilə rəsmi tədbirlərin keçirildiyi salonlarda və otaqlarda, və ya həmin tədbirin keçirildiyi binanın üzərində, AR Prezidentinin nəqliyyat vasitələri üzərində qaldırıla (asıla) və ya yerləşdirilə bilər.

Azərbaycan Respublikasının dövlət rəmzlərinin təbliği istiqamətində aparılan işlərin bariz nümunəsi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2009-cu il noyabrın 17-də imzaladığı "Azərbaycan Respublikasının Dövlət bayrağı gününün təsis edilməsi haqqında" Sərəncamıdır. Sərəncama əsasən, hər il noyabrın 9-u ölkəmizdə Azərbaycan Respublikasının Dövlət bayrağı günü kimi qeyd ediləcəkdir. Sənəddə deyilir: "Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra Azərbaycanın Dövlət bayrağı milli suverenliyin simvolu kimi ölkəmizin bütün vətəndaşları üçün müqəddəs dövlətçilik rəmzlərindən birinə çevrilmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan bu bayraq bizim azadlıq məfkurəmizə, milli-mənəvi dəyərlərə və ümumbəşəri ideallara sadiqliyimizi nümayiş etdirir.".

Beləliklə, son dövrdə Azərbaycanda aparılan məqsədyönlü tədbirlər nəticəsində Azərbaycanın dövlətçilik rəmzlərinin təbliğinə həsr olunmuş nəşrlərin yaranması ilə bərabər, paytaxtda Dövlət meydanı yaradılmış, Dövlət bayrağı günü təsis edilmişdir.

Şəkil 61. Bakının Milli Parkında (keçmiş dənizkənarı bulvar) qaldırılmış Azərbaycan bayrağı.



# AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT BAYRAĞININ RƏNGLƏRİNİN TARİXİ

Heraldikada rənglər böyük rol oynayır. Belə ki, rənglərin istifadəsi müxtəlif nişanların variantlarının sayını artırmağa, müxtəlif kombinasiyalar yaratmağa imkan verir. Hər rəng müəyyən məna kəsb etdiyindən, müxtəlif rənglərdən istifadə edilməsi rəmzin çatdırdığı informasiyanı artırır. Rənglərdən istifadə rəmz və nişanları sözün əsl mənasında sənət əsərinə çevirir. Bayraq üzərində daha çox məlumat yerləşdirmək üçün onun səthi müxtəlif heraldik zolaqlarla hissələrə bölünür.

Heraldik rəmzlərin təsvirini vermək üçün "blazonry" ingilis termini ilə bildirilən xüsusi heraldik anlayışlar dili istifadə olunur. Heraldik rənglər "tinktura" anlayışı ilə bildirilir. Tinkturaya mina, metal və xəzlər aiddir. Heraldikada qəbul olunmuş ənənəyə görə beş əsas mina rəngləri mövcuddur: qırmızı, mavi, qara, yaşıl, purpur (al-qırmızı). Həmçinin onların qatışmasından əmələ gələn rənglərdən köməkçi rənglər kimi istifadə olunur. Qızılı rəng heraldikada sarı, gümüşü rəng isə ağ rəng kimi göstərilir. Müəyyən gerbi təsvir edərkən bəzən boyalardan istifadə etmək olmur. Belə şəraitdə müxtəlif ağ-qara işarələrlə boyalar göstərilir. Bu üsul şraffirovka adlanır. Misal üçün, sarı rəng ağ fon üzərində qara nöqtələr, qırmızı rəng ağ fon üzərində şaquli qara zolaqlar, mavi rəng - üfqi qara zolaqlarla təsvir olunur.

Hər xalq bu və ya digər rəngə, boyaya öz tarixi ənənələrindən çıxış edərək məna verir.

Misal üçün, Avropa xalqlarında matəm rəngi qara, Çində isə ağdır.[111] Afrikanın asanti tayfalarında ağ rəng - sevinc və xeyirxahlıq, yaşıl - bolluq və həyat eşqi, qırmızı - qəzəb, müharibə, ölüm rəngləri hesab olunurlar.[112] Ərəb xalqlarının bir qismi qırmızı rəngi - islama qədərki inanclar rəmzi, yaşıl rəngi - islam, ağ rəngi - ərəblərin birliyi rəmzi hesab edirlərsə, digər ərəb xalqlarında yaşıl -



Şəkil 62. Təbiətdə göy, qırmızı və yaşıl rənglərin vəhdəti (Savalan dağı).

[111] - Форти С. Символы. Энциклопедия. М., 2005, стр.7
[112] - Степанов Ю.С. Семиотика. М., 1971, стр.38

bolluq, qırmızı - düşmənlərin qanı, ağ - ərəblərin alicənablığı kimi qələmə verilir. Müasir dövrdə bir neçə yeni fərziyyə də yaranmışdır: qırmızı - ərəblərin azadlığı uğrunda axıdılan qan, ağ - mübarizə ideyalarına sədaqət, yaşıl - islam.[113] Orta əsr heroldu Anselma hesab edirdi ki, onun dövründə Avropada qırmızı - məhəbbət, rəşadət, göy - dürüstlük, təmizlik, sədaqət, yaşıl - ümid, azadlıq, sevinc rəngləridir. O, qırmızı rəngi oda, istiyə, qana, göy rəngi səmaya, havaya, yaşıl rəngi bitkilərə, ağ rəngi suya aid edirdi.[114]

Məlumdur ki, Azərbaycan Respublikasının Dövlət Bayrağında göy, qırmızı, yaşıl rənglər mövcuddur, aypara və ulduz isə ağ rəngdədirlər.

Müasir dövrdə beynəlxalq aləmdə qəbul olunmuş ənənəyə görə qırmızı rəng - güc, qüdrət, məhəbbət, göy rəng - şərəf, ləyaqət və sədaqət, yaşıl rəng - azadlıq, ümid və sağlamlıq rəmzləri kimi qəbul olunurlar.[115]

Bununla belə, Azərbaycanın Dövlət bayrağı üzərində olan rənglərin qədim tarixi vardır.[116]

Qədim Misirdə qırmızı rəng ikili mahiyyət daşıyırdı. Bir tərəfdən, onu həyat verən qan rəngi kimi, digər tərəfdən isə insan qurbanları, qətllər və müharibələr rəngi kimi qəbul edirdilər. VIII-IX əsr xürrəmi qoşunlarında bayraqlar qırmızı rəngdə olduğundan xürrəmilərə farsdilli mənbələrdə surxələm (qırmızıbayraqlılar), ərəbdilli mənbələrdə isə müxammira (qırmızı geyinənlər) deyirdilər. Məlumdur ki, ideoloji baxımdan xürrəmilər atəşpərəstliyi bərpa etməyə can atdıqlarından qıpmızı rəngi öz rəmzləri kimi seçmişdilər. Bununla belə, qırmızı rəngi Azərbaycanda sırf atəşpərəstlik və ya mübarizə rəngi kimi qəbul etmək doğru olmazdı. Belə ki, miniatürlər, tikmələr və xalçalara diqqət yetirəndə aydın olur ki, Azərbaycanda ən sevimli rənglərdən biri olan qırmızı rəng gözəllik rəmzi kimi qəbul olunurdu. Təsadüfü deyildir ki, qadınlar saçlarına qırmızının çalarları rəngində olan xına qoyur, göz-qaşlarına sürmə çəkirdilər. XX əsrin 40-50-ci illərinədək Azərbaycanda gəlin paltarı qırmızı rəngdə idi və bir çox regionlarda bu ənənəyə indiyədək əməl olunur.

Yaşıl rəng Azərbaycanda xeyir və eyni zamanda islam rəngi kimi qəbul olunurdu. Təbiətin əsrarəngiz gözəlliklərini bildirən bu rəng çalarlar baxımından ən zəngin rənglərdəndir. İstər mili qadın paltarlarında, istərsə də XVIII əsr Azərbaycan xanlıqlarının bayraqlarında yaşıl rəngdən geniş istifadə olunmuşdur. Azərbaycanda sovet hakimiyyəti qurulanda və milli üçrəngli bayraq ləğv ediləndə onun iki rəngi - qırmızı və göy rənglər saxlanılmış, yaşıl rəng isə ləğv

[113] - Иванов К.А. Флаги государств мира, стр.4
[114] - Там же, с.5.
[115] - Похлебкин В.В. Международная символика и эмблематика. М.,1994, стр.236
[116] - Dövlət bayrağının rənglərinin mənaları haqqında məlumat növbəti paraqrafda verilir.





olunmuşdur. Bu onunla bağlı idi ki, XIX əsrin sonlarından əhali yaşıl rəngi birmənalı olaraq islam dini rəngi kimi qəbul edirdi və islamla mübarizə aparan sovet ideoloqları bu rəngi bayraqdan çıxarmışdılar.

Tarixən səmavilik bildirən göy rəng türkçülüyün rəmzi kimi qəbul olunurdu. Qədim türk xalqlarında səmaya və səma tanrılarına olan inanclar onlara Göy türklər, Səma türkləri adını gətirmişdir.

Ağ rəng təmizlik, paklıq rəmzi sayılırdı. Yuxarıda göstərilmişdir ki, Ağqoyunlu hökmdarı Uzun Həsənin və Səfəvi dövlətinin banisi I Şah Ismayılın bayraqları ağ rəngə idi.

Bir çox xalqlarda ayrı-ayrılıqda qırmızı, yaşıl, göy rənglərdən istifadəni görmək mümkündür. Lakin bu üç rəngin birlikdə, üstəlik bəzi hallarda ağ elementlərlə bəzədilmiş şəkildə istifadə edilməsi tarixən Azərbaycan xalqı ilə bağlı olmuşdur. Bunu Azərbaycan ustaları tərəfindən düzəldilmiş və dövrümüzə qədər gəlib çatmış bir çox tarixi əşyaların rəngləri təsdiqləyir.

Moskvanın Dövlət Silah Palatasında Azərbaycan ustaları tərəfindən düzəldilmiş və hökmdarlara məxsus olmuş bir neçə silah təkcə ustaların yüksək peşəkarlığının nümunəsi kimi deyil, heraldik əşya kimi də maraq doğurur. İlk növbədə XVI əsrdə Azərbaycanda düzəldilmiş və Səfəvi hökmdarı I Şah İsmayıla məxsus olması ehtimal edilən dəbilqəyə diqqət yetirək[117] **(şəkil 63)**. Polad dəbilqə üzərinə qızıl lövhələr bərkidilmiş, onların üzərində isə ləl və firuzə daşları





**Şəkil 63. Dəbilqə, XVI əsr (Səfəvi hökmdarı I Şah İsmayıla məxsus olması ehtimal edilir), Dövlət Silah Palatası, Moskva.**

**Şəkil 64. Dəbilqənin fraqmenti.**

[117] - Государева Оружейная Палата. С-Пб., 2002, с.46-48.







Şəkil 65. Qalxan, XVI əsr, Dövlət Silah Palatası, Moskva.

Şəkil 66. Qalxan fraqmenti.

Şəkil 67. Qalxan fraqmenti.

bərkidilmişdir. Maraqlıdır ki, ustalar hər qızıl kartuşun daxilində 7 daş bərkitmişdilər: mərkəzdə yaşıl, ətrafında üç qırmızı və üç göy **(şəkil 64)**. "7" rəqəmi Azərbaycanda hər zamanlar müqəddəs rəqəm kimi qəbul edilmişdir.

Moskvanın Dövlət Silah Palatasında qorunan və XVI əsrdə Şamaxıda düzəldilən məşhur qalxanın üzərində də oxşar rənglərdə bərkidilmiş daşları görürük[118] **(şəkil 65)**.

Polad qalxanın (diametr 48,8 sm) səthi qızıl ilə işlənilib, üzərində olan 52 zolaqda Nizami Gəncəvinin poemalarının personajları təsvir olunub, mərkəzdə və haşiyədə isə ləl, firuzə, mirvarilər bərkidilib. Mərkəzi kartuşda daşlar elə bərkidilibdir ki, ortada qırmızı, onun ətrafında isə göy, yaşıl, ağ rəngli daşlar səpələnib **(şəkil 66)**. Haşiyə boyunca qırmızı, göy və yaşıl daşlar bərkidiliblər **(şəkil 67)**.

Şəkil 68. Qalxan, XVII əsr, Dövlət Silah Palatası, Moskva.

Şəkil 69. Qalxan fraqmenti.





[118] - Там же, с. 126.









Şəkil 70. Toppuz, XVII əsr, Dövlət Silah Palatası, Moskva.

Şəkil 71. Toppuz fraqmenti.

XVII əsrə aid olan və Təbriz ustaları tərəfindən düzəldilən gön qalxanda da eynirəngləri görmək olar[119] **(şəkil 68)**. Qara qalın göndən hazırlanan bu qalxan (diametr 55,5 sm) Səfəvi şahı II Abbas tərəfindən Rusiya çarı Mixail Fyodoroviçə hədiyyə olunmuşdur. Qalxanın mərkəzində bərkidilən kartuş üzərində



Şəkil 72. Taxt, XVI əsr, Dövlət Silah Palatası, Moskva.





Şəkil 73. Qolçaq, XVI əsr, Dövlət Silah Palatası, Moskva.

Şəkil 74. Qolçaq fraqmenti.

[119] - Там же, с. 136

Şəkil 75. Sinəbənd, XIX əsr, MATM.

Şəkil 76. Sinəbənd, XIX əsr, MATM.

Şəkil 77. Sinəbənd, XIX əsr, MATM.







mərkəzdə yaşıl zümrüd, ətrafında isə qırmızı ləl və göy firuzələr, həmçinin ağ mirvarilər yerləşdirilmişdir **(şəkil 69)**.

Hakimiyyət rəmzi olan və XVII əsrə aid edilən toppuz üzərində eyni daşların seçildiyini görürük[120] **(şəkil 70)**. Qızıl ilə örtülmüş polad toppuzun kartuşlarında mərkəzdə qırmızı, ətraflarında isə göy və yaşıl daşlar bərkidilib **(şəkil 71)**.

Səfəvi şahlarının Moskva çarlarına daha bir hədiyyəsi - knyaz Boris Qodunova hədiyyə olunmuş taxt da Moskvanın Dövlət Silah Palatasında qorunur **(şəkil 72)**. XVI əsrə aid olan və Təbriz ustaları tərəfindən düzəldilən taxtın aşağı hissəsi qızıl lövhələrlə örtülüb. Digər əşyalarda olduğu kimi, burada da nəbati ornamentlər üzərində mərkəzdə qırmızı, ətraflarında isə göy və yaşıl daşlar bərkidiliblər.

Dövlət Silah Palatasında qorunan və XVI əsrə aid edilən qolçaqlar üzərində də qızıl lövhə üzərində qırmızı (mərkəzdə), yaşıl və göy daşları görmək mümkündür[121] **(şəkil 73-74)**.

Milli Azərbaycan Tarixi Muzeyində qorunan Azərbaycan ustaları tərəfindən düzəldilmiş bir çox əşyalar üzərində olan ornamentlərdə qırmızı, göy və yaşıl rənglər-

Şəkil 78. Sırğa dəsti, XIX əsr, MATM.

Şəkil 79. Sancaq, XIX əsr, MATM.

Şəkil 80. Kəmər, XIX əsr, MATM.







[120] - Там же, с. 140.
[121] - Там же, с. 56.



AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT BAYRAĞI







Şəkil 81. Köynək yaxalığı, XIX əsr, MATM.

Şəkil 82. Qəbir daşı, XIX əsr, Abşeron.

Şəkil 83 "İsmailiyyə" binasında daxili eyvan (hal-hazırda AMEA Rəyasət Heyətinin binası).

dən istifadə edilməsini görmək mümkündür. Belə ki, ən çox bu rənglərə zinət əşyaları üzərində rast gəlinir. Əsasən XVIII-XIX əsrlərə aid olan sinəbəndlər, sırğalar, kəmərlər üzərində qırmızı, göy və yaşıl rənglərdə olan daşlardan istfadə olunub. Bir sinəbənd üzərində mərkəzdə qırmızı, ətrafında 2 yaşıl və bir göy **(şəkil 75)**, digərində mərkəzdə yaşıl, ətrafında 2 qırmızı və bir göy daş **(şəkil 76)** bərkidilibdir. Başqa bir sinəbəndin asılma hissəsində bir yaşıl və iki qırmızı, üst hissəsində isə bir göy daş bərkidilibdir **(şəkil 77)**. Muzeydə qorunan sırğa dəsti üzərində iki göy, bir yaşıl və bir qırmızı daş bərkibilmişdir **(şəkil 78)**. Nadir əşyalardan olan sancaq üzərində mərkəzdə iri qırmızı, ətrafında göy, nəhayət haşiyə hissəsində yaşıl daşlar bərkidiliblər **(şəkil 79)**. Muzeyin zinət əşyalarına aid edilən gümüş kəmər üzərində qırmızı, göy və yaşıl emallardan istifadə edilməklə unikal naxışlar yaradılıb **(şəkil 80)**.

Oxşar rənglərdən istifadəni Milli Azərbaycan Tarixi Muzeyində qorunan tikmələrdə də görmək mümkündür. Belə ki, XIX əsrə aid köynəyin yaxasındakı naxışlar göy, qırmızı və yaşıl rənglərdədir **(şəkil 81)**.

Azərbaycan memarlığı və hətta qəbir daşlarında da göy, qırmızı və yaşıl rənglərdən istifadəni müşahidə etmək olar. Belə ki, bir çox XVIII-XIX əsr şaquli qəbir daşlarının üst tərəfində rəmzlər məhz bu rənglərdədirlər **(şəkil 82)**. Şəkildə göstərilən başdaşında qoç fiqurlarının təsviri də maraq doğurur. Bakıda İsmailiyyə binası kimi tanınan XX əsrin əvvəllərinə aid nadir memarlıq abidəsinin bəzi otaqlarında eyvanlar üzərindəki naxışlar göy, qırmızı və yaşıl rənglərlə verilib **(şəkil 83)**.

Beləliklə, yuxarıda göstərilən misallar sübut edirlər ki, Azərbaycanın Dövlət bayrağı üzərində olan rənglər heç də təsadüfən seçilməmişdir, onlardan Azərbaycanda istifadə olunmasının tarixi ənənələri dərindir.



# BAYRAQLAR ÜZƏRİNDƏ OLAN RƏMZLƏRİN TƏSNİFATI. ŞƏRQDƏ AYPARA VƏ SƏKKİZGUŞƏLİ ULDUZ TƏSVİRLƏRİ

Bayraqlar üzərində təkcə rənglər deyil, heraldik fiqurlar da təsvir olunur. Heraldik fiqurlar aşağıdakı qruplara bölünür: həndəsi fiqurlar, insan fiqurları, heyvan fiqurları, heraldik quşlar, balıqlar, bitkilər, əfsanəvi heyvan fiqurları, cansız fiqurlar, "danışan fiqurlar". Həndəsi fiqurlar öz növbəsində fəxri və sadə fiqurlara bölünür. Fəxri fiqurlara baş, sütun, kəmər, çiyinlik (sağ və ya sol), çatı aiddir. Onların birləşməsi müxtəlif formalı digər fəxri heraldik fiqurları ərsəyə gətirir. Misal üçün, sağ çiyinliyin sol çiyinliklə kəsişməsi çəpinə xaç fiquru yaradır. Sadə həndəsi fiqurlar nisbətən az rast gəlinən fiqurlar hesab olunur. Onların sırasına romb, qont (uzun dördbucaq), haşiyə, barmaqlıqvari toxunma, halqa və s. aiddir. Fiqurların sayı *bayraq üzərində müxtəlif olur və hər bir fiqur müəyyən məlumat daşıyıcısıdır.* Misal üçün, üzərində dalğavari naxış olan halqa "bulaq", "su" işarəsini bildirir. Bayraqlar üzərində insan fiqurları az təsvir edilir, əsasən insan bədəninin müxtəlif üzvlərinin təsvirlərini görmək mümkündür: ürək, əl, ayaq, baş təsvirləri. Heraldik heyvan fiqurları sırasında şir (60-a yaxın müxtəlif formalarda), bəbir, öküz qorxmazlıq, rəşadət bildirirlərsə, digər rəmzlər yerli faunanı və ya hər hansısa bir rəvayətə işarə verir. Bayraqlarda bütöv heyvan fiqurunun təsvirindən başqa heyvan bədəninin hissələrinin təsvirlərinə rast gəlmək olar (maral buynuzları, ayı caynaqları, qurd dişləri). Vəhşi heyvanlarla bərabər müxtəlif ev heyvanlarının təsvirlərinə də *rast gəlmək mümkündür.* Heraldik quş fiqurları sırasında ən çox qartal təsvirlərinə rast gəlmək olur. Qartal müxtəlif formalarda, rənglərdə, fantastik (ikibaşlı) formalarda ola bilər. Digər quşlar sırasında bayquş, hacıleylək, sona, qaranquş təsvirlərini göstərmək olar. Heraldik güllər sırasında sirr və tapmaca rəmzi olan qızılgül təsvirinə çox yer ayrılırdı. Əgər qızılgül İngiltərə kral ailəsinin rəmzidirsə, su zambağı Fransa kral ailəsinin gerbində təsvir olunub. Digər müxtəlif heraldik bitkilər ola bilər: Madaqaskar Respublikasının palma təsvirindən başlamış, Plodaniel (Fransa) şəhərinin kartof çiçəyi rəmzinədək.

Bayraqlarda rast gəlinən əfsanəvi fiqurlar sırasında ən çox əjdaha təsvirlərini görmək mümkündür. Bir çox hallarda fantastik heyvanın təsviri adi, real

heyvana hansısa əlavə ünsürlər bitişdirməklə "əldə olunurdu". Misal üçün, şir fiquruna qartalın başı və qanadlarını əlavə etməklə fantastik"qrifon" fiquru, və ya at fiquruna buynuz əlavə etməklə "təkbuynuz" fiqur "əldə etmək" mümkün olmuşdur. Həmçinin fantastik rəmzlər kimi su pərisi, simurq quşu və s. göstərilə bilərlər. Cansız heraldik fiqurlara gəldikdə bayraqlarda ən çox müxtəlif əşyaların təsvirlərini görmək mümkündür. Sen-Jermen an-Lay (Fransa) şəhərinin gerbində uşaq beşiyi, Sarkot ailəsinin gerbində quş damı, Klaydebank (İsveç) şəhərinin gerbində tikiş maşını, Abarka ailəsinin gerbində kəndli çarıqları, Koprovinçe (Çexiya) şəhərinin gerbində avtomobil təsvirləri sübut edirlər ki, heraldikada cansız heraldik fiqurların seçilməsində məhdudiyyət yoxdur. Heraldik fiqurlar sırasında ən çox paltar və geyim aksesuarları, binalar, peşəni bildirən alətlər, nəqliyyat vasitələri və oyunların (misal üçün, Peqrez ailəsinin gerbində üç ədəd nərd taxtası) atributları təsvir olunur.

"Danışan fiqurlar" kateqoriyasına elə fiqurlar aid edilir ki, onlar bayraq sahibi barəsində dəqiq məlumat verirlər. Misal üçün, Tremeyn şəhərinin gerbində 3 insan ayağı təsvir edilib (hərfi tərcümədə "Tremeyn" "3 ayaq" deməkdir), Rotenxyet (tərcümədə - "Qırmızı papaq") ailəsinin gerbində qırmızı papaq, Svinxuvud (hərfi tərcümədə - "donuz başı") (Isveç) şəhərinin gerbində donuz başı, Rånt (tərcümədə - "turp") ailəsinin gerbində turp təsvir edilib.

Bəşəriyyətin mədəni-tarixi təcrübəsini simvolsuz təsəvvür etmək mümkün deyil. Simvollar daha çox qlobal universalizmə ehtiyac olan sahələrdə, məsələn, din, dövlət quruculuğu sahələrində istifadə olunur. Simvoldan adətən, rasional əhəmiyyəti çox qısa şəkildə bildirməyə ehtiyac olan zaman istifadə edilir. Qədimdən xalqların düşüncə tərzi rasional-məntiqi deyil, obraz-simvolik şəkildə idi. Belə təsəvvür var idi ki, "mikrokosm makrokosma bərabərdir", yəni böyük anlayışların kiçik təzahürü vardır. Misal üçün, Qədim Misirdə skarabey böcəyi Günəşin rəmzi hesab olunurdu. Beləliklə, Günəşə olan ehtiramı göstərmək üçün skarabey böcəyinə sitayiş edilirdi. Hesab olunurdu ki, skarabeyin (simvolun) Günəşlə bağlı olan daxili varlığı var. Eyni prinsip dünyanın digər ərazilərində də mövcud idi. Hər tayfa onu himayə edən heyvana sitayiş edirdi. Həmin heyvanın təsviri tayfa başçıları və kahinlərdə olurdu. Tədricən belə təsvirlər ümumi rəmz rolunu oynamağa başlayır.

Simvollar ayrı-ayrı və ya hansısa kombinasiyalarda mövcud olurdu. Bu kombinasiyalar müvəqqəti və ya daimi xarakter daşıyırdı. Simvollar elə abstrakt anlayışları bildirirdi ki, onları sözlərlə izah etmək çətindir. Bir çox simvollar öz əhəmiyyətinə görə beynəlxalqdır və universal hesab olunurlar, misal üçün, riyaziyyat işarələri və ya yol hərəkət nişanları. Milli bayraqlar və onların üzərində olan təsvirlər tarixən bir qoşunu və ya bir dövləti digərindən fərqləndimək üçün tərtib edildiyindən onların mənaları fərqlənirdilər.





Simvolların öyrənilməsi ilə təkcə heraldika deyil, təbiətdə və cəmiyyətdə işarə sistemləri haqqında elm - semiotika, məşğul olur.[122] Heraldikadan fərqli olaraq semiotika linqvistikadan (linqvistika ən kamil işarə sistemi olan dili araşdırır) başlayaraq kibernetikayadək (kibernetika canlı orqanizmlərdə, təbiətdə və cəmiyyətdə mövcud olan əlaqələrin dinamik tərəfini öyrənir) bütün işarə sistemlərini öyrənir.

Bayraqlar müəyyən işarə sistemidir, çünki onlar müəyyən informasiyasını toplayıb, gələcək nəsillərə çatdırmaq üçün bir vasitədir.[123] Dövlətlərdə daxili və xarici siyasətdə baş verən dəyişikliklər dövlətin siyasi yönümü və ideologiyasında dəyişikliklərə səbəb olur, bu isə bayraqların dəyişdirilməsinə gətirib çıxarır. Bəzən simvollar mənasını itirir və ya tam başqa məna kəsb etməyə başlayır. Nəticədə müasir dövrə gəlib çatmamış simvolların köklərini və əsl tarixi mənbələrini tapmaq çətin olur.

Bir çox xalqlarda simvollar oxşar mənalar kəsb edirlər. Şir - güc, qüvvət, igidlik, hakimiyyət; bəbir - mətnlik, rəşadət; öküz - bərəkət, inkişaf, güc; qartal - uzaqgörənlik, hakimiyyət; qarğa - müdriklik, uzunömürlük; palıd - möhkəm iradə, şərəf; dəfnə - şan, şöhrət; günəş - var-dövlət, bolluq, firavanlıq rəmzləridir və s.

Qeyd etmək lazımdır ki, geniş ictimaiyyətdə (hətta emblematika ilə daim üzləşən peşəkarlarda da - jurnalistlər, hüquqşünaslar, rəssamlar, müəllimlər və s.) heraldik rəmzlər və emblərin sistemi, mənası, oxşar və fərqli cəhətləri barəsində dəqiq və konkret təsəvvürlər azdır.

Sözün geniş mənasında heraldika rəmz və emblemləri öyrənən bütün sahələri birləşdirir. Bu baxımdan rəmz və emblem anlayışlarının təriflərinin müəyyən edilməsi vacibdir. Bu anlayışlar nə forma, nə "tarixi dəyəri", nə də əhəmiyyəti baxımdan bərabər deyil, halbuki, publisistikada, hətta elmi ədəbiyyatda bu anlayışların sinonim kimi işlədilməsinə rast gəlmək mümkündür.

1. Rəmz və emblemlər müvəqqəti (epizodik, təsadüfi) və daimi (sabit, ənənəvi) kompleks xarakteri daşıyırlar. Bu və ya digər tədbirlərlə bağlı olan nişanlarda müvəqqəti, möhür, pul vahidləri, dövlət sənədləri, hərbi seçilmə nişanlarında daimi, dövlət gerbləri üzərində ənənəvi rəmz və emblem komplekslərinə rast gəlinir.[124] Rəmz və emblemlər real əşyaların və ya abstrakt obrazların

[122] - Степанов Ю.С. Семиотика, с.3.
[123] - Виллинбахов Г.Б. Русские знамена, с.17
[124] - Похлебкин В.В. Международная символика, с.5

təsvirlərindən ibarətdir. Eyni rəmz və emblemlər müxtəlif formalarda birləşdirildikdə ayrı-ayrı məna kəsb edir, bu zaman onların əsas, fundamental mənası dəyişməz qalır. Heraldik emblem və rəmzlərin ayrı-ayrılıqda və kompleks şəkildə mənaları öyrənilərsə istənilən gerb, orden və s. mənasını izah etmək mümkündür.

2. Nəzərə almaq lazımdır ki, rəmz, rəmzi işarə və emblem anlayışları ideologiyaya aid olan fəlsəfi kateqoriyalar kimi də qiymətləndirilir.[125]

Rəmz - qədim dövrlərdən mövcud olub planetlər, ulduzlar, od, torpaq, hava, külək, insan, onun həyatı, ölümünü və s. təsvir edən və əsasında sadə həndəsi fiqurlar (xətt, nöqtə, üçbucaq, dairə və s.) dayanan şərti işarələrdir. Bəşəriyyətin inkişafı yeni-yeni rəmzlər meydana gətirmişdir: riyazi rəmzlər, astronomik rəmzlər, musiqi rəmzləri (notlar) və s. Daim yeniləşən rəmzlər sırasında coğrafi rəmzləri (topoqrafik işarələr) də göstərmək olar.

Beləliklə, rəmz - şərti işarə vasitəsilə insanın biliklərini abstrakt şəkildə saxlayan və göstərən formadır. İnsanların ünsiyyətində rəmzlərin olduqca böyük əhəmiyyəti var, çünki dünyada mövcud olan minlərlə dillərin hamısını öyrənmək qeyri mümkündür. Beynəlxalq rəmzləri öyrənməklə isə ünsiyyət yaratmaq mümkün olur.

Qeyd etmək lazımdır ki, bir çox müasir müəlliflər "rəmz" və "rəmzi işarə" anlayışlarını səhvən eyniləşdirirlər. Unudulur ki, rəmz ümumi məna kəsb etdiyi halda rəmzi işarə konkret obyekti işarə edir. Başqa sözlə desək, Eyfel qülləsi Parisin rəmzi deyil, onun rəmzi işarəsidir. Qüllənin aradan qaldırılması (misal üçün, uçurulması) Parisin məhv olması demək deyil (halbuki, rəmz anlayışından istifadə edilərkən daimi ikitərəfli əlaqə nəzərdə tutulur). Vaxtilə Parisin rəmzi işarəsi kimi Luvr, ondan əvvəl isə Notr-Dam kilsəsi çıxış etmişdir, bəlkə də zaman keçəcək və şəhərin yeni işarəsi yaradılacaq. Bir daha qeyd edək ki, rəmz hamı tərəfindən qəbul edilən daimi işarə, rəmzi işarə isə müəyyən obyektə aid olan anlayışdır. Belə ki, hər hansısa bir nişanda qaya təsvir edilərkən istər Amerika, istər Asiya və ya Avropa sakini "qaya kimi mətin, möhtəşəm, möhkəm" ifadəsinin nəzərdə tutulmasını anlayırlar. Burada "qaya" mətinlik, möhtəşəmlik, möhkəmlik rəmzidir.

Rəmzdən fərqli olaraq emblem - təsviri formada verilmiş ideyadır. Başqa sözlə desək, emblem - elə bir təsvirdir ki, burada beynəlxalq aləm, ölkə, xalq, tayfa, nəslin və s. insan birliyinin yaratdığı bir ideya əks olunub.[126] Belə ki, bütün dünyada günəş - işıq, həyat, xoşbəxtlik ideyasının təcəssümü kimi qəbul edilir. Bəzən elə olur ki bir xalqda, regionda bir ideyanı təcəssüm edən emblem

[125] - Проншотейн А.П., Кияшко В.Я. Вспомогательные исторические дисциплины. М., 1973, s.3
[126] - Похлебкин В.В. Международная символика, М., с.8





digər regionda tamam başqa ideyanı təcəssüm edir. Misal üçün, Asiyada müdrüklik nişanəsi sayılan ilan təsviri Latın Amerikasında və Avropanın katolik ölkələrində şər və hiyləgərlik işarəsidir. "Emblem" terminină aşağıdakı formada tərif verilir: "Emblem - istənilən maddi daşıyıcı üzərində qrafik formada şərti olaraq əks olunmuş bir ideya və ya ideyaların cəmidir".[127]

Rəmzlərlə emblemlərin fərqlərinə gəldikdə qeyd etmək lazımdır ki, rəmz sözlə çətin ifadə edilən abstrakt anlayışı bildirir. Anlayışların çoxşaxəliyi və çətin ifa edilməsi müəyyən rəmz axtarmağa vadar edir. Misal üçün, xaç təsviri xristianlığın rəmzi, aypara isə islamın rəmzi kimi qəbul edilir. Emblem isə müəyyən ideyanı bildirir və bəzən rəmzlə tərs mütənasiblik təşkil edir. Uzunqulaq (eşşək) bir tərəfdən axmaqlıq, tərslik ifa edir, lakin ABŞ-da demokratlar partiyasının emblemi kimi qəbul olunur. Çox vaxt emblem bir neçə rəmzin birləşməsindən əmələ gətirilir, halbuki, heç bir rəmz emblemlərdən tərtib edilmir. Rəmzlərin daha qədim və universal olduğundan onların mənalarının, tarixlərinin öyrənilməsi çətinlik yaradır. Emblem isə nə qədər fantastik və mürəkkəb olursa olsun, əksər hallarda açılır və izah edilir.

Azərbaycan Respublikasının Dövlət bayrağında aypara və səkkizgüşəli ulduz təsvir olunmuşdur. Bu təsvirlərin rəmz kimi böyük tarixi keçmişləri vardır.

Hələ qədim dövrlərdə Günəş təkcə isti və işığın mənbəyi kimi deyil, həm də bir çox xalqlarda dünyanın yaranması ilə bağlı əsatirlərin "baş qəhrəmanı" kimi rəmzə çevrilmişdir. Günəşin ilk təsvir formalarından biri buynuzlu heyvan təsvirləridir. Belə ki, Qahirə Muzeyində (Misir) qorunan "Narmer lövhəsi"ndə fironun başı üzərində 2 öküz təsviri var. Həmin lövhənin arxa tərəfində firon (inanclara görə, Günəş tanrısının oğlu) düşmən qalasını dağıdan öküz şəklində verilib. Bu lövhədə həmçinin ştandart daşıyan döyüşçülər görmək mümkündür **(şəkil 84)**. Qədim Misirdə incəsənət və sənət ustalarının himayəçisi Ptax adlı tanrı hesab olunurdu. Ptaxın Yer üzündəki nümayəndəsi müqəddəs öküz - Apis idi. Kahinlər bütün ölkəni gəzir və 28 şərtə cavab verən öküz seçərək onu Apis elan edirdilər. Təntənəli mərasim bir həftə davam edirdi. Maraqlıdır ki, Apis tanrısının təsvirində onun buynuzları mütləq aypara şəklində göstərilirdi **(şəkil 85)**. Misirdə qədim Qierakonpol şəhərində müəyyən edilmiş bir divar rəsmində qayıq üzərində təsvir edilmiş öküz günəşi tərənnüm edir.[128]

Qədim Mesopotamiyada yaradılmış "Qilqameş" dastanında baş qəhrəman olan Qilqameşin adlarından biri "vəhşi öküz"dür. Mesopotomiyanın Suzı şəhəri ərazisində tapılmış keramik qab üzərində buynuzları aypara şəklində əyilmiş



Şəkil 84. Firon Narmer düşmən qalasını dağıdan öküz şəklində. "Narmer lövhəsi", Qahirə Muzeyi, Misir (D. Rola əsasən).



Şəkil 85. Apis (müqəddəs öküz). Qədim Misir divarüstü təsviri. Apisin buynuzları aypara şəklində təsvir edilib.

[127] - Каменцева Е.И., Устюгов Н.В. Русская сфрагистика и геральдика. М.,1974, с.5
[128] - Рол Девид. Генезис цивилизации. Откуда мы произошли. М., 2003, sək.510



Şəkil 86. Keramik qab üzərində buynuzları aypara şəklində əyilmiş keçi təsviri. Suzı şəhəri, Mesopotomiya, e.ə. I min. Luvr muzeyi (D. Rola əsasən).

keçi təsviri verilmişdir.[129] Maraqlıdır ki, buynuzların daxilində günəş təsviri var **(şəkil 86)**.

Tədqiqatçıların fikrincə, keramika üzərindəki ornamentlər ənənəvi dini təsəvvürlərlə bağlıdır.[130] Freyburq Universitetinin kolleksiyasında şumerlərin Ea adlı tanrısının təsviri olan möhür qorunur. Tanrı və onu əhatə edən köməkçilərin baş geyimlərindəki öküz buynuzları eyni zamanda ayparanı xatırladır və eyni aypara tanrının başı üzərində təsvir olunub.[131]

Assuriya dövlətinə aid bir silindrik möhür üzərində buynuzlu dəbilqə geyinmiş insan (onun yanında olan heroqlif "güclü" mənasını verir) və taxtda oturan Ay Tanrısı Sinu təsvir olunub (Sinunun başı üzərində onun rəmzi - dəyirmi halqada rombvari təsvir var).[132] Qədim Assuriyada ştandart hökmdarın olduğu bina üzərində və ya onun arabasında qurulurdu. Arxeoloqlar daha çox iki öküz şəkli olan ştandartları aşkar etmişlər.

Türkmənistandan Hindistana qədər olan ərazilərdə öküzə və İlahi Anaya sitayişi göstərən öküz və qadın heykəlləri tapılıb, Hindistanda isə sitayişlər obyektləri birləşmiş və İlahi Ana öküzün belində təsvir edilirdi.[133]

Şimali Qafqazın Maykop kurqanında qazıntılar zamanı e.ə. III minilliyin sonu - e.ə.II minilliyin əvvəllərinə aid qızıl öküz fiquru tapılmışdır. Öküzün buynuzları iri aypara şəklində düzəldilmişdir. Həmin kurqanda üzərində öküz və keçilər təsvir olunan gümüş qab aşkarlanmışdır.[134]

Qədim gil qablar əsasən, arxeoloqların və maddi mədəniyyət tarixçilərinin diqqət obyekti olmuşdur. Lakin son dövrlərdə gil qablar mədəni rəmzlər kimi öyrənilməyə başlanmışdır.[135] Belə ki, qabların forması, həmçinin onların üzərində olan təsvirlər təkcə dekorativ element kimi deyil, mifoloji təsəvvürlərin inikası kimi qəbul olunmuşdur. Bir çox gil qablar (küp, qazan, badə və s.) antropomorf (insanabənzər) və ya zoomorf (heyvanabənzər) şəkildə düzəldilirdi. Zoomorf qablar sırasında əsasən buynuzlu heyvanların təsviri olan qablar üstünlük təşkil edir. Bir çox mədəniyyətlərdə öküz təsviri olan gil qablar düzəldilməsi ənənə halını almışdır.

Zərdüştlük dinində odla bərabər Qanş-Urvan da (öküz ruhu) əsas sitayiş obyektlərindən biri idi.

[129] - Рол Д., şək.143
[130] - Виноградов А.Б. Тысячелетия, погребенные пустыней. М.,1966, стр.29.
[131] - Рол Д., şək.204
[132] - Рол Д., şək.230
[133] - Санкалийа Х.Д. Некоторые связи между энеолитом Инамгаона в Махараштре и Алтын-Депе Южной Туркмении//Древние культуры Средней Азии и Индии. Л., 1984, стр.81
[134] - Федюшина И. Первые художники и скульпторы. М., 1971, стр.37, 38.
[135] - Антонова Е.Б. К исследованию места сосудов в картине мира первобытных земледельцев/ Восточный Туркестан и Средняя Азия в системе культур древнего и средневекового Востока. М. 1986, стр.35-65.





Aralıq Dənizinin şərq sahillərində öküz və şir Günəş simvolları sayılırdı.[136] Qədim Şərq ənənəsinə görə, Makedoniyalı İsgəndərin güclü hökmdar olmasını bildirmək üçün onu qoç buynuzları olan dəbilqədə təsvir edirdilər **(şəkil 87)**.

Şimal tayfalarında daha çox öküz deyil, maral günəş rəmzi kimi qəbul olunurdu. Təsadüfi deyildir ki, maral təsvirləri "günəş maralları" termini ilə bildirilir. "Günəş maralları"na sitayiş skif tayfalarında da mövcud olmuşdur[137] **(şəkil 88)**.

Bir çox hallarda Qədim Şərq mənbələrində buynuzlu heyvan və günəş təsvirinə birlikdə rast gəlmək olar. Qeyd etmək lazımdır ki, bu ənənə ümumiyyətlə Şərqdə geniş yayılmışdır. Belə ki, Qədim Finikiyada (hal-hazırda Fələstin və İsrail əraziləri) aşkar edilmiş lövhə üzərində qanadlı öküz və günəş təsviri var[138] **(şəkil 89)**.



Şəkil 89. Daş lövhə üzərində öküz və günəş təsviri. Finikiya (D.Xardena əsasən).

Akkad dövrü möhürü üzərində insan-öküz təsviri, həmçinin ulduzlu öküz təsviri verilmişdir. Tədqiqatçıların fikrincə, öküzün qarşısında 8-guşəli ulduzun *olması onun səma öküzü olmasını göstərir*[139] **(şəkil 90)**. Maraqlıdır ki, qədim Şumerlərdə "Tanrı" sözü Şumer dilində "dingir", Akkad dilində "ilu" termini ilə bildirilir və mixi yazılarında səkkizguşəli ulduz şəklində verilirdi[140] **(şəkil 91)**.

Sonralar Qədim Misir, Xett dövləti, Urartu dövləti, Assuriya dövləti, Əhəməni dövlətində günəşi təsvir etmək üçün vahid rəmz tərtib edilmişdir. Bu günəş rəmzi quş qanadları olan diskdən ibarət idi[141] **(şəkil 92-93)**.





Şəkil 87. Gümüş sikkə üzərində Makedoniyalı İskəndərin təsviri (Bahreyn Milli Muzeyi; D. Rola əsasən).

Şəkil 88. Buynuzları günəş şəklində düzəldilmiş maral fiquru. Skif mədəniyyəti. Dövlət Ermitajı (Sankt-Peterburq).

[136] - Соколова, стр.153
[137] - Окладников А.П., Васильевский Р.С.Северная Азия на заре истории. Новосибирск, 1980, с.140
[138] - Харден Доналд. Финикийцы. Основатели Карфагена. М., 2004, 263с, рис.69; Рол Девид. Генезис цивилизации. Откуда мы произошли. М., 2003, стр.69-72.
[139] - Рол Д., şək.187
[140] - Там же, şək.223
[141] - Там же, şək.511; Xarden D., şək. 34-92



Şəkil 90. Divarüstü lövhədə səma öküzünün təsviri. Mesopotamiya (D.Rola əsasən).



Şəkil 91. "Tanrı" sözünün yazılışı: yuxarıda şumer əlifbası ilə, aşağıda - akkad əlifbası ilə (D. Rola əsasən).

Tarixi mənbələr göstərir ki, rəmzlər artıq xüsusi ştandart və bayraqlar üzərində təsvir olunurdu. Hal-hazırda Luvrda qorunan bir daş lövhə üzərində döyüşçülər arasında əlində ştandart tutan döyuşçü təsvir edilmişdir. Ştandartın ucluğu aypara daxilində olan quş şəklindədir[142] **(şəkil 94)**.

Bəhreyn Arxipelaqına daxil olan adalarda arxeoloji qazıntılar zamanı ayparanın hakimiyyət rəmzi kimi ştandartlara bərkidilməsindən xəbər verən bir çox möhürlər aşkar edilmişdir. Tədqiqatçıların fikrincə, bu Sina ştandartının təsviridir[143] **(şəkil 95)**.

İstanbul Arxeologiya Muzeyində Assuriya çarı Tikulti-Ninurtaya aid daş lövhə qorunur. Lövhə üzərində verilən təsvirdən aydın olur ki, çarın hakimiyyət rəmzi sap üzərinə taxılmış günəş rəmzi (araba təkərini xatırladan halqa və daxilində 8 guşəli ulduz) və ona bağlanmış iki lentdən ibarət olmuşdur.

Rəmzlərdə tədricən transformasiya baş verir: günəşi təsvir etmək üçün ulduz, ayı təsvir etmək üçün aypara şəkli istifadə olunmağa başlayır. Belə ki, Qədim Misirdə Qor Günəş tanrısının rəmzlərindən biri quyruğu aypara şəklində əyilmiş əqrəb və aypara üzərində oturan şahin quşu idi[144] **(şəkil 96)**. Döyüşçü

Şəkil 92. Qədim Misir divar rəsmlərində qanadlı günəş təsviri.



Şəkil 93. Əhəməni dövlətinə aid divar rəsmlərində qanadlı günəş təsviri (D.Rola əsasən).



[142] - Там же, şək.31
[143] - Там же, şək.266
[144] - Там же, şək.338







Şəkil 94. Ucluğu quş şəklində olan ştandart tutan döyuşçü təsviri. Qədim Misir. Luvr (D.Rola əsasən).



Şəkil 95. Ştandarta bərkidilmiş aypara və ulduz. Bəhreyn (D. Rola əsasən).



Şəkil 96. Qədim Misir divarüstü təsvirində aypara üzərində oturmuş günəş rəmzi - şahin (D.Rola əsasən).

ştandartlarında şahin quşu şaquli aypara daxilində təsvir edilirdi. Qədim Misirdə aypara İsida və Xatxor ilahələrinin simvolu olaraq inkişaf və firavanlığın rəmzi idi[145] **(şəkil 97)**. Tədricən bu ənənə Avropa ərazilərinə də keçmişdir. Qədim Yunanıstanda Olimp ilahələrindən olan Dirnanın rəmzlərindən biri aypara idi.[146]

Mesopotamiyada Ur şəhər-dövlətinin rəmzi, üzərinə aypara taxılmış ştandartdan ibarət idi. Bu şəhərin əhalisi Ay tanrısına sitayiş edirdi. Bəhreyn Arxipelaqına daxil olan adalarda arxeoloji qazıntılar zamanı ayparanın hakimiyyət rəmzi kimi ştandartlara bərkidilməsindən xəbər verən bir çox möhürlər aşkar edilmişdir. Belə ki, möhürlərdə döyüşçü əlində və ya qayıq üzərində olan ayparalar ştandart ulduzla və ulduzsuz təsvir olunmuşdur. Mesopotamiyada bir divarüstü şəkildə Assuriya hökmdarı Assarxanddonun başı üzərində aypara təsviri verilmişdir[147] **(şəkil 98)**.

Əhəməni dövlətində Tanrı Axura Mazda təsvir edilərkən qanadları olan aypara əsas götürülürdü **(şəkil 99)**.

Karnak məbədində (Misir) firon I Senuseretin abidəsinin divarında maraqlı ştandart təsvir olunub. Ştandartın baş tərəfi aypara daxilinə qoyulmuş günəş təsvirindən ibarətdir. Qədim Misirdə aypara günəş diski ilə bərabər təsvir olunurdu (bəzən təsvirə günəş tanrısının rəmzi olan qanadlı skarabey şəkli əlavə edilirdi).

Mesopotamiya ərazisində tapılmış bir daş lövhə üzərində Kassi çarı II Melişipakın başı üzərində soldan sağa 8-guşəli ulduz, ucları yuxarı baxan aypara və günəş təsvir olunub (lövhə hal-hazırda Luvrda, Parisdə saxlanılır) **(şəkil 100)**. Beləliklə, burada göy cisimləri olan ulduzlar, ay və günəş öz əksini tapmışdır.

Eyni ərazidən aşkar edilmiş digər lövhədə Babil çarı Mardukun şəkli üzərində eyni təsvirlər, həmçinin hökmdarın qarşısında günəş təsviri verilmişdir. Gü-

[145] - Шейнина Е.Я. Энциклопедия символов, знаков, эмблем. М., 2006, стр.9
[146] - Там же.
[147] - Рол Д., şək. 131.







Şəkil 97. Xonsu tanrısının baş geyimində aypara və günəş təsviri. Qədim Misir (D. Rola əsasən).

Şəkil 98. Möhür üzərində çar Asarxaddonun başı üzərində aypara təsviri (D.Rola əsasən).

Şəkil 99. Tanrı Axura Mazda. Persepol, saray divarı üzərində təsvir.

nəş təsvirinin 8 şuasından 4-ü düz xətlərlə, 4-ü isə dalğavari xətlərlə göstərilib **(şəkil 101)**. Cəbəl əl-Arak ərazisindən tapılmış bir bıçağın dəstək hissəsində gəmidə qurulmuş ayparalı və günəşli ştandart təsvirləri var. Eyni təsviri Uruk möhürünün üzərində görmək olar[148] **(şəkil 102)**. Suzi ərazisindən tapılmış möhür üzərində ayparalı ştandart tutan döyüşçü, Cənubi Mesopotamiyada tapılan keramik qab üzərində ayparalı ştandartları olan gəmi təsvir olunub.[149] Larsa ərazisində Şumerlərin günəş tanrısı Utu məbədlərində maraqlı təsvir aşkar edilib: qüllə şəklində olan məbədin üst hissəsində aypara və günəş təsviri[150] **(şəkil 103)**. Həmin təsvir Utu tanrısının rəmzi idi. Misirdə olan bu Ay tanrısı Xonsu başında aypara və günəşlə təsvir edilirdi.[151] Mesopotamiyanın Suz şəhərində qazıntılar zamanı e.ə. IV minilliyə aid gil küp tapılmış və bu küpün üzərində aypara, aypara və daxilində dairə, aypara və daxilində dördbucaq, aypara və daxilində xaç kimi müxtəlif rəmzlər var idi. Alimlərin fikrincə, aypara Ayı, dairə, dördbucaq və xaç isə Günəşi bildirirdi. Beləliklə, bu ay və ulduzun ilk təsviri hesab oluna bilər. F.Kurtoğlunun fikrincə, şumerlərdə ay-ulduz ilahi simvollar idi: aypara Ay tanrısının (Nanner, Ensu, Sin), ulduz isə torpaq və bolluq tanrısının

Şəkil 100. Mesopotamiyada tapılmış daş lövhədə Kassi çarı II Melişipakın başı üzərində təsvir olunmuş rəmzlər. Luvr, Paris.

Şəkil 101. Mesopotamiyada tapılmış daş lövhədə Babil çarı Mardukun üzərində və qarşısında rəmzlər.

Şəkil 102. Qədim Misirdə Cəbəl əl-Arak ərazisindən tapılmış bıçağın dəstək hissəsində gəmidə ayparalı və günəşli ştandart təsvirləri (D.Rola əsasən).







[148] - Рол Д., şək.315-317.
[149] - Там же, şək.374,384.
[150] - Там же, şah.386.
[151] - Там же, şək.509.











Şəkil 103. Şumerlərin günəş tanrısı utu məbədlərində qüllə şəklində olan məbədin üst hissəsində aypara və günəş təsviri. Larsa ərazisi, Mesopotamiya (D.Rola əsasən).

Şəkil 104. Suz şəhərində naram-suen daş lövhəsində 16-güşəli ulduz təsviri.

Şəkil 105. E.ə. I minilliyə aid assuriya möhüründə çarın başının üstündə 8-güşəli ulduz təsviri.

(İstar, Astarta) rəmzləri idi.[152] Onaltıgüşəli ulduzun ən qədim təsviri Suz şəhərində Naram-Suen daş lövhəsində aşkarlanıb **(şəkil 104)**. E.ə. I minilliyə aid Assuriya möhürü üzərində təsvir edilmiş çarın başının üstündə səkkizgüşəli ulduz təsviri verilmişdir **(şəkil 105)**. Ümumiyyətlə, Mesopotamiyada tapılmış gil möhürlər üzərində rəmzlər sırasında ay-ulduz təsvirləri çoxluq təşkil edir. Eyni zamanda saray divarlarında həkk olunmuş rəsmlərdə də ay-ulduz təsvirlərinə rast gəlmək olar. Maraqlıdır ki, belə rəmzlər adi məişət səhnələrində verilmir, əsasən tanrıların hökmdarlarla söhbəti və hökmdarların ölkəni idarə etməsi (qanunların verilməsi, xarici düşmənlə müharibə və s.) ilə bağlı səhnələrdə göstərilir.

Dairə içərisində xaç və ya dairə içərisində 8-guşəli ulduz (təkərə bənzər naxış) bir çox xalqlarda günəşin rəmzi idi.[153]

Qədim Finikiya ərazisində aşkar edilmiş digər daşlar üzərində də aypara şəklinə rast gəlinir. Bir daşda ucları aşağı baxan aypara və onun daxilində halqa, 2-ci daş üzərində ucları aşağı baxan aypara və halqa içində 8 ləçəkli gül, 3-cü daşda isə insan başı üzərində 3 günəş rəmzi və onların üzərində ucları aşağı baxan aypara və daxilində 8 guşəli ulduz olan halqa təsvir olunublar[154] **(şəkil 106-108)**. Finikiya ərazisindən tapılmış bir lövhə parçası üzərində qanadları olan aypara və dəyirmi şəkildə ay-ulduz təsviri verilib.

[152] - Kurtoğlu F., sah.24.
[153] - Виноградов А.Б., стр.74.
[154] - Харден Д., şək. 31,32, 35.







Şəkil 106. Daş lövhədə ucları aşağı baxan aypara və onun daxilində halqa. Finikiya (D. Xardenə əsasən).

Şəkil 107. Daş lövhədə ucları aşağı baxan aypara və halqa içində 8-ləçəkli gül (D. Xardenə əsasən).

Şəkil 108. Daş lövhədə insan başı üzərində üç günəş rəmzi və onların üzərində ucları aşağı baxan aypara və daxilində 8-guşəli ulduz olan halqa (D. Xardenə əsasən).



Şəkil 109. Ossuarida simvolik giriş qapısının üstündə aypara və günəş təsviri. Tok-qala, Orta Asiya.

Xorəzm ərazisində Bartin kəndi yaxınlığında I-II əsrlərə aid gümüş qab aşkarlanmışdır. Qabın üzərində təsvir edilən tovuz quşunun boynuna lent bağlanmış, başında isə aypara təsvir edilmişdir.[155] Tok-qala ərazisində aşkar edilmiş ossuaridə simvolik giriş qapısının üstündə aypara və günəş təsviri verilmişdi **(şəkil 109)**.

Qədim Hindistanda günəşi göstərmək üçün svastika təsvir edilirdi. Svastika Aqni od tanrısının rəmzi hesab olunurdu. Svastika təsviri Misirdə e.ə. IV minilliyin sonuna aid Kxiumita qadın fironun qəbrində tapılmış tac üzərində də var idi. Sonrakı dövrlərdə svastika sonsuz xoşbəxtlik və xoş arzular rəmzi kimi qəbul olunurdu.

Ay və ulduz, və ya təkcə aypara təsvirinə Əhəməni dövlətinə aid sikkələrdə (metal pul vahidi) də rast gəlmək olur. Bu ənənə Parfiya dövlətində də var idi: hökmdarın başının üzərində ay-ulduz təsvir olunurdu. Çox maraqlı təsvirə Nimrud ərazisində tapılmış bir daş lövhə üzərində rast gəlinir. Lövhədə bədənində ulduzlar, boynunun altında isə ay və ulduz təsvirləri olan şir şəkli çəkilmişdi **(şəkil 110)**.

[155] - Средняя Азия в древности и средневековые. История и культура. Сборник статей, М.1977, рис.12.





Makedoniyalı İsgəndərin imperiyasının parçalanmasından sonra yaradılmış çoxsaylı ellin dövlətlərin hər birinin öz pul vahidləri var idi ki, onların da əksəriyyətinin üzərində yanında ay-ulduz olan hökmdar təsvir olunmuşdu. Beləliklə, ay-ulduz təsvirləri bütün Anadoludan Orta Asiyaya və Şimali Hindistan ərazilərinə qədər torpaqlarda yayılmışdır.



Şəkil 110. Boğazında ay, bədənində ulduzlar təsvir edilən şir fiquru. Nimrud (F.Kurtoğluna əsasən).

Qara Dənizin sahillərində yerləşən Pont dövlətinin hökmdarları II Mitiridat və Mitridat Yevpatorun sikkələrində də ay-ulduz təsviri var idi.

1935-ci ildə Anadoluda Alaca Höyük abidəsində tuncdan düzəldilmiş bir neçə günəş rəmzi tapılmışdır, onlardan biri hal-hazırda Ankara şəhərinin simvoludur. Belə ki, əşya dəyirmi halqadan və onun daxilində qurulmuş və vahid şəbəkə təşkil edən 8 guşəli ulduzdan ibarətdir.[156] Digər əşya eynidir, lakin dəyirmi deyildir, aypara şəklindədir. Üçüncü belə əşya aypara və ya qayığı xatırladan dördbucaqda günəş rəmzi olan svastikanın təsvirlərindən ibarət idi.

Maraqlıdır ki, xristianlığın yayıldığı ilk illərdə ay-ulduz günəş rəmzi olaraq qalmaqda idi: belə ki, bizim eranın II əsrinə aid Roma pullarında, IV-V əsrlərinə aid bəzi bizans sikkələrində ay-ulduz təsvir olunurdu.

Sasani dövlətində ay-ulduz rəmzi tədricən hakimiyyət rəmzlərinə də aid edilməyə başlamışdır. Belə ki, bəzi divarüstü şəkillərdə və sikkələr üzərində olan təsvirlərdə başında ay-ulduzlu tac olan hökmdar görmək mümkündür. Ay-ulduz tacın ya arxasında, ya da adlın hissəsində bərkidilir, bəzi hallarda sağında və solunda qanadlar təsvir olunurdu **(şəkil 111-114)**.

Böyük Səlcuq imperatorluğunda ənənəvi türk tuğralarının təsvirləri ilə bərabər (öküz, qartal, qoç, şir) ay-ulduz təsvirləri və hətta ay-xaç təsvirləri də gör-





Şəkil 111. Sasani hökmdarı I Ərdəşir. Dövlət Ermitajı.

Şəkil 112. Sasani qadın hökmdarı Buran. Dövlət Ermitajı.

[156] - Kurtoğlu F., səh.38





Şəkil 113. Sasani hökmdarı Zormizd Ərdəşir. Dövlət Ermitajı.

Şəkil 114. Sasani hökmdarı II Varaxran. Dövlət Ermitajı.

mək mümkündür. Orta əsrlər dövründə rəmzlərə memarlıq abidələri, dekorativ-tətbiqi sənət nümunələri, qəbir daşları üzərində rast gəlmək mümkündür. Ən geniş yayılmış ornament motivlərindən biri 8-güşəli fiqur daxilində ulduz təsvirindən ibarət olmuşdur. Çox vaxt 8-güşəli ulduzun daxilində müəyyən süjetli təsvirlər də verilirdi.[157] **(şəkil 115-116)**. XIII əsrin əvvəllərindən bəzi müsəlman dövlətlərində mis pullar üzərində aypara təsviri verilirdi[158] **(şəkil 117)**.

Monqol dövlətləri dövründə Şərqdə ulduz və aypara təsvir etmək ənənəsi itməmişdir. Fransız səyyahlarının məlumatlarını təhlil edən F.Kurtoğlu göstərir ki, Hülakülər dövlətinin bayrağı sarı rəngdə idi, üzərində aypara, ulduz və xaç təsviri olub. Onların hamısı günəşi işarələyirdi.[159] 1308-ci ildən Hülakilərin bayrağı dəyişdirilib, yeni şəkildə işlənmişdir: sarı parça üzərində 3 aypara. Türk dünyasının görkəmli sərkərdəsi Əmir Teymurun sancağında 3 qırmızı rəngli quyruq asılmış, bayraq sapının üzərində qızılı aypara taxılmışdır.





Şəkil 115. 8-güşəli ulduzun daxilində dəvə üzərində süvari təsviri. 1256-cı il (V.Lukonin, A. İvanova əsasən).

Şəkil 116. 8-güşəli ulduzun daxilində tovuzquşu təsviri. XII əsr, Kubadabad (Türkiyə) (K. Xillebrandta əsasən).

[157] - Хиллебрандт К. Крестовые походы. Взгляд с Востока. Мусульманская перспектива. М., - С-Пб, 2008, с.37; Lukonin V., Ivanov A., p.128.
[158] - Там же, с.43.
[159] - Kurtoğlu F., sah.54







Şəkil 117. Mis pul üzərində aypara təsviri. Mosul, İraq, 1229-cu il (K. Xillebrandta əsasən).

Səlib yürüşləri zamanı xristian krallarının qoşununda müxtəlif təsvirlər və rənglər var, lakin onları birləşdirən xaç (səlib) təsviri idi. Xristian qoşunlarında olan bayraqlarda müxtəlif sayda və müxtəlif formada xaç təsvir edilirdi. Buna qarşı olaraq islam dövlətlərinin qoşunları da bir vahid rəmzdən istifadə etməyə başladılar və bu rəmz aypara (hilal) təsviri oldu. XII-XIII əsrdən başlayaraq aypara sırf islam rəmzi kimi qəbul olunmağa başlamışdır. F.Kurtoğlu göstərir ki, XIV-XV əsrlərdə Avropada tərtib edilmiş xəritələrdə islam dövlətlərinin bayraqlarında aypara təsvir olunurdu.[160] Osmanlı dövlətinin XV-XVI əsrlərdə qazandığı qələbələr, üzərində aypara olan bayraqları Avropanın mərkəzinədək aparmağa imkan vermiş, və avropalılalırn nəzərində aypara təkcə müsəlmanların deyil, türklərin rəmzi kimi qəbul edilməyə başlanmışdır. Əgər XII-XIII əsrlərdə ayparalı bayraq görən səlibçilər "Müsəlmanlar gəlir!" deyirdilərsə, XV əsrdən başlayraq eyni bayrağı görəndə "Türklər gəlir!" deyə bildirirdilər. İstanbulun Topkapı Muzeyi və Əsgəri Muzeyində nümayiş etdirilən bayraqlar göstərir ki, onların parçaları ağ, yaşılı, qırmızı, sarı rənglərdə olmuş, üzərində 1-5 iri aypara (bəzilərində əlavə olaraq 6, 8, 12-guşəli ulduz, zülfüqar qılıncı, əjdaha başları) təsvir edilirdi. Tədricən təsvirlər mürəkkəbləşirdi: ayrıca dekorativ elementlərin və ayparaların daxilində Qurani-Kərimdən surələr, "Allah", "Məhəmməd" sözləri yazılır, bəzən sultanın tuqrasının (möhürünün) təsviri verilirdi. Yazılar ərəb hərfləri ilə şaquli və üfqi zolaqlarda, bəzən bayraq parçasının haşiyəsində verilirdi. Artıq XVII əsrdən başlayaraq belə bayraqların parçalarında olan təsvirlər mürəkkəbləşir: yazı və simvolların araları həndəsi və ya nəbati naxışlarla doldurulurdu. Ornamentlər rəmz təəssüratını bağışlaması ilə seçilirdi: adi yarpaqlar və çiçəklər əvəzinə 6 və 8-ləçəkli bitkilər çəkilir, həndəsi fiqurlar *(dördbucaq, üçbucaq, romb) elə qurulurdu ki, 6 və 8-guşəli ulduz təsviri əmələ* gəlsin. Bəzi bayraqlar elə zəngin bəzədilirdi ki, öz əlvanlığı və rəngarəngliyi ilə xalçanı xatırladırdı.

Göründüyü kimi, aypara və ulduzun Şərqdə çox qədim tarixi mövcuddur. Əbədiyyət rəmzi olan ulduzun mənası tədricən dəyişmiş və sonralar yüksək amallar, ideallar rəmzi olmuşdur. Heraldikada 3-12 şuası olan ulduz elə ulduz hesab olunur, 12-16 şuası olan ulduz isə Günəş rəmzi kimi göstərilir.[161]

"8" rəqəmi Şərqdə hələ qədim dövrlərdən simvolik rəqəm hesab olunmuşdur. Qədim türk xalqlarının inanclarından biri Umay ilahəsinə sitayişlə bağlı ol-

[160] - Kurtoğlu F., sah.56
[161] - Похлебкин, стр.79



Şəkil 118. Umay ilahəsini təsvir edən tunc əşya (Murad Acıya əsasən).

muş, onun təsviri halqa daxilində 8 xətt arasında yerləşdirilirdi[162] **(şəkil 118)**. Müxtəlif ərazilərdə 8-guşəli ulduz Venera planetinin rəmzi idi. Belə ki, Şumer dövlətində (Mesopotamiya) bu ulduz Venera planetinin və öz növbəsində İnanna ilahəsinin rəmzi idi.[163] Şumerdən çox-çox uzaqlarda yerləşən Avstraliyada yerli tayfalar 8 guşəli ulduzun işarəsi ilə Venera planetinin təsvirini verirdilər. Cənub-Şərqi Asiyadan başlayaraq Aralıq dənizinin şərq sahillərinədək olan ərazidə 8 mərtəbəli ehramlar, məbədlər mövcuddur. Sasani dövlətinə aid bəzi möhürlərdə hökmdarın portreti ətrafında 8-guşəli ulduz və ay-ulduz təsvirləri mövcuddur.[164] Şərqdə yayılmış dekorativ elementlərdən biri 8-guşəli ulduz və 8-ləçəkli çiçəklərdir.

Pravoslav ikonalarında Tanrı səkkiz guşəli ulduzun fonunda təsvir edilirdi. İslamda cənnətin səkkizinci qatı "Cənnət ül-Ali" adlanır və işıqdan yaradılıb.[165]

Ə.Ələkbərovun fikrincə türk tayfalarında XI əsrədək qab və onun tərtibində od təsvir edilirdisə, bu dövrdən başlayaraq "aypara daxilində səkkiz guşəli ulduz" rəmzi ilə əvəz olunur.[166] Alov təmizlik, paklıq gətirdiyindən onun rəmzi olan səkkiz guşəli ulduzu ağ rəngdə təsvir edirdilər.

Avropa tarixşünaslığında belə fikir hökm sürür ki, aypara Bizans rəmzi olmuş, 1453-cü ildə Konstantinopolu zəbt edən Osmanlı sultanı II Mehmet bu rəmzi öz dövlətinin rəmzi kimi elan etmişdir.[167] Lakin yuxarıda göstərilən tarixi faktlar, dövrümüzə qədər gəlib çatmış təsvirlər sübut edirlər ki, aypara Şərqdə ən qədim simvollardan biri olmuşdur. Ayparanın sitayiş obyekti olmasını təsdiqləyən tarixi faktlar da mövcuddur. Belə ki, Qədim Finikiya ərazisində aşkar



Şəkil 119. Finikiya ərazisində aşkar edilmiş sitayiş yeri. İlahənin heykəli yanında qəbir daşları. Bir daşın üzərində ulduz və ona uzadılmış insan əli təsvir olunub (D. Xardenə əsasən).



Şəkil 120. İnsan əli şəklində tunc əşya. Şimali Qafqaz.

[162] - Мурад Аджи Европа, тюрки, Великая степь. М., 1998, с.140.
[163] - Форти С., стр.32
[164] - Lukonin V., Ivanov A., p.78.
[165] - Алекбер А. Азербайджан-это «страна света» // «Azərbaycan tarixinin problemləri, müasir tədris və elmi nəşrlərdə onların əksi» konfransının materialları B.,1995, s. 9
[166] - A.Ələkbər, səh.10
[167] - Еремеев Д.Э. Этногенез турок. М., 1971, стр.156





edilmiş məbəddə sitayiş obyekti olan qadın heykəli, onun yanında isə bir neçə şaquli daş tapılmışdır (sonrakı dövrlərdə belə formada baş daşı düzəldilirdi) daşların biri üzərində ucları yuxarı baxan aypara və ona doğru uzanmüş iki insan əli təsvir olunub[168] **(şəkil 119)**. Şimali Qafqazda aparılmış qazıntılar nəticəsində insan əli şəklində olan tunc bəzək əşyaları aşkar edilmişdir **(şəkil 120)**.

Osmanlı dövlətində ay-ulduz təsviri orden və medallarda da öz əksini tapmışdır. XVIII əsrdə osmanlı dövlətində təhsis edilmiş "Vakayi Misikiyi" adlı medal üzərində ortada aypara və onun daxilində 8-güşəli ulduz, kənarında isə nəbati ornamentlərdən tərtib edilmiş haşiyə verilmişdir **(şəkil 121)**. Ay-ulduz sağ tərəfə baxır.[169] Osmanlı sultanı II Mahmud tərəfindən 1792-ci ildə təhsis edilmiş medalın üst tərəfində şüalar daxilində sultan tuğrası, medalın arxa tərəfində isə şualar daxilində aypara və 8 guşəli ulduz təsviri verilmişdir.[170] Burada ay-ulduz sol tərəfə baxır. XIX əsrin II yarısından Osmanlı dövlətinin bayraqlarında 8-güşəli ulduz əvəzinə, daha çox 5 güşəli ulduz təsvir edilməyə başlayır. Mustafa Kamal Atatürkün başladığı istiqlal müharibəsində isə artıq istər quru, istərsə də dəniz qüvvələrində qırmızı parça üzərində çəkilmiş ağ rəngli ay-ulduz əsas rəmzə çevrilmişdir.



Şəkil 121. "Vakayi misikiyi" Osmanlı medalı üzərində ay və 8-guşəli ulduz təsviri. XVIII əsr (F. Kurtoqluna əsasən).

Beləliklə, qədim dövrlərdə Günəş, Ay və buynuzlu heyvanlar təsvirləri transformasiyaya aşağıdakı şəkildə uğramışlar.

1. Disk şəklində olan günəş tədricən 5, 7, 8, 12 çıxıntısı (şuası) olan halqa kimi təsvir edilir, daha sonra isə bu halqa 5, 7, 8, 12 güşəli ulduz şəklində göstərilir.
2. Öküz və ya keçi buynuzları tədricən aypara şəklində göstərilir.
3. Əvvəllər ulduz, günəş, ay təsvirləri yan-yana göstərilirdisə, tədricən təsvir dəyişir: aypara və günəş birlikdə ayparanın daxilində olan ulduz kimi göstərilirdi.

[168] - Xarden D., şək.29
[169] - Kurtoğlu F. şək. 82.
[170] - Yenə orada, şək. 83.



# AZƏRBAYCANDA AY-ULDUZ RƏMZİNİN TARİXİ

Azərbaycanda ay-ulduz rəmzinin tarixi çox qədimdir. Yuxarıda qeyd edilmişdir ki, qədim Azərbaycanda rəmzlər çox vaxt buynuzlu heyvanlar (maral, öküz, keçi, qoç) şəklində olurdu. Qədim təsəvvürlərə görə buynuz güc və qüvvəni təcəssüm edirdi. Qədim dünyagörüşünə əsasən Yer öküzün buynuzlarında yerləşirdi. Üzərində buynuzlu heyvanlar təsvir edilən rəmzlər Azərbaycanın istər cənubunda (Araz çayından cənubda), istərsə də şimalında arxeoloji qazıntılar nəticəsində aşkar edilmişdir. Belə rəmzlər e.ə. II minillikdən - b.e. ilk əsrlərinədək istifadə edilirdi.



Şəkil 122. Gil öküz fiquru. Tunc dövrü (MATM).

Milli Azərbaycan Tarixi Muzeyi kolleksiyasında qorunan bir sıra gil qablar qədim dövrlərdə buynuzlu heyvanlara olan sitayişi təsdiqləyir. Onların sırasında gil öküz fiqurları, üstündə qoç başı olan küp, keçi formasında olan qab, maral fiquru ilə bəzədilmiş badə xüsusi yer tutur **(şəkil 122)**. Qarabağ ərazisində tapılmış öküz formalı ştandart e.ə. IX əsrə aid edilmiş və hal-hazırda Dövlət Ermitajında (Sankt-Peterburq, Rusiya Federasiyası) saxlanılır **(şəkil 123)**.



Şəkil 123. Qarabağ ərazisində tapılmış öküz formalı ştandart. E.ə. IX əsr (Dövlət Ermitajı, Sankt-Peterburq).

Tədqiqatçıların fikrincə, öküz sitayiş obyektinə erkən tunc dövründə, e.ə III minilliyin əvvəllərində çevrilmişdir. Azərbaycanın Baba Dərviş, Kültəpə, Qaraköpəktəpə arxeoloji abidələrində gildən düzəldilmiş öküz fiqurları tapılmışdır. Qədim dinlərdə öküzün buynuzları Aya bərabər tutulurdu.[171]

Sonrakı dövrlərdə öküz təsviri rəmz kimi qalmaqda idi. Hətta, islamın yayılmasına baxmayaraq öküz başlarının təsvirlərinə misal üçün, Bakı qala divarlarının girişi üzərində (XII əsr) Səbayıl qalasında (Səbayıl daşları, XIII əsr) və s. **(şəkil 124)** yerlərdə təsadüf olunurdu.

Sitayiş obyekti olmuş digər buynuzlu heyvan maral idi. Qobustanda aşkar edilmiş heyvan sümükləri sırasında bir dənə də olsun maral sümüyü yoxdur. Halbuki, qayalardakı təsvirilərdə maralın ovlanması göstərilib.[172] Belə qənayətə gəlmək olar

[171] - Гулузаде Н. Еще раз о культе быка в Азербайджане. // «Qafqazın arxeologiyası, texnologiyası, folkloru» beynəlxalq konfransının materialları. B., 2005, səh.83-84.
[172] - Rüstəmov C. Qobustan qayaüstü təsvirinin izahına dair qeydlər //Azərbaycan tarixinin problemləri, səh.46.



Şəkil 124. Səbayıl qalasından tapılmış daş öküz kəlləsi təsviri. XIII əsr.

ki, maral müqəddəs heyvan kimi ovlanır, lakin yeyilmirdi, ona qida məhsulu kimi baxmırdılar. Müqəddəs ağac ətrafında təsvir olunmuş maral şəkillərinə katakomba qəbirlərindən aşkar edilmiş ağac məmulatları üzərində rast gəlmək olar.[173] Təsadüfü deyildir ki, Asiya xalqlarında maral təsvirləri "günəş maralları" mənasını bildirir. "Günəş maralları"na sitayiş skif tayfalarında da olmuşdur.[174]

Bəzi orta əsr Azərbaycan miniatürlərində də maral təsviri rəmz kimi göstərilirdi. Misal üçün, görkəmli Azərbaycan miniatürçü rəssamı Mrzə Əlinin XVI əsrin 40-cı illərinə aid "Saray səhnəsi" miniatüründə saray divarında maraqlı rəmz, başı üzərində çələng olan qurd iki maral arasında göstərilmişdir.[175]

Azərbaycanda yayılmış rəmzlərdən biri keçi təsviri idi. Qobustan qayaüstü təsvirlərində minlərlə ov səhnəsi var, lakin bir dənə də olsun keçi ovu şəkli yoxdur. Əksər hallarda keçi insanların yanında kənar məxluq kimi təsvir edilir[176] **(şəkil 125-126)**. Keçi təsviri olan çoxsaylı ştandartlar barəsində əvvəlki paraqraflarda məlumat verilmişdir.

Günəş təsvirinin qədim Azərbaycanda rəmz kimi istifadə edilməsini təsdiqləyən təsvirləri Qobustan qayaüstü rəmzlərində görmək mümkündür. Burada bir ov səhnəsində (ovçu və onun köməkçisi keçiləri ovlayırlar) spiralvari xətlərlə günəş təsvir edilmişdir. Təsvirin ovçu və keçi təsvirlərindən böyük olması, mərkəzində gözmuncuqlarında olduğu kimi nöqtə qoyulması, təsvirin məhz rəmz olmasını təsdiqləyir **(şəkil 126)**. Arxeoloji qazıntılar nəticəsində Azərbaycan ərazisində tunc dövrünə aid maraqlı rəmzlər aşkarlanmışdır. Belə ki, e.ə.IV-III

Şəkil 125. Qobustanda keçi təsvirlərindən biri. Yazılıdaş, daş № 35.

Şəkil 126. Ov səhnəsi, ondan aralı keçi və günəş təsvirləri. Qobustan.






[173] - Алиева Ф. К вопросу о мировоззрении населения античного Азербайджана // Azərbaycan arxeologiyası, 2005, №1-4, səh.41-44.
[174] - Окладников А.П., Васильевский Р.С., с.140.
[175] - Халилов М.Реликты в миниатюре XVI века// IRS-Наследие 2004, №1 (9), стр.16-20.
[176] - Rüstəmov C. Qobustan qayaüstü təsvirinin, səh.46.











minilliklərə aid rəmzlər yanlarında kəsikləri olan tunc diskləri xatırladır[177] **(şəkil 127)**. Belə ehtimal etmək olar ki, bu disklər günəşin təsvirləridir. Digər arxeoloji tapıntılar göstərir ki, günəş rəmzini təsvir etmək üçün tədricən şuaların sayı azaldılırdı. Misal üçün, MATM kolleksiyasında olan e.ə.II-I minilliklərə aid tunc bilərzik və qolbaqlar 7 və 5 çıxıntıya malikdirlər[178] **(şəkil 128)**. E.ə.III-II minilliyə aid digər ştandart yarımkürə şəkillərdir, üzərində iki günəş təsviri var: kiçik günəş 5 şüalıdır, iri günəş təsvirinin isə 8 şüası var[179] **(şəkil 129)**.

Qobustanın qayaüstü rəsmlərində gəmilərin burun hissələrində günəş təsviri var (5, 8 və ya 12 guşəli ulduz şəklində) **(şəkil 130)**. MATM-in kolleksiyasında olan qədim dövr qil möhürlərinin çoxu günəş və ya svastika şəkilləridir. Svastika qədim Şərq dövlətlərində günəş və dəyişən dövranın rəmzi olmuşdur. Gəmiqaya (Naxçıvan) rəsmlərində də günəş rəmzlərinə rast gəlinir. Belə ki, ək-

Şəkil 127. Kəsikləri olan tunc disk şəklində günəş rəmzi. e.ə. IV–III minilliklər (MATM).

Şəkil 128. Çıxıntıları olan tunc bilərzik şəklində günəş rəmzi. e. ə. II–I minilliklər (MATM).

Şəkil 129. Üzərində iki günəş təsviri olan tunc ştandart. e. ə. III–II minilliklər (MATM).

Şəkil 130. Qayaüstü rəsmlərdə gəmilərin burun hissələrində günəş təsviri. Qobustan.

Şəkil 131. Gəmiqaya (Naxçıvan) qaya rəsmlərində günəş rəmzləri olan günəş və keçi.





[177] - Milli Azərbaycan Tarixi Muzeyi, AFN№891.
[178] - Milli Azərbaycan Tarixi Muzeyi, AFN№ 484, 968.
[179] - Milli Azərbaycan Tarixi Muzeyi, AFN№1181



Şəkil 132. Qızıl cam üzərindəki təsvirdə günəş tanrısı öküzlər bağlanmış arabada hərəkət edir. Həsənli qalası. e.ə. IX əsr (Tehran Arxeologiya Muzeyi).

sər hallarda keçi və günəş, keçi, insanlar və günəş təsvir olunur **(şəkil 131)**. Günəş spiralvari formadadır. Qobustan qaya təsvirlərində keçilər və svastika, həmçinin gəminin burnunda günəş şəkilləri rəmzi şəkillər sayıla bilər.

Cənubi Azərbaycanın Həsənli qalasında aparılmış qazıntılar nəticəsində e.ə. IX əsrə aid qızıl cam aşkar edilmişdir. Bu camın üzərindəki təsvirdə Günəş tanrısı öküzlər bağlanmış arabada hərəkət edir **(şəkil 132)**. Digər qızıl camda şirlərin bədənlərində svastika təsviri mövcuddur. Hər iki cam hal-hazırda Tehranın arxeoloji muzeyində (İran İslam Respublikası) saxlanılır. Dairə içərisində xaç və ya dairə içərisində 8-guşəli ulduz (təkərə bənzər naxış) bir çox xalqlarda günəşin rəmzi idi.[180] Orta əsrlər dövründə Azərbaycanda islam rəmzləri ilə bərabər günəş rəmzlərindən də istifadə edilirdi. Lakin onlar daha çox bəd qüvvələrdən, bəd nəzərdən, şərdən qoruyan rəmzlər kimi qəbul olunurdu. Ona görə də, belə rəmzlər girişlərin yanlarında və ya üzərində, darvazalarında, sandıqlar, qıfıllar və kilidlərdə təsvir olunurdu ki, sahibi bəd qüvvələrdən qorusun **(şəkil 133)**.

Bəzən günəş çoxguşəli ulduz və ya mərkəzində insan siması təsviri olan ulduz şəklində verilir. Memarlıq abidələrinin bir çoxunda 8-guşəli ulduz həndəsi

[180] - Vinoqradov A.B, str.74.









Şəkil 133. Orta əsr Azərbaycan binaları giriş qapılarının yanlarında günəş rəmzi təsviri. Şirvanşahlar sarayı, XV-XVI əsrlər.

Şəkil 134. Pir Hüseyn xanəgahında 8-güşəli ulduz təsvirləri. XIII əsr.

dəqiqliklə təsvir olunurdu (Taxt-i Süleyman şəhəri, Pir Hüseyn xanəgahı və s.) **(şəkil 134)**.

E.ə II minillikdən başlayaraq Azərbaycanda üzərində həm buynuzlu heyvan, həm də günəş təsviri olan rəmzlər istifadə edilməyə başlayır. Belə ki, MATM kolleksiyasında qorunan bir tunc ştandart halqa üzərində bərkildilmiş maral təsvirindən ibarətdir (MATM AF № 1174) **(şəkil 135)**. Halqanın üzərində 8 çıxıntının olması sübut edir ki, onun daxilində 8-şüalı günəş təsviri olmuşdur. Digər rəmzdə tunc halqanının kənarlarında çoxsaylı xırda çıxıntılar var, daxilində 10 şualı, üst tərəfində isə sağa və sola baxan 2 keçi təsviri var **(şəkil 136)**. Orta əsrlər dövrünə aid qəbir daşlarının bir qismi qoç şəklindədir və onların da üzərində günəş təsvirləri verilir.

Səkkiz rəqəmi bütün Şərqdə olduğu kimi, Azərbaycanda da müqəddəs hesab olunurdu. İslamda cənnətin səkkizinci qatı, pilləsi "Cənnət ül-Ali" adlanır və işiqdan yaradılıb.[181] Naxçıvanda məşhur Möminəxatun türbəsində (XII əsr, memar Əbu Bəkr Əcəmi) naxışlarına diqqət yetirdikdə 8 və 12-guşəli ulduzların olması açıq bilinir. Şirvanşahlar sarayının giriş hissəsinin sağ və solunda daxilində 8-güşəli ulduz olan timpan (dekorativ element) yerləşdirilmişdir. 8-gu-

[181] - Алекбер А. Азербайджан - это «страна света», с. 9.

Şəkil 135. Maral və günəş rəmzləri olan ştandart (MATM).

Şəkil 136. Üzərində keçi və günəş rəmzləri olan tunc əşya (MATM).







Şəkil 137. Möminə xatun türbəsində naxış (Naxçıvan, XII əsr).

şəli ulduzların mərkəzində ərəb qrafikası ilə "Allah" sözünün yazılmasını görmək mümkündür **(şəkil 137)**.

Ə.Ələkbərovun fikrincə, türk tayfalarında XI əsrədək qab və onun daxilində od təsvir edilirdisə, bu dövrdən başlayaraq "aypara daxilində səkkizguşəli ulduz" rəmzi ilə əvəz olunur.[182] Alov təmizlik, paklıq gətirdiyindən onun rəmzi olan səkkizguşəli ulduzu ağ rəngdə təsvir edirdilər. "Azərbaycan" sözünün mənası "oda sitayiş olunan yer" deməkdir və bu səbəbdən odla bağlı rəmzlərin buradakı çoxluğu təəccüb doğurmur.[183]

Qədim dövrlərdə Azərbaycanda aypara təsviri də rəmzlərdən biri olmuşdur. Tayfa başçılarının hakimiyyət rəmzləri ştandart formasında idi: əsa üzərinə taxılan tunc rəmz. MATM kolleksiyasında arxeoloji qazıntılar nəticəsində aşkarlanmış bir neçə belə rəmz qorunur. Onlardan biri aypara - təbərzin şəkilləridir.[184] Orta Asiyada belə rəmzlər "ay - balta" termini ilə bildirilirdi. Cənubi Azərbaycan ərazisindən e.ə. I minilliyə aid arxeoloji abidələrdən çoxlu sayda tunc,

[182] - Там же, с. 10.
[183] - Агасиева Э. Азербайджан - страна огней, древнейший очаг цивилизации// «Azərbaycan dünyanın ən qədim sivilizasiya mərkəzlərindən biridi» konfransının materialları B., 2004, səh.85-87.
[184] - MATM AF№1148.









Şəkil 138. Alban çarı Cavanşirin tunc heykəli. Naxçıvan. VII əsr. (Dövlət Ermitajı, Sankt-Peterburq).

Şəkil 139. Alban çarı Cavanşirin tacında aypara təsviri. Naxçıvan. VII əsr. (Dövlət Ermitajı, Sankt-Peterburq).

az miqdarda qızıl pektoral (sinənin müdafiəsini təşkil edən element) tapılmışdır ki, onların hamısı aypara şəklindədir.

Maraqlıdır ki, Qafqaz Albaniyası hökmdarı Cavanşirin tacının üzərində aypara təsviri var idi. Bunu VII əsrə aid edilən və Naxçıvanda tapılan, hal-hazırda isə Dövlət Ermitajı muzeyində (Sankt-Peterburq) tunc heykəl təsviri təsdiqləyir **(şəkil 138)**. Heykəlin qollarının açıq olması, həmçinin yumruqları sıxılmış şəkildə təsvir edilməsi, onun əlində hakimiyyət rəmzinin olmasını ehtimal etməyə imkan verir **(şəkil 139)**.

Qədim dövrlərdə Azərbaycanda geniş yayılmış rəmzlərdən biri xəmsə (pənc) - açılmış insan əli təsviri idi. Açılmış insan əli (pənc) şəklində olan muncuqlar xüsusi maraq kəsb edir. Atəşpərəstlərdə bu nişan indiyədək bəd nəzərdən qoruyan talisman hesab edilir və qapıların, darvazaların üstünə vurulur. T.İ.Qolubkinanın fikrincə, pəncin təsviri bir sıra xalqlarda səma, göy nişanəsi hesab olunaraq Günəş və Ayın əhatəsində təsvir edilirdi. İnsan əli təsvirləri onunla bağlıdır ki, insanın ən kamil aləti olan əlləri (təsadüfü deyildir ki, yüksək peşəkarlığı ilə seçilən ustalara "qızıl əlləri var" deyirlər) ilahi fəallıq rəmzi kimi qəbul olunurdu. Azərbaycanda islamdan çox-çox əvvəl mövcud olan açıq in-



Şəkil 140. Qəbir daşlarında aypara-ulduz və onlara uzadılmış insan əli təsviri (R. Əfəndiyevə əsasən).

san əli təsviri günəşə, səmaya müraciətin, duanın rəmzi olmuşdur. Pənc islam nişanəsi kimi qəbul edildikdən sonra onun mənaları meydana gəlmişdir: bu dövrlərdən başlayaraq pənc artıq islamiyyətə qələbələr gətirmiş Həzrət Əlinin əli, Hüseynin bayraqdarı olan Abbasın kəsilmiş əli rəmzi kimi, bəzən isə Məhəmməd, Əli, Fatma, Hüseyn, Həsəni birlikdə simvolizə edən rəmz kimi qəbul olunur.[185] Qəbir daşlarında aypara-ulduz və onlara uzadılmış insan əli təsvirlərinə rast gəlmək olar **(şəkil 140)**.



Şəkil 141. Gümüş su qabı üzərində günəş rəmzi (R.Əfəndiyevə əsasən).

[185] - Голубкина Т.И. К сематике некоторых археологических находок (по материалам МИА АН Аз. ССР). //Материалы научной сессии - Итоги научных работ МИА за 1987г. Б., 1988, с. 34-35.





Beləliklə, qədim dövrlərdə bütün Şərqdə olduğu kimi, Azərbaycanda da Günəş, Ay və buynuzlu heyvanlar təsvirləri transformasiyaya aşağıdakı şəkildə uğramışlar.

1. Disk şəklində olan günəş tədricən 5, 7, 8,12 çıxıntısı (şuası) olan halqa kimi təsvir edilir, daha sonra isə bu halqa 5, 7, 8, 12 guşəli ulduz şəklində göstərilir.
2. Öküz və ya keçi buynuzları tədricən aypara şəklində göstərilir.
3. Əvvəllər ulduz, günəş, ay təsvirləri yan-yana göstərilirdisə tədricən təsvir dəyişir: aypara və günəş birlikdə ayparanın daxilində olan ulduz kimi göstərilirdi.

Azərbaycanda rəmz və nişanələrin çoxluğunu etnoqrafik ekspedisiyalar da təsdiqləmişdir. Belə ki, 1966-cı ildə Azərbaycan EA Tarix İnstitutu tərəfindən Şirvan bölgəsinə göndərilmiş tədqiqat qrupu Nabur, Göylər, Quşçu kəndlərində, həmçinin Böyükdaş, Qaraatlı, Sofu Həmid, Sofu Novruz qəbristanlıqlarında daşlar üzərində həkk olunmuş 150-dən çox rəmz aşkar etmişdir.[186]

Məlumdur ki, dövr dəyişdikcə bir çox hallarda simvol öz mənasını itirir, lakin xalqın təsəvvürləri ilə sıx bağlı olduğundan ornament kimi istifadə edilir. Heraldikada ornament (lat. "ornamentum"-bəzək) sxematik şəkildə verilmiş eyni motivin dəfələrlə təkrarlanması ilə əmələ gəlir.[187] Ornament heraldikanın "xalq sahəsi" hesab olunur, çünki ornament şəklinə yalnız xalqın dünyagörüşünü əks etdirən emblemlər - gəlmə, yad rəmzlər ornament kimi qalmır. Misal üçün, sovet hakimiyyətinin rəmzlərindən olan oraq-çəkic təsviri sovet quruluşu dağılan kimi Azərbaycanda ləğv olundu və ornament şəklini almadı. Azərbaycan milli ornamentləri sırasında 8 guşəli ulduz və 8 ləçəkli güllərin vacib yer tutması sübut edir ki, 8 guşəli ulduz Azərbaycan xalqının tarixi emblemlərindən olmuşdur. Ulduz və günəş təsvirlərini müxtəlif formalarda dekorativ-tətbiqi sənət nümunələri üzərində (xalça, tikmə, zərgərlik məmulatları, keramika, mis əşyalar və s.) görmək mümkündür[188] **(şəkil 141-142)**.



Şəkil 142. Qadın baş geyimi üzərində aypara-ulduz təsviri. İlisu, XIX əsrin ortaları (Azərbaycan xalçası və tətbiqi sənət muzeyi).

[186] - Muradova EA Şirvan zonasında aşkar olunmuş işarə və tamğalar. Azərbaycanın maddi mədəniyyəti. X.VII, Bakı, 1976, səh. 100-103.
[187] - Похлебкин, стр.159
[188] - Əfəndiyev T. Xalq sənətimizə rəmzi işarələr/Elm və həyat, 1984, №10, səh.22-24.



# NƏTİCƏ

XX əsrin 90-cı illərində Azərbaycan öz müstəqilliyini bərpa edəndən sonra dövlət quruculuğu qarşısında dayanan mühüm vəzifələrdən biri də dövlətin rəmz və emblemlərinin yaradılması olmuşdur. Köhnə rəmz və emblemlərdən yenilərinə keçmək (daha doğrusu, sovet quruluşunun rəmz və emblemlərindən imtina edib Azərbaycan xalqının rəmz və emblemlərini bərpa etmək) hər şeydən əvvəl psixoloji cəhətdən köhnə quruluşdan ayrılmanın formalarından biridir. Milli heraldika hər zaman xalqın, millətin birliyini göstərən elementlərdən biri olmuşdur.

Heraldik rəmzlər sırasında ən önəmlisi hesab olunan bayraqdır. Bayraq ilk növbədə birlik rəmzidir, eyni zamanda o, əvəzolunmaz emosional təsir qüvvəsinə malik vasitədir. Bayrağın tərtibi və düzəldilməsi bütün dövrlərdə rəsmi sifariş kimi qəbul edilmiş və müəyyən siyasi tendesiyaların göstəricisi rolunu oynamışdır. Dövlətçiliyin ən önəmli nişanələrindən olan bayraqlar hərbi işdə praktiki və mənəvi əhəmiyyətə malik idi. Bayrağın mövcudluğu hələ dövlətin müstəqilliyi demək deyil, lakin müstəqil dövlət mütləq öz bayrağına malik olmalı idi. Dövlətin ən müqəddəs simvolu olan bayraq bu dövlətə digər dövlətlər sırasında seçilməyə imkan verirdi. Məhz buna görə meydana gəlməsindən indiyədək bayraq dövlətin ideologiyasını əks etdirərək müəyyən məlumatl daşıyırdı. Onun altında toplanmış insanların birlik nişanəsi simvolu olan bayrağın mənəvi əhəmiyyəti daha da artırdı. Bayraqlarda olan simvol və rəmzlər həm keçmişdən, həm də gələcəkdən xəbər verir. Bayraq, rəmzlərin, şəkillərin, yazıların çətin, bəzən isə mücərrəd dili ilə onu tərtib etmiş xalqın keçmişindən və gələcəyə doğru ümidlərindən xəbər verir.

Bayraq döyüşçülərin toplanmaq yerini göstərən şərti rəmz kimi meydana gəlmişdir. Əgər bayrağın birinici funksiyası toplanma yerini göstərən rəmz olmuşdursa, onun ikinci funksiyası döyüşdə öz döyüşçülərinə birləşmə yerini işarə etmək olmuşdur. Hərbi işin inkişafı zamanı bayrağın növbəti funksiyası meydana gəlmişdir - qoşun komandanının mövqeyini göstərmək. Bayraq üzərində elə rəmzlər təsvir edilirdi ki, hamı onları başa düşsün.

Dövlətçilik nəzəriyyəsi və tarixi ilə bağlı əsərlərin çox olmasına baxmayaraq, dövlətçilik rəmzlərinin tarixi ilə bağlı əsərlər azdır. Nəzərə almaq lazımdır ki, bay-

raqlar haqqında elm - veksillologiya çox gəncdir. Dövlət quruculuğu, hərbi iş və inzibati idarəetmənin ayrılmaz tərkibi olan "bayraq" termininin dəqiq açıqlanması son dövrlərədək yox idi. Hal-hazırda qəbul olunmuş nəzəriyyəyə görə bayraq - bir tərəfi ilə sapa birləşdirilən, çox vaxt üzərində emblematik təsvir, yazılar və orden lentləri ilə bəzədilən bir və ya çoxrəngli parçadır. Bayraq insanların milli, hərbi, partiya və peşə birliyinin rəmzidir. Beləliklə, bayrağı xarakterizə etmək üçün onun zahiri görünüşü və hansı prinsip əsasında insanları birləşdirməsi qeyd olunmalıdır.

Müəyyən rəmzi işarənin təsvir edilməsi üçün vacib olan bayraqlar müxtəlif formalarda hələ qədim dövrlərdə meydana gəlmişdilər. Əksər hallarda parça hissə, onun taxılması və daşınması üçün istifadə edilən sap və sapa taxılan müxtəlif rəmzi elementlərdən (ucluq, lentlər, qotazlar və s.) ibarət olan bayraq onun sahibinin şərəf və ləyaqət təcəssümü olmuşdur. Azərbaycanda bayraq hələ e.ə. XIV-XIII əsrlərdə ştandart şəklində meydana gəlmişdir. Bürüncdən düzəldilib və ağac saplağa taxılan bu ştandartlar, ehtimal ki, hökmdarın hakimiyyətinin rəmzi kimi çıxış edirdi. Artıq erkən orta əsrlərdə bayraq indiyənədək dəyişməz qalmış formanı almışdır: bir və ya çoxrəngli parça hissə yan tərəfi ilə sapa bərkidilir, sapın başına ucluq taxılır və əlavə elementlər (saçaq, lent və s.) asılırdı. Azərbaycan Ərəb xilafətinin tərkibində olduğu zaman bayraqlar "rəyya" anlayışı ilə tanınırdı. Xalq-azadlıq üsyanının rəhbəri Babəkin qoşunlarında həm baş bayraq, həm də dəstələrin bayraqları al-qırmızı *rəngdə (od-alov rəngində) olduğundan farsdilli müəlliflər xürrəmiləri "surxaləm"* ("albayraqlılar"), ərəbdilli müəlliflər isə "muxammira" ("qırmızı geyinənlər") adlandırırdılar. Azərbaycanda IX-XI əsrləri əhatə edən feodal dağınıqlığı dövrü dövlətçiliyinin və onun rəmzlərinin ənənələrinə də təsir etmişdir. Hər hansısa bir rütbənin və ya vəzifənin verilməsi torpaq payı, fəxri xələt, nağara və bayraq verilməsi ilə tamamlanırdı.

Orta əsrlərdə Azərbaycanda bayraqlar "bayraq", "sancaq", "tuğ", "bunçuq" terminləri ilə bildirilirdi. Bu terminlərin mənalarının və mənşəyinin öyrənilməsi vacib əhəmiyyət kəsb edir. Türk dillərində geniş istifadə edilən "bayraq" terminindəki "Bay" anlayışı "böyük, böyüyə layiq, böyüyə məxsus", "böyükdə görünüb tanınan" mənalarını verirdi. "Sancaq, sancak" termininin kökü "sancmaq" sözü ilə bağlı olmuş, dövlətin, tayfanın və ya vəzifəli şəxsin müəyyən əraziyə taxılmış (sancılmış) rəmzini bildirmişdir. Müasir Avropa dilində "sancaq" teriminin ən yaxını "ştandart" terminidir.

Milli Azərbaycan Tarixi Muzeyinin fondlarında müxtəlif tarixi hadisələrin şahidləri olmuş 93 bayraq qorunur. Əvvəlki dövrlərdən fərqli olaraq, XVIII əsrin sonları - XIX əsrin əvvəllərində mövcud olmuş Azərbaycan xanlıqlarının bayraqlarını əyani olaraq görmək mümkündür. Belə ki, Milli Azərbaycan Tarixi Muzeyinin kolleksiyasında hal-hazırda 12 xanlıq bayrağı qorunur. Azərbaycan xanlıqlarının bayraqları





gözəl şərq parçalarından tikilmiş, müxtəlif ornament və yazılarla bəzədilmişdir. Bayraqlara müxtəlif rəngli ipək, eləcə də qızılı və gümüşü saplardan zər saçaqlar salınmışdır. Bayraq sapları silindrik formada yüngül ağac gövdələrindən düzəldilmiş, boyanmış, onların başlarına fiqurlu metal ucluqlar taxılmış, qızılı, gümüşü və başqa rəngli ipək saplardan toxunmuş qotazlar bağlanmışdır.

Bayraqların parça hissələri müxtəlif rənglərlə boyanırdı. Ən çox göy, al, yaşıl rənglər istifadə edilir, naxış və təsvirlər isə ağ və qızılı rənglə təsvir edilirdi.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə milli dövlətçilik rəmzlərinin bərpası istiqamətində əhəmiyyətli işlər görülmüşdür. Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti 1918-ci il iyunun 21-də Dövlət bayrağı haqqında qərar qəbul etdi. Həmin qərara əsasən qırmızı rəngli Dövlət bayrağı üzərində ağ rəngli aypara və səkkizgüşəli ulduz təsvir olunmuşdu. Müstəqil dövlət olan Azərbaycan Xalq Cümhuriyyəti özünün milli, digər dövlətlərdən fərqlənən dövlət atributları, o cümlədən Dövlət bayrağına malik olmalı idi. Dövlət bayrağının formaları müzakirə olunarkən üç ideyanın: türkçülük, islamçılıq, müasirlik ideyalarının, bu bayraqda əks olunmasına əsas diqqət yetirildi. Eyni zamanda bayraqda olan təsvirlər Azərbaycan xalqının keçmişini, qədim tarixini, zəngin mədəniyyətini də əks etdirməli idi. Bu səbəbdən Azərbaycan Xalq Cümhuriyyətinin yeni bayrağı üçün rənglər seçiləndə yaşıl, qırmızı və göy rənglərə üstünlük verilmişdir. 1918-ci il noyabrın 9-da Azərbaycan Xalq Cüm*huriyyəti Hökumətinin iclasında Hökumətin sədri Fətəli xan Xoyskinin məruzəsi* əsasında Azərbaycan dövlətinin yeni Dövlət bayrağının forma və təsvirləri qəbul edilmişdir. Hökumətin həmin iclasında Azərbaycan dövlət bayrağının "yaşıl, qırmızı və mavi rənglərdən, ağ aypara və səkkizgüşəli ulduzdan ibarət" olması qərara alındı. Bayraqdakı mavi rəng - türklüyün, qırmızı - müasir azadlıq ideologiyasının, yaşıl isə islamın rəmzi idi. Bayraqdakı ulduzun 8-güşəli olmasını F.Xoyski öz nitqində belə əsaslandırmışdır ki, ulduzun güşələrinin sayı dövlətin əski əlifba ilə yazılmış adında oxunan hərflərin sayına bərabərdir.

Tarixi mənbələrdə olan misallar, mövcud olan maddi əşyalar üzərindəki təsvirlər sübut edirlər ki, Azərbaycanın Dövlət bayrağı üzərində olan rənglər heç də təsadüfən seçilməmişdir, onların Azərbaycanda vahid şəkildə istifadəsinin tarixi ənənələri, həmçinin ay-ulduz rəmzinin tarixi çox qədimdir.

Üçrəngli bayraq və onun elementləri Cümhuriyyətin digər rəmzlərində də, o cümlədən Dövlət Gerbində və Dövlət ordenlərində öz əksini tapmışdır. Azərbaycan Xalq Cümhuriyyəti dövründə ordunun Döyüş bayrağı da tərtib edilmişdir. Piyada və süvari alayları, əlahiddə taborlar və hərbi məktəb üçün döyüş bayraqlarının təsviri 1919-cu il dekabrın 8-də elan edildi. Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920-ci illər) dövründə Azərbaycan dövlətçiliyini əks etdirən tarixi eksponatların Vətənə qaytarılması istiqamətində məqsədyönlü iş aparılmışdır. 1920-ci ilin iyununda Bakı-

da Azərbaycan Dövlət Muzeyi təşkil olundu və dövlətçiliyin tarixi atributlarının qaytarılması məsələsi yenidən gündəmə gəldi və Tiflisdə yerləşən Qafqaz Hərbi-Tarixi Muzeyindən Azərbaycana aid olan dövlətçilik rəmzləri vətənə qaytarıldı.

1920-ci il Aprel işğalı nəticəsində Azərbaycan Xalq Cümhuriyyəti süqut etdi və Azərbaycanda sovet hakimiyyəti quruldu. Milli dövlətçiliyi tərənnüm edən bütün atribut və rəmzlər - parlament, ordu, pul vahidi, dövlətçilik rəmzləri ləğv olundu. Hətta dövlətin adı da dəyişdirilərək Azərbaycan Sovet Sosialist Respublikası qoyuldu. Əvəzində Azərbaycanda qondarma sovet atribut və rəmzləri təşkil edildi. Azərbaycan SSR üçün yaradılan bayraq qırmızı parça üzərində 5-güşəli ulduz, çəkic və oraq təsvirlərindən ibarət idi. Bu elementlər digər sovet respublikalarının bayraqlarında da var idi. Azərbaycanı fərqləndirmək üçün onun bayrağının aşağı kənarına göy zolaq çəkilmiş və bu zolağın Xəzər dənizinin rəmzi olması bildirilmişdir. Qeyd etmək lazımdır ki, sövet dövründə Azərbaycanın Dövlət bayrağının ilkin layihələrində ərəb, daha sonra latın, sonda kiril əlifbası ilə verilmiş yazı olmuşdur. Azərbaycan SSR bayrağına baxanda onu digər respublikalardan fərqləndirən cəhətin yalnız Xəzərin sahilində yerləşməsindən ibarət olması anlaşılırdı. Zəhmətkeşlərin qanını, Xəzərin sularını, fəhlə və kəndlinin əməyini bildirən bu bayraq mahiyyət etibarı ilə Azərbaycan xalqına zidd idi, onun tarixi, dini- mədəni irsi, dünyagörüşü barəsində məlumat vermirdi.

1918-ci il noyabrın 9-da qəbul olunan və 1920-ci ilin aprel ayınadək dövlət statusuna malik olmuş Azərbaycan Respublikasının üçrəngli Dövlət bayrağı 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə keçirilən sessiyada Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı olaraq təsdiq edilmişdir. 1991-ci il fevralın 5-də Azərbaycan Respublikasının Ali Soveti "Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında" Qanun qəbul edərək onu Dövlət bayrağı elan etmişdir.

Vətənin suverenliyinin və ərazi bütövlüyümüzün qorunması ilə bağlı ali missiyanı öz üzərinə götürərkən Azərbaycan əsgərinin and içdiyi, Azərbaycan idmançılarının zəhməti və fədakarlığı nəticəsində idman arenalarında qaldırılan, dünyanın ən yüksək zirvələrində ucalan Dövlət bayrağımıza ehtiram göstərilməsi ölkə vətəndaşlarının müqəddəs borcudur. Məhz bu bayraq altında 1918 - 1920-ci illərdə Azərbaycan dövlətinin yaradılması və qorunması sovet məhbus düşərgələrində azadlıq mübarizəsi aparılmış, 20 Yanvar faciəsi və Qarabağ uğrunda gedən savaşlarda azərbaycanlılar öz canlarını əsirgəməmişlər.

Heraldikanın mühüm elementlərdən biri onun məqsədəuyğunluğu və məzmunluğudur. Bu məqamlar Azərbaycanın heraldika tarixinin öyrənilməsi və yeni Azərbaycan heraldikasının yaradılmasında mütləq nəzərə alınmalıdır. Dövrün, qarşıda dayanan vəzifələrin tələbi ilə milli heraldikanın daim təkmilləşməsi və yeniləşməsi aktualdır.





Hal-hazırda Azərbaycan dövlətçilik rəmzlərinin tarixinin öyrənilməsi üçün əlverişli şərait yaranmışdır. Birincisi, Azərbaycanın müstəqillik qazanması siyasi maneələri aradan qaldırmışdır. Milli rəmz və emblemlərin öyrənilməsinə Sovet hakimiyyəti illərində qoyulan rəsmi və qeyri-rəsmi qadağalar aradan qaldırılmış, eyni zamanda müstəqil Azərbaycanın öz orden və medalları, hərbi seçilmə nişanları və s. olan tələbat milli heraldik rəmzlərin öyrənilməsini mümkün və vacib etmişdir. İkincisi, beynəlxalq rəmz və emblemlərin öyrənilməsi sahəsində dünyada toplanmış təcrübə Azərbaycan heraldikasının nəzəri əsaslarını tərtib etməyə imkan verir. Üçüncüsü, Azərbaycan elminin indiyədək topladığı materialları milli rəmz və emblemlərini müəyyən etməyə, onların mənalarını izah etməyə imkan verir. Aydındır ki, qədim dövlətçilik ənənələrinə malik olan Azərbaycanın rəmz və emblemlərinin öz tarixi və nəzəriyyəsi mövcud olmuşdur. Ən əsası, Azərbaycanın dövlət rəmzlərinin öyrənilməsi və təbliği Azərbaycan Respublikasının rəhbərliyinin daim diqqət mərkəzindədir. Belə ki, yenidən bərpa edilmiş üçrəngli Azərbaycan bayrağı haqqında ümummilli liderimiz Heydər Əliyev və Prezident İlham Əliyev bir neçə mühüm dövlət sənədi imzalamışlar. Ulu öndərin imzaladığı "Azərbaycan Respublikasının dövlət atributlarının təbliği işinin gücləndirilməsi haqqında" 13 mart 1998-ci il tarixli sərəncam, "Azərbaycan Respublikası Dövlət bayrağının istifadəsi qaydaları haqqında Azərbaycan Respublikasının Qanunu" (8 iyun, 2004-cü il), Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2007-ci il noyabrın 17-də imzaladığı "Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində Dövlət bayrağı meydanının yaradılması haqqında sərəncam, dövlət başçısının ötən il sentyabrın 15-də imzaladığı "Azərbaycan Respublikası Prezidentinin ştandartı (bayrağı) haqqında" fərman, müxtəlif silahlı qüvvələrinin bayraqlarının təsdiq edilməsi barədə qanunlar və dövlət sənədləri Azərbaycanda bayrağa göstərilən hörmətin və ehtiramın nümunəsidir.

Dövlətçilik rəmzlərinin tarixinin öyrənilməsi və təbliğatı dövlətdə daxili sabitliyin təmin edilməsində, gənc nəslin vətənpərvər tərbiyəsində, xalqın milli ideya ətrafında sıx birləşməsində böyük rol oynayır. Azərbaycan ərazisinin 20%-nin işğal edildiyi və ölkə müstəqilliyinə qarşı yönələn təhlükələrin hələ də mövcud olduğu bir dövrdə dövlətçiliyin möhkəmləndirilməsinə yönəlmiş praktiki addımlarla bərabər dövlətçiliyin tarixi ənənələrinin təbliğatı da olduqca vacibdir. Bayraq xalqın milli mədəniyyətinin bir hissəsidir və onun tarixinin öyrənilməsi təkcə dövlətçilik tarixini deyil, xalqın dini, mifoloji, simvolik təsəvvürlərini, etnoqrafik xüsusiyyətlərini araşdırmağa imkan verir. Dövlət bayrağından düzgün istifadə edilməsi ümumi mədəniyyətin bir hissəsidir. Mədəniyyət necə təbliğ edilirsə, Dövlət Bayrağı anlayışı, ona münasibət də elə təbliğ edilməlidir.



# ƏLAVƏLƏR

## I. Azərbaycan Bayrağına həsr olunmuş şerlər

### AL BAYRAĞA[189]

*Əhməd Cavad*

Gül rəngində bir bayrağın,
Ortasında bir hilal.
Ey al bayraq, sənin rəngin,
Söylə neçün böylə al?

Hakim olub bir torpağa,
Ona etmək böylə naz,
Səndən başqa bir gözələ
Söylə, neçün yakışmaz?

Bu bənzəyiş nədən gözüm,
Şəhidlərin qanına,
Vüfurunda can qoyanlar,
Neyçün qıyar canına?!

Yol üstündə dərdli niyə,
Görür səni, ağlamaz.
Sən öylə bir şersən ki,

[189] - Əhməd Cavadın bu şeri Azərbaycan Xalq Cümhuriyyətinin ilk bayrağı olan 21 iyun 1918-ci il tarixində tərtib edilmiş bayrağına həsr olunub.// Cavad Ə. Haqq bağıran səs. B.,1991, s.9.

Sevməyənlər anlamaz!
Ey dalğalı bayrağımın,
O dalğalı duruşu.
Sandım salam rəsmi sana,
Buludların yürüşü!
Sən ey hilal al qoynuna,
Aydın göydən yıldızı.
Məftun etdin sən kəndinə,
Ən sevdalı bir qızı!

*24 sentyabr 1919, Bakı.*

## AZƏRBAYCAN BAYRAĞINA[190]

*Əhməd Cavad*

Türküstan elləri öpüb alnını,
Söyləyir dərdini sana, bayrağım!
Üç rəngin əksini Quzğun dənizdən,
Ərməğan yolla sən yara, bayrağım!

Gedərkən Turana çıxdın qarşıma,
Kölgən dövlət quşu, qondu başıma.
İzin ver gözümdə goşan yaşıma,
Dinlətsin dərdini ahə, bayrağım!

Qayıxan soyundan aldığın rəngi,
Qucamış (Ilxan)la müsəlman bəgi.
(İlxan)ın övladı, dinin dirəgi,
Gətirdin könlümə səfa, bayrağım!
Köksümdə tufanlar gəldim irəli,
Ölüm kölgən düşən mübarək yeri.
Allahın yıldızı, o gözəl pəri,
Sığınmış qoynunda aya, bayrağım!..

[190] - Cavad Ə. Haqq bağıran səs. B.,1991, s.10.



Ingilislərin Bakıya gəlişindən sonra birinci dəfə Bakıya getdiyim vaxt 10 nisan 1919-da parlaman binası üzərində
dalğalanan milli bayrağa söylənmişdir.

## AZƏRBAYCAN BAYRAĞI[191]

*Cəfər Cabbarlı*

Buraxınız seyr edəyim, düşünəyim, oxşayayım,
Şu sevimli üç boyalı, üç mənalı bayrağı
Mələklərin qanadımı üzərimə kölgə salan?
Nə imiş bu, aman Allah?! Od yurdunun yarpağı!
Göy yarpaqlı, al çiçəkli, yaşıl otlar topasımı?
Xayır, xayır! Çiçək solur, otlar yerdə tapdanır.
Fəqət bizim bayrağımız ucaları pək seviyor
Yıldızlardan, hilaldan da yüksəklərdə fırlanıyor.
Kölgəsində ay əyilib bir gözəli quçmada.
Quçaşaraq sevdiyilə yüksəklərə uçmada,
Şu görünüş bir ananın şəfqətinə oxşayır.
Düşündükcə zövqlərimi, vicdanımı oxşayır.
Bu ay, yıldız, boyaların qurultayı nə demək?
Bizcə böylə sevilmək!
Bu göy boya Göy Moqoldan qalmış bir türk nişanı,
Bir türk oğlu olmalı!
Yaşıl boya islamlığın sarsılmayan imanı,
Ürəklərə dolmalı!
Şu al boya azadlığın, təcəddüdünfərmanı,
Mədəniyyət bulmalı.
Səkkiz uçluşu yıldız da səkkiz hərfli OD YURDU
Əsarətin gecəsindən fürsət bulmuş quş gibi,
Səhərlərə uçmuşdur

[191] - Əliyev I., Maharramov E. Azarbaycan Respublikasının dövlət ramzları. Bakı, 2000, s.10.

Şu hilal da türk bilkisi, düzgün sevgi nişanı,
Yurdumuzu quçmuşdur!
Allah, əməllərim edib şu bayrağı intiqal,
Birər-birər doğru olmuş, bir ad almış: ISTIQLAL!
Yürəyimdə bir dilək var, o da doğru kəsilsin,
O gün olsun bir göy bayraq Turan üstə açılsın.

## BAYRAQ[192]

*Bəxtiyar Vahabzadə*

Torpağın üstünə kölgələr salan,
Mənim varlığımın cilası-baryaq!
Zəfərdən doğulmuş Göytürkdən qalan,
Qurdbaşlı bayrağın balası bayraq!
Üçrəngli bayrağın kölgəsində mən,
Qaraca torpağı Vətən görmüşəm,
Zəfər güllərini dövri-qədimdən,
Bayraq işığında bitən görmüşəm.
Bayraq mənliyimdir, bayraq kimliyim,
Bayraq -öz yurduma öz hakimliyim.
Harda əcdadımın ayaq izi var,
Bu zəfər bayrağım orda dikəlsin.
Keçdiyi yerlərdə dağlar, yamaclar,
Onun hüzuruna salama gəlsin.
Tarixdən qədimdir, zamandan qoca,
Mənim bayrağıma sancılan hilal.
Aləmə nur saçdı tarix boyunca,
Məbədlər başına tac olan hilal.
Daim ucalasan! Savaş günündə
Əsgər silahıyla səni tən görüm,
Yalnız zəfər çalmış şəhid önündə,
Səni alqış üçün əyilən görüm

*1998*

[192] - Mərdanov M., Quliyev Ə. Azərbaycan Respublikasının dövlət rəmzləri. B., 2001, s. 257.





## II. Azərbaycan Xalq Cümhuriyyəti dövründə Dövlət Bayrağına aid qanunlar

### AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ NAZİRLƏR ŞURASININ DÖVLƏT BAYRAĞI HAQQINDA QƏRARI[193]

Постановление
об установлении государственного
флага Азербайджанской Республики

21 июня 1918 г.,
г. Гянджа

Признать флагом Азербайджана флаг, изготовленный из красной материи с изображением белого полумесяца и белой восьмигранной звезды на красном фоне.

[193] - Азербайджанская Демократическая Республика (1918-1920). Законодательные акты (Сборник документов). Баку, 1998, с.188.



### AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ NAZİRLƏR ŞURASININ MİLLİ BAYRAĞI HAQQINDA QƏRARI[194]

Постановление
о национальном флаге
Азербайджанской Республики

9 ноября 1918 г.,
г.Баку

Национальным флагом признать флаг, состоящий из зеленого, красного и голубого цветов с белым полумесяцем и восьмигранной звездой.

[194] - Там же, с. 250.

## III. Azərbaycan Respublikası Dövlət Bayrağına aid normativ aktlar

### NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN BİRİNCİ SESSİYASI HAQQINDA MƏLUMATDAN ÇIXARIŞ

1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Sovet Sosialist Respublikası Ali Sovetinin birinci sessiyası öz işinə başlamışdır. Sessiyanı Naxçıvan Muxtar Respublikasının xalq deputatları seçkiləri üzrə Mərkəzi seçki komissiyasının sədri S.A.Əsədov açmışdır.

Ali Məclisin birinci sessiyası ilk Azərbaycan Respublikasının rəmzi olan üçrəngli Dövlət bayrağının bərpa edilməsi, onun Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul edilməsi haqqında yekdilliklə qərar qəbul etmişdir.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Azərbaycan SSR Ali Soveti qarşısında həmin bayrağın bütövlükdə Azərbaycanın rəsmi dövlət rəmzi kimi tanınması haqqında vəsadət qaldırmışdır....

*****

### AZƏRBAYCAN SSR PREZİDENTİNƏ, AZƏRBAYCAN SSR ALİ SOVETİNİN SƏDRİNƏ, AZƏRBAYCAN SSR NAZİRLƏR SOVETİNİN SƏDRİNƏ, AZƏRBAYCAN SSR RƏSMİ MƏTBUAT VƏ İNFORMASİYA VASİTƏLƏRİNİN RƏHBƏRLƏRİNƏ

1990-cı il noyabrın 17-də Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan MSSR Ali Sovetinin sessiyası öz işinə başlamışdır. Sessiyada Naxçıvan MSSR-in adı və dövlət rəmzlərinin dəyişdirilməsi məsələsi qaldırılmışdır. Xalq deputatı Heydər Əlirza oğlu Əliyevin sədrliyi ilə keçən sessiya Azərbaycan Milli Dövlət dirçəlişi ideyasının həyata keçirilməsi yolunda yekdilliklə mühüm tarixi siyasi əhəmiyyəti olan qərar qəbul etmişdir:

1. Naxçıvan MSSR-in adı dəyişilib Naxçıvan Muxtar Respublikası adlandırılmış;



2. Naxçıvan MSSR Ali Sovetinin adı dəyişilib Naxçıvan Muxtar Respublikasının Ali Məclisi adlandırılmış;
3. Naxçıvan Muxtar Respublikasının bayrağı kimi Azərbaycan Demokratik Cümhuriyyətinin üçrəngli bayrağı qəbul olunmuş;

...

*Naxçıvan Muxtar Respublikasının Ali Məclisi,*
*19 noyabr 1990-cı il*

*****

### AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT BAYRAĞI HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Ali Soveti qərara alır:

1. Azərbaycan Respublikasının Dövlət bayrağının təsviri təsdiq edilsin.
2. Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında Əsasnamə təsdiq edilsin.
3. "Azərbaycan SSR-in Dövlət bayrağı haqqında Əsasnamənin təsdiq edilməsi barəsində" Azərbaycan SSR-i Ali Sovetinin Rəyasət Heyətinin 1966-cı il 5 may tarixli Fərmanı (Azərbaycan SSR qanunları toplusu. 1938-1966-cı illər, c.1, səh.221; Azərbaycan SSR Ali Sovetinin Məlumatı, 1981-ci il, №5-6, maddə 71, №12, maddə 161) qüvvəsini itirmiş hesab edilsin.

*Bakı şəhəri, 5 fevral 1991-ci il,*
*№17-XII*

## AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT BAYRAĞI HAQQINDA ƏSASNAMƏ

Azərbaycan Respublikasının
5 fevral 1991-ci tarixli
17-XII saylı qanunu ilə təsdiq
edilmişdir

**1.** Azərbaycan Respublikasının Dövlət bayrağı Azərbaycan Dövlətinin suverenliyi rəmzidir.

**2.** Azərbaycan Respublikasının Dövlət bayrağı eni bərabər olan rəngli üç üfüqi zolaqdan ibarət düzbucaqlı parça şəklindədir: üst zolaq mavi rəngdə, orta zolaq qırmızı rəngdə, aşağı zolaq yaşıl rəngdədir. Bayrağın hər iki üzündə qırmızı zolağın ortasında ağ rəngli aypara və səkkizguşəli ulduz təsviri vardır. Bayrağın eninin uzununa nisbəti 1:2-dir.

Ayparanın və səkkizguşəli ulduzun təsvirləri tərəflərinin nisbəti 3:4 olan düzbucaqlının içərisində yerləşir; düzbucaqlının diaqonal bayrağın eninin 1/2-nə bərabərdir.

Ayparanın təsviri konsentrik (eyni mərkəzli) olmayan iki dairənin hissələri şəklindədir: böyük dairənin diametri xarici düzbucaqlının eninə, kiçik dairənin diametri isə bayrağın eninin 1/4-nə bərabərdir. Kiçik dairənin mərkəzi bayrağın həndəsi mərkəzindən sol tərəfə, bayrağın eninin 1/60-ə bərabər olan məsafədə yerləşir.

Səkkiz guşəli ulduzun təsviri ayparadan sağda yerləşir, ulduzun xarici dairəsinin diametri bayrağın einin 1/6-ni, daxili dairəsinin diametri isə 1/12-ni təşkil edir.

Azərbaycan Respublikasının Dövlət bayrağı aşağıdakı yerlərdə qaldırılır:

a) Azərbaycan Respublikası Ali Sovetinin, Naxçıvan Muxtar Respublikasının Ali Sovetinin, Dağlıq Qarabağ Muxtar Vilayəti Xalq Deputatları Sovetinin, Azərbaycan Respublikası rayon, şəhər, şəhərdə rayon, qəsəbə və kənd xalq deputatları Sovetinin sessiyalarının keçirildiyi binaların üzərində-bütün sessiya dövründə;

b) Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Ali Sovetinin, Azərbaycan Respublikası Nazirlər Sovetinin, Naxçıvan Muxtar Respublikasının Ali Sovetinin və Nazirlər Sovetinin, Dağlıq Qarabağ Muxtar Vilayəti Xalq Deputatları Sovetinin və Azərbaycan Respublikası yerli xalq deputatları Sovetləri icraiyyə komitələrinin binaları üzərində-daim;

v) dövlət orqanlarının və ictimai orqanların, müəssisələrin, idarələrin və təşkilatların binaları, habelə yaşayış evləri üzərində-martın 8-də, martın 21-də, aprelin 28-də, mayın 1-də və 2-də, mayın 9-da, mayın 28-də, noyabrın 7-də.

Yuxarıda göstərilən binalar üzərində Azərbaycan Respublikasının Dövlət bayrağını bayram və xatirə günlərində də qaldırmağa icazə verilir;

q) Rəsmi şəxs sifəti ilə Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Ali Sovetinin, Azərbaycan Respublikası Nazirlər Sovetinin və ya digər rəsmi (vəkil edilmiş) şəxslərin mindikləri hava gəmilərində (Dövlət bayrağının gəmidə təsvirləri), dəniz gəmilərində, daxili su yollarında Üzən gəmilərdə və başqa nəqliyyat vasitələrində-göstərilən şəxslərin razılığı ilə;

d) Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Ali Soveti Sədrinin, Azərbaycan Respublikası Nazirlər Soveti Sədrinin təqdimatı ilə Azərbaycan Respublikasının Dövlət bayrağı dövlət orqanlarının, ictimai və dini orqanların, müəssisələrin, idarələrin və təşkilatların keçirdikləri mərasimlər zamanı, digər təntənəli və bayram tədbirləri zamanı da qaldırıla bilər.

**4.** Naxçıvan Muxtar Respublikasının Dövlət bayrağı Azərbaycan Respublikasının Dövlət bayrağı ilə bir vaxtda qaldırılarkən Naxçıvan Muxtar Respublikasının Dövlət bayrağının ölçüsü Azərbaycan Respublikasının Dövlət bayrağının ölçüsündən iri ola bilməz.

**5.** Azərbaycan Respublikasının Dövlət bayrağı və onun təsviri, ölçülərindən asılı olmayaraq bu Əsasnaməyə əlavə edilən rəngli və sxematik təsvirlərə həmişə dəqiq uyğun gəlməlidir.

**6.** Azərbaycan Respublikasının Gerbi və Himni kimi, Azərbaycan dövlətinin suverenliyi rəmzi olan Azərbaycan Respublikasının Dövlət bayrağı da müqəddəs rəmzdir və onun hər cür təhqir edilməsi qanuna əsasən cəzalandırılır.

**7.** Bu Əsasnamənin tətbiqi qaydalarını Azərbaycan Respublikasının Nazirlər Soveti qəbul edir.

*Azərbaycan Respublikası Prezidenti*
*Bakı şəhəri, 5 fevral 1991-ci il,*
*№ 17-XII*

## Azərbaycan Respublikasının Dövlət bayrağının istifadəsi qaydaları haqqında

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

**Maddə 1. Azərbaycan Respublikasının Dövlət bayrağına hörmət göstərilməsi ilə bağlı vəzifələr**

1.1. Azərbaycan Respublikasının vətəndaşları, habelə Azərbaycan Respublikasının ərazisində olan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının Dövlət bayrağına hörmətlə yanaşmalıdırlar.

1.2. Azərbaycan Respublikası onun ərazisindən kənarda Azərbaycan Respublikasının Dövlət bayrağı barədə təhqiredici hərəkətlərin qarşısının alınması məqsədi ilə beynəlxalq hüquq normalarına uyğun olaraq tədbirlər görür.

1.3. Azərbaycan Respublikası əhali arasında Azərbaycan Respublikası Dövlət bayrağının mahiyyətini və əhəmiyyətini geniş təbliğ olunması, gənc nəslin Azərbaycan Respublikası Dövlət bayrağına hörmət ruhunda tərbiyə edilməsi məqsədi ilə tədbirlər görür.

**Maddə 2. Azərbaycan Respublikası Dövlət bayrağının qaldırılmalı olduğu yerlər**

2.1. Azərbaycan Respublikasının Dövlət bayrağı Azərbaycan Respublikasının Prezident Sarayının və dövlət iqamətgahlarının üzərində, Azərbaycan Respublikası Milli Məclisinin, Azərbaycan Respublikası Nazirlər Kabinetinin, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin, Azərbaycan Respublikası Ali Məhkəməsinin, mərkəzi icra hakimiyyəti orqanlarının, Azərbaycan Respublikası Prokurorluğunun, Azərbaycan Respublikası Milli Bankının, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının, Azərbaycan Respublikası Hesablama Palatasının, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin, Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının, yerli icra hakimiyyəti orqanlarının binaları, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin yerləşdiyi binanın üzərində daimi qaldırılır.

2.2. Azərbaycan Respublikasının Dövlət bayrağı Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluqlarının binaları üzərində, habelə Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluqlarının başçılarının iqamətgahları üzərində beynəlxalq hüquq normalarına və diplomatik protokol qaydalarına uyğun olaraq qaldırılır.



2.3. Azərbaycan Respublikasının Dövlət bayrağı Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsinə uyğun olaraq Azərbaycan Respublikasının gəmi reyestrlərindən birində qeydiyyata alınmış gəmilərin üzərində qaldırılır.

2.4. Azərbaycan Respublikasının Dövlət bayrağı Azərbaycan Respublikasının sərhəd nəzarət-buraxılış məntəqələrinin və sərhəd zastavalarının binaları üzərində daimi qaldırılır.

2.5. Azərbaycan Respublikasının Dövlət bayrağı Azərbaycan Respublikasının Silahlı birləşmələrinin hərbi hissə və hərbi gəmilərində aşağıdakı hallarda qaldırılır:

2.5.1. Azərbaycan Respublikasının bayram günlərində;

2.5.2. hərbi andiçmə mərasimində;

2..5.3. hərbi hissələrə və ya hərbi gəmilərə dövlət mükafatları təqdim edildikdə;

2.5.4. hərbi hissələr (bölmələr) və ya hərbi gəmilər xarici dövlətin ərazisində (ərazi sularında) olduqda.

2.6. Azərbaycan Respublikasının Dövlət bayrağı Azərbaycan Respublikası Silahlı Qüvvələrinin və başqa silahlı birləşmələrinin hərbi hissələrində onların qərargahlarının binalarında, hərbi gəmilərində isə Hərbi Dəniz Qüvvələrinin Gəmi nizamnamələrinə uyğun olaraq qaldırılır.

2.7. Xarici dövlətin bayrağı altında üzən gəmi Azərbaycan Respublikasının daxili sularında üzərkən və ya Azərbaycan Respublikasının limanında dayanarkən öz bayrağı ilə yanaşı beynəlxalq dəniz adətlərinə uyğun olaraq Azərbaycan Respublikasının Dövlət bayrağını da qaldırmalıdır.

**Maddə 3. Azərbaycan Respublikası Dövlət bayrağının yerləşdirilməli olduğu yerlər**

3.1. Azərbaycan Respublikasının Dövlət bayrağı Azərbaycan Respublikası Milli Məclisinin iclas salonunda, Azərbaycan Respublikası Prezidentinin iş otağında, habelə Azərbaycan Respublikası Prezidentinin iştirakı ilə rəsmi tədbirlərin keçirilməsi üçün nəzərdə tutulan salonlarda və otaqlarda, Azərbaycan Respublikası məhkəmələrinin iclas salonunda, Azərbaycan Respublikası Milli Məclisi sədrinin, Azərbaycan Respublikası Baş nazirinin, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi sədrinin, Azərbaycan Respublikası Ali Məhkəməsi sədrinin, Azərbaycan Respublikası Baş Prokurorunun, mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin, Azərbaycan Respublikası diplomatik nümayəndəlikləri və konsulluqları başçılarının, Azərbaycan Respublikası Milli Bankı İdarə Heyəti sədrinin, Azərbaycan

Respublikası Mərkəzi Seçki Komissiyası sədrinin, Azərbaycan Respublikası Hesablama Palatası sədrinin, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin, Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin, Naxçıvan Muxtar Respublikası Baş nazirinin, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi sədrinin, Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin, Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluqlarının başçılarının iş otaqlarında daimi yerləşdirilir.

3.2. Azərbaycan Respublikasının Dövlət bayrağı Azərbaycan Respublikası Prezidentinin, dövlət nümayəndə heyəti rəhbərlərinin, xidməti vəzifələrini yerinə yetirərkən diplomatik nümayəndəliklərin və konsulluqların rəhbərlərinin nəqliyyat vasitələri üzərində yerləşdirilir.

3.3. Azərbaycan Respublikasının Dövlət bayrağı qanunvericilikdə müəyyənləşdirilmiş hallarda və qaydada andiçmə mərasimi keçirilən yerlərdə yerləşdirilir.

### Maddə 4. Azərbaycan Respublikası Dövlət bayrağının təsvirinin istifadəsi

4.1. Azərbaycan Respublikasının Dövlət bayrağının təsviri beynəlxalq uçuşları həyata keçirən qanunvericilikdə müəyyənləşdirilmiş hallarda və qaydada andiçmə mərasimi keçirilən yerlərdə yerləşdirilir.

4.2. Azərbaycan Respublikası Dövlət bayrağının təsviri Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti sərhəd gəmilərinin və qayıqlarının fərqləndirici nişanı kimi istifadə olunur.

4.3. Azərbaycan Respublikası Dövlət bayrağının təsviri Azərbaycan Respublikası dövlət mükafatlarının, habelə qanunvericilikdə nəzərdə tutulmuş hallarda rəsmi döş nişanlarının elementi kimi istifadə edilir.

### Maddə 5. Azərbaycan Respublikası Dövlət bayrağının digər yerlərdə istifadəsi

5.1. Azərbaycan Respublikası Dövlət bayrağı yerli özünüidarə orqanlarının, qeyri-hökümət təşkilatlarının, müəssisələrin və idarələrin binaları, habelə yaşayış evləri üzərində qaldırıla (asıla) bilər.

5.2. Azərbaycan Respublikasının Dövlət bayrağının yerli özünüidarə orqanları, qeyri-hökümət təşkilatları, siyasi partiyalar, müəssisə və idarələr tərəfindən keçirilən tədbirlər zamanı qaldırıla (asıla) və ya yerləşdirilə bilər.

5.3. Dərs ilinin birinci günü təhsil müəssisələrində Azərbaycan Respublikasının Dövlət bayrağı qaldırılı (asılır) və ya yerləşdirilir.



### Maddə 6. Azərbaycan Respublikası Dövlət bayrağının rəsmi tədbirlər zamanı istifadəsi

6.1. Azərbaycan Respublikasının Dövlət bayrağı dövlət hakimiyyət orqanları tərəfindən keçirilən rəsmi tədbirlər və mərasimlər zamanı qaldırılır (asılır) və ya yerdəşdirilir.

### Maddə 7. Azərbaycan Respublikası Dövlət bayrağının matəm günlərində və matəm mərasimlərində istifadəsi

7.1. Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş və ya müvafiq icra hakimiyyəti orqanı tərəfindən elan olunmuş matəm günlərində Azərbaycan Respublikası Dövlət bayrağının dəstəyinin və ya dirəyinin yuxarı hissəsinə eni 10 santimetr olan qara lent bərkidilir və (və ya) Dövlət bayrağı bayraq dirəyinin yarısına qədər endirilir .

7.2. Azərbaycan Respublikasının vəfat etmiş (həlak olmuş) vətəndaşlarına hərbi ehtiram göstərilməsi ilə bağlı Azərbaycan Respublikası Dövlət bayrağının istifadəsi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

### Maddə 8. Azərbaycan Respublikası Dövlət bayrağının digər bayraqlarla birgə qaldırılması (asılması) və ya yerləşdirilməsi

8.1. Azərbaycan Respublikasının Dövlət bayrağı qeyri-hökümət təşkilatlarının, siyasi partiyaların, müəssisə və idarələrin bayraqları ilə birgə qaldırılırsa (asılırsa) və ya yerləşdirilirsə, həmin bayraqların ölçüsü Azərbaycan Respublikası Dövlət bayrağının ölçüsündən böyük ola bilməz.

8.2. Azərbaycan Respublikasının Dövlət bayrağı digər dövlətlərin Dövlət bayraqları, habelə beynəlxalq təşkilatların, siyasi partiyaların, qeyri-hökümət təşkilatlarının, müəssisə və idarələrin bayraqları ilə birgə qaldırılırsa (asılırsa) və ya yerləşdirilirsə, qarşıdan baxdıqda, Azərbaycan Respublikasının Dövlət bayrağı həmin bayraqlardan solda olmalıdır.

### Maddə 9. Azərbaycan Respublikası Dövlət bayrağının istifadəsinə dair tələblər

9.1. Azərbaycan Respublikasının Dövlət bayrağı və onun təsviri, onların ölçülərindən asılı olmayaraq, Azərbaycan Respublikasının Konstitusiyasında müəyyən edilmiş tələblərə uyğun olmalıdır.

9.2. Azərbaycan Respublikasının Dövlət bayrağının sənaye üsulu ilə hazırlanması, düzəldilməsi, rəngli təsvirinin çapı zamanı onun mavi rənginin "Panton" rənglər kataloqunun Blue 313 C rənginə, qırmızı rənginin - Red

185 C rənginə, yaşıl rənginin - Green 3405 C rənginə uyğunluğu təmin edilməlidir.

9.3. Azərbaycan Respublikasının Dövlət bayrağı bütöv olmalı və solğun görünməməlidir.

9.4. Azərbaycan Respublikasının Dövlət bayrağı ya bayraq dirəyi, ya da xüsusi tutqaclara bərkidilən dəstək üzərində qaldırılır.

9.5. Azərbaycan Respublikasının Dövlət bayrağı elə qaldırılmalıdır ki, onun parçasının aşağı tərəfi yerdən azı üç metr hündürlükdə olsun.

**Maddə 10. Azərbaycan Respublikası Dövlət bayrağının istifadəsinə dair məhdudiyyətlər**

Azərbaycan Respublikasının Dövlət bayrağı masaların və ya kürsülərin üstünə örtük kimi sərilə bilməz, oturulan və ya ayaq basılan yerlərə qoyula bilməz.

**Maddə 11. Azərbaycan Respublikası Dövlət bayrağı haqqında qanunvericiliyin pozulmasına görə məsuliyyət**

Azərbaycan Respublikasının Dövlət bayrağının bu Qanunun tələblərinə zidd istifadəsi, habelə Azərbaycan Respublikasının Dövlət bayrağı barədə təhqiredici hərəkətlər Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq məsuliyyətə səbəb olur.

**Maddə 12. Yekun müddəaları**

12.1. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

12.2. Bu qanun qüvvəyə mindiyi gündən 1991-ci il 5 fevral tarixli Azərbaycan Respublikasının Qanunu ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında» Əsasnamənin 3-cü, 4-cü, 6-cı və 7-ci bəndləri qüvvədən düşmüş hesab edilsin.

12.3. Azərbaycan Respublikasının Dövlət bayrağının qaldırılması (asılması), endirilməsi, saxlanılması və istehsalı qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 8 iyun 2004-cü il*



## Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində Dövlət bayrağı meydanının yaradılması haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikasının Dövlət bayrağı Dövlət gerbi və Dövlət himni kimi Azərbaycan Respublikasının müstəqilliyini təcəssüm etdirən rəsmi dövlət rəmzidir. Dövlət atributu olaraq Azərbaycan bayrağına ehtiram göstərilməsi ölkə vətəndaşlarının müqəddəs borcudur. Azərbaycan əsgəri Vətənin suverenliyinin və ərazi bütövlüyünün qorunması ilə bağlı ali missiyanı öz üzərinə götürərkən Dövlət bayrağına and içir. Dövlət bayrağının Azərbaycan Respublikasının dövlət qurumlarının və diplomatik nümayəndəliklərinin üzərində dalğalanması, ən mötəbər məclislərdə və mərasimlərdə, rəsmi tədbirlərdə və yarışlarda qaldırılması hər bir azərbaycanlının qəlbini qürur hissi ilə doldurur.

Azərbaycanın Dövlət bayrağı ilk dəfə Azərbaycan Xalq Cümhuriyyətinin 1918-ci il 9 noyabr tarixli qərarı ilə milli bayraq kimi qəbul edilmiş və 1920-ci ilin aprelinə qədər dövlət rəmzi kimi istifadə olunmuşdur. Tariximizin sovet dövründə o, Azərbaycan Sovet Sosialist Respublikasının bayrağı ilə əvəz edilmişdir.

Dağlıq Qarabağ ətrafında cərəyan edən ictimai-siyasi proseslər zamanı ziyalıların təşəbbüsü ilə Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı qeyri-rəsmi olaraq 1988-ci il noyabrın 17-də Bakıda indiki Azadlıq meydanında qaldırılmışdır. Rəsmi olaraq bu bayraq Azərbaycan ərazisində Naxçıvan Muxtar Respublikası Ali Sovetinin 1990-cı il 19 yanvar tarixli qərarı əsasında Naxçıvan Ali Sovetinin binası üzərində ucaldılmışdır. Həmin qərar səkkiz gün sonra Azərbaycan SSR Ali Soveti tərəfindən ləğv edilsə də, 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ümummilli lider Heydər Əliyevin sədrliyi ilə keçirilən sessiyasında Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul olunmuşdur. 1991-ci il fevralın 5-də Azərbaycan ictimaiyyətinin tələbi ilə Azərbaycan Respublikasının Ali Soveti Dövlət bayrağı haqqında Qanun qəbul edərək üçrəngli bayrağa Azərbaycan Respublikasının dövlət bayrağı statusunu vermişdir.

1991-ci il oktyabrın 18-də müvafiq Konstitusiya aktı ilə dövlət müstəqilliyini bərpa edən Azərbaycan Respublikası özünü Azərbaycan Xalq Cümhuriyyətinin varisi elan edərkən onun dövlət rəmzlərini, o cümlədənDövlət bayrağını qəbul etmişdir.

Azərbaycan Respublikasının Dövlət bayrağının Azərbaycan vətəndaşlarının milli həmrəyliyinin, vahid məfkurə ətrafında sıx birləşmələrinin başlıca amillə-

rindən biri olduğunu nəzərə alaraq və onun təbliğinin daim diqqət mərkəzində saxlanılmasını təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində Dövlət bayrağı meydanı yaradılsın.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.
3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti.**
*Bakı şəhəri,17 noyabr 2007-ci il.*



## Azərbaycan Respublikası Prezidentinin ştandartı (bayrağı) haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

1. "Azərbaycan Respublikası Prezidentinin ştandartının (bayrağının) təsviri" təsdiq edilsin (əlavə olunur).
2. Müəyyən edilsin ki:
   2.1. Azərbaycan Respublikası Prezidentinin ştandartı (bayrağı) Azərbaycan Respublikası Prezidentinin rəsmi simvoludur;
   2.2. Azərbaycan Respublikası Prezidentinin ştandartının (bayrağının) etalonu (orijinalı) Azərbaycan Respublikası Prezidentinin Azərbaycan Respublikasının Prezident sarayında yerləşən xidməti otağında saxlanılır;
   2.3. Azərbaycan Respublikası Prezidentinin ştandartının (bayrağının) dublikatı Azərbaycan Respublikasının Prezident sarayının və Azərbaycan Respublikası Prezidentinin iqamətgahlarının üzərində, Azərbaycan Respublikasının Prezident sarayında və Azərbaycan Respublikası Prezidentinin iqamətgahlarında Azərbaycan Respublikası Prezidentinin iştirakı ilə rəsmi tədbirlərin keçirilməsi üçün nəzərdə tutulan salonlarda və otaqlarda, Azərbaycan Respublikası Prezidentinin digər iqamətgahlarda olduğu müddətdə həmin iqamətgahların üzərində, Azərbaycan Respublikası Prezidentinin iştirakı ilə keçirilən rəsmi tədbir və digər mərasimlər zamanı həmin tədbirin keçirildiyi binanın üzərində və ya həmin tədbirin keçirildiyi salonda (otaqda), Azərbaycan Respublikası Prezidentinin nəqliyyat vasitələri üzərində qaldırıla (asıla) və ya yerləşdirilə bilər.
3. Bu Fərman imzalandığı gündən qüvvəyə minir.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 15 sentyabr 2008-ci il*
*№ 828*

**Azərbaycan Respublikası Prezidentinin**
**2008-ci il 15 sentyabr tarixli 828 nömrəli Fərmanı ilə**
**TƏSDİQ EDİLMİŞDİR**

## Azərbaycan Respublikası Prezidentinin ştandartının (bayrağının) təsviri

Azərbaycan Respublikası Prezidentinin ştandartının (bayrağının) ikiüzlü quması eni bərabər olan rəngli üç üfüqi zolaqdan ibarət kvadrat formasındadır. Azərbaycan Respublikasının Dövlət bayrağının rənglərinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin ştandartının (bayrağının) qumaşının yuxarı zolağı mavi rəngdə, orta zolağı qırmızı rəngdə, aşağı zolağı yaşıl rəngdədir. Azərbaycan Respublikası Prezidentinin ştandartının (bayrağının) qumaşının hər iki üzündə qırmızı zolağın ortasında Azərbaycan Respublikasının Dövlət gerbi təsvir edilmişdir.

Qumaş qızılı saçaqlarla haşiyələnmişdir.

Azərbaycan Respublikası Prezidentinin ştandartının (bayrağının) dirəyinin üzərinə Azərbaycan Respublikası Prezidentinin soyadı, adı, atasının adı və onun Azərbaycan Respublikasının Prezidenti seçildiyi müddəti əks etdirən tarixlər həkk olunmuş gümüş bənd bərkidilir.

Azərbaycan Respublikası Prezidentinin ştandartının (bayrağının) dirəyi aypara ilə səkkizguşəli ulduz tipli metal başlıqla örtülür.

Azərbaycan Respublikası Prezidentinin ştandartı (bayrağı) müxtəlif ölçülərdə ola bilər.



**Azərbaycan Respublikasının Dövlət bayrağı gününün təsis edilməsi haqqında**

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra Azərbaycanın Dövlət bayrağı milli suverenliyin simvolu kimi ölkəmizin bütün vətəndaşları üçün müqəddəs dövlətçilik rəmzlərindən birinə çevrilmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan bu bayraq bizim azadlıq məfkurəsinə, milli-mənəvi dəyərlərə və ümumbəşəri ideallara sadiqliyimizi nümayiş etdirir.

Azərbaycan Respublikasının Dövlət bayrağı 1918-ci il noyabrın 9-da Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin iclasında qəbul edilmiş və 1920-ci ilin aprel ayınadək dövlət statusuna malik olmuşdur. Həmin bayraq 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə keçirilən sessiyada Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı olaraq təsdiq edilmişdir. 1991-ci il fevralın 5-də Azərbaycan Respublikasının Ali Soveti "Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında" Qanun qəbul edərək onu Dövlət bayrağı elan etmişdir.

1991-ci il oktyabrın 18-də "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı ilə Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi onun dövlət rəmzlərini, o cümlədən Dövlət bayrağını bərpa etmişdir. 2004-cü il iyunun 8-də "Azərbaycan Respublikası Dövlət bayrağının istifadəsi qaydaları haqqında" Azərbaycan Respublikasının Qanunu ilə bu sahədə qanunvericilik bazası təkmilləşdirilmişdir.

Dövlət bayrağı respublikamızın dövlət qurumlarının və diplomatik nümayəndəliklərinin binaları üzərində ucalır, mühüm beynəlxalq tədbirlər, mötəbər mərasimlər və məclislərlə yanaşı, iri miqyaslı ictimai-siyasi toplantılarda, mədəni tədbirlərdə və idman yarışlarında qaldırılaraq milli birliyi təcəssüm etdirir. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində Dövlət bayrağı meydanının yaradılması haqqında" 2007-ci il 17 noyabr tarixli Sərəncamı Dövlət bayrağının dövlət rəmzləri sırasında xüsusi yerini müəyyən edir.

Azərbaycan Respublikasının Dövlət bayrağının ilk dəfə rəsmi surətdə 1918-ci il noyabrın 9-da qəbul edilməsini nəzərə alaraq, Azərbaycan Respublikasının

dövlət rəmzlərinə hörmət və ehtiramı təmin etmək məqsədi ilə qərara alıram:

1. Hər il noyabr ayının 9-u Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü kimi qeyd edilsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 17 noyabr 2009-cu il*



## IV. Azərbaycan Respublikası Silahlı Qüvvələrində mövcud olan bayraqlar

**(04.11.1997-ci il tarixində təsdiq edilib)[195]**

I Azərbaycan Respublikası SQ hərbi hissəsinin döyüş bayrağı
II Azərbaycan Respublikası Hərbi-Hava Qüvvələri bayrağı
III Azərbaycan Respublikası Hərbi-Dəniz bayraqları:

1. Azərbaycan Respublikası hərbi-dəniz bayrağı
2. Azərbaycan Respublikası hərbi-dəniz qüvvələrinin köməkçi gəmilərinin bayrağı
3. Hərbi gəmilərin vımpeli
4. Azərbaycan Respublikası SQ Ali Baş Komandanının bayrağı
5. Azərbaycan Respublikası Müdafiə Nazirinin bayrağı
6. Azərbaycan Respublikası hərbi-dəniz qüvvələri komandanının bayrağı
7. Azərbaycan Respublikası hərbi-dəniz qüvvələri qərargahı rəisinin bayrağı
8. Gəmilər birləşməsi komandirinin bayrağı
9. Gəmilər birləşməsi komandirinin freyd-vımpeli
10. Gəmilər diviziyonu komandirinin freyd-vımpeli
11. Reyd böyüyünün freyd-vımpeli

[195] - Azərbaycan Respublikası Müdafiə Nazirliyinin «Hərbi bilik» jurnalı, 1997, №6, səh.51-58.

# V. Azərbaycan Respublikası Prezidenti yanında Heraldika Şurası haqqında normativ aktlar

### Azərbaycan Respublikasının Prezidenti yanında Heraldika Şurasının yaradılması haqqında

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikasında heraldika sahəsində vahid dövlət siyasətinin hazırlanması və həyata keçirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Prezidenti yanında Heraldika Şurası yaradılsın.
2. "Azərbaycan Respublikasının Prezidenti yanında Heraldika Şurası haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur - 1 nömrəli əlavə).
3. "Dövlət heraldika reyestri haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur - 2 nömrəli əlavə).
4. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində: qüvvədə olan normativ hüquqi aktların bu Fərmana uyğunlaşdırılması barədə təklifləri hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin; öz səlahiyyətləri daxilində bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.
5. Bu fərman dərc edildiyi gündən qüvvəyə minir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 7 fevral 2006-cı il*



**1 №-li əlavə**
**Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 7 fevral tarixli 362 nömrəli Fərmanı ilə təsdiq edilmişdir**

### Azərbaycan Respublikasının Prezidenti yanında Heraldika Şurası haqqında ƏSASNAMƏ

**I. Ümumi müddəalar**

1. Azərbaycan Respublikasının Prezidenti yanında Heraldika Şurası (bundan sonra - Şura) Azərbaycan Respublikasında heraldika sahəsində vahid dövlət siyasətinin həyata keçirilməsi məqsədi ilə yaradılmışdır.
2. Şura öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını və bu Əsasnaməni rəhbər tutur.

**II. Şuranın fəaliyyət istiqamətləri**

3. Şuranın fəaliyyət istiqamətləri aşağıdakılardır: heraldika sahəsində dövlət siyasətinin hazırlanmasını və həyata keçirilməsini təmin edir; dövlət orqanları, idarə, müəssisə və təşkilatları, habelə yerli özünüidarəetmə orqanlarının rəsmi simvollarının və fərqləndirici nişanlarının qeydiyyatını həyata keçirir.

**III. Şuranın vəzifələri**

1. Bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq Şura aşağıdakı vəzifələri yerinə yetirir:

- heraldika sahəsində vəziyyəti öyrənmək və bu barədə mütəmadi olaraq Azərbaycan Respublikasının Prezidentini məlumatlandırmaq;
- fəaliyyət istiqamətinə uyğun olaraq qanunvericilik aktlarının hazırlanmasında və təkmilləşdirilməsində iştirak etmək;
- dövlət orqanları, idarə, müəssisə və təşkilatları, habelə yerli özünüidarəetmə orqanlarının rəsmi simvollarının və fərqləndirici nişanlarının qeydiyyatını həyata keçirmək məqsədi ilə Dövlət heraldika reyestrini tərtib etmək və aparmaq.

**IV.Şuranın hüquqları**

1. Şura öz vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqlara malikdir:

- heraldika sahəsində dövlət siyasətinin hazırlanmasına və həyata keçirilməsinə dair Azərbaycan Respublikasının Prezidentinə təkliflər hazırlamaq;
- fəaliyyət istiqamətlərinə uyğun olaraq normativ hüquqi aktların layihələrini hazırlamaq;
- öz səlahiyyətləri daxilində dövlət orqanlarına, idarə, müəssisə və təşkilatlarına, habelə *yerli özünüidarəetmə orqanlarına məlumatlar (sənədlər) barədə* sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;
- heraldika sahəsində xarici dövlətlərin müvafiq qurumları ilə əməkdaşlıq etmək və xarici təcrübəni öyrənmək;
- dövlət orqanlarının idarə, müəssisə və təşkilatlarının, habelə yerli özünüidarəetmə orqanlarının rəsmi simvolarının və fərqləndirici nişanlarının hazırlanması və istifadə edilməsinə dair tövsiyyələr hazırlamaq;
- fəaliyyət istiqamətlərinə uyğun təhlillər aparmaq, analitik informasiya yönümlü təkliflər, proqnozlar əks etdirən və digər məzmunlu arayışlar, rəylər və s. sənədlər hazırlamaq;
- heraldika sahəsində elmi-tədqiqat işlərinin, elmi-praktik müzakirələrin aparılmasını təşkil etmək;
- dövlət orqanlarının, idarə, müəssisə və təşkilatlarının, habelə yerli özünüidarəetmə orqanlarının əməkdaşlarını, müstəqil ekspert və mütəxəssisləri öz fəaliyyətinə cəlb etmək.

**V. Şuranın fəaliyyətinin təşkili**

1. Şuranın tərkibi Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilir və sədrdən, sədr müavinindən, katibdən və üzvlərdən ibarətdir.
2. Şuranın sədri, sədr müavini, katibi və üzvləri ictimai əsaslarla fəaliyyət göstərirlər.
3. Şuranın sədri:
   - Şuranın fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;
   - Şuranın iş planını təsdiq edir;
   - Şuranın iclaslarının keçirilmə vaxtını və yerini təyin edir, bu iclasların gündəliyini təsdiq edir və iclasları aparır;
   - Şuranın sədr müavininə, katibinə və üzvlərinə tapşırıqlar verir;
   - Şuranın sənədlərini imzalayır;
   - Şuranı təmsil edir.
4. Şuranın sədr müavini Şuranın qərarlarının icrasını təmin edir.
5. Şuranın üzvləri arasından Şuranın katibi seçilir. Şuranın katibi:



   - Şuranın iş planlarının, Şuranın iclaslarının gündəliyinin və bu iclaslarda müzakirəyə çıxarılması nəzərdə tutulan sənədlərin, Şuranın qərarl-layihələrinin, habelə Şuranın iclaslarının protokollarının hazırlanmasını təmin edir;
   - Şuranın üzvlərini Şuranın növbəti iclasının keçirilmə vaxtı və yeri barədə məlumatlandırır və onları zəruri materiallarla təmin edir;
   - dövlət orqanlarının, idarə, müəssisə və təşkilatlarının, habelə yerli idarəetmə orqanlarının rəsmi simvollarının və fərqləndirici nişanlarının Dövlət heraldika reyestrinə daxil edilməsini təsdiq edir.
6. Şuranın iclasları Şuranın sədrinin qərarı ilə müəyyən edilən tarixdə və yerdə keçirilir.
7. Şuranın qərarları Şuranın iclasında iştirak edən Şura üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir. Səslər bərabər olduqda Şuranın sədrinin səsi həlledici hesab edilir. Zərurət olduqda, Şuranın qərarları müvafiq dövlət orqanları, idarə, müəssisə və təşkilatlarına, habelə yerli özünüidarəetmə orqanlarına göndərilir.
8. Şuranın iclasları protokollarla rəsmiləşdirilir. Həmin protokollar Şuranın sədri və katibi tərəfindən imzalanır.
9. Şuranın fəaliyyətinin təşkilatı təminatı Azərbaycan Resbuplikası Prezidentinin Icra Aparatının Humanitar siyasət məsələləri şöbəsi, maddi-texniki təminatı Azərbaycan Respublikası Prezidentinin İşlər idarəsi tərəfindən həyata keçirilir.

**2 №-li əlavə**
**Azərbaycan Respublikası**
**Prezidentinin**
**2006-cı il 7 fevral tarixli**
**362 nömrəli Fərmanı ilə təsdiq**
**edilmişdir**

## Dövlət heraldika reyestri haqqında
## ƏSASNAMƏ

### I. Ümumi müddəalar

1. Bu əsasnamə Dövlət heraldika reyestrinin (bundan sonra - reyestr) tərtib edilməsi və aparılması məsələlərini tənzimləyir.
2. Reyestr dövlət orqanları, idarə, müəssisə və təşkilatlarının, habelə yerli özünüidaetmə orqanlarının (bundan sonra-təşkilat) rəsmi simvollarının və fərqləndirici nişanlarının sistemləşdirilməsi, habelə onların yaradılmasının və istifadə edilməsinin qaydaya salınması məqsədi ilə yaradılır.
3. Azərbaycan Respublikasında bütün təşkilatların rəsmi simvolları və fərqləndirici nişanları reyestrdə qeydiyyata alınmalıdır.
4. Təşkilatın rəsmi simvollarına və fərqləndirici nişanlarına təşkilatın bayraqları, gerbləri, emblemləri, təltifləri, habelə həmin təşkilatın əməkdaşlarının başqa təşkilatların əməkdaşlarından fərqləndirməyə imkan verən nişanları aiddir.

### II. Reyestrin tərtib édilməsi və aparılması

5. Reyestr Azərbaycan Respublikasının Prezidenti yanında Heraldika Şurası (bundan sonra-Şura) tərəfindən tərtib edilir və aparılır.
6. Təşkilat onun rəsmi simvollarının və fərqləndirici nişanlarının reyestrdə qeydiyyata alınması üçün Şuraya rəsmi müraciət edir.
7. Bu Əsasnamənin 6-cı bəndinə nəzərdə tutulan müraciətə aşağıdakı sənədlər əlavə edilir.
   - təşkilatın rəsmi simvollarının və fərqləndirici nişanlarının qrafik və sözlə təsviri: təşkilatın rəsmi simvollarının və fərqləndirici nişanlarının Şuraya təqdim edilən formada təsdiq edilməsi haqqında təşkilatın qərarı; təşkilatın zəruri hesab etdiyi digər sənədlər.
8. Şura zərurət olduqda təşkilatdan rəsmi simvollar və fərqləndirici nişanlar ilə bağlı tarixi arayışlar, həmin simvolların və nişanların və ya onların ayrı-ayrı



elementlərinin izahını (şərhini), habelə zəruri hesab etdiyi digər məlumatları tələb edə bilər.

9. Təqdim edilən materialları araşdırdıqdan sonra Şura aşağıdakı qərarlardan birini qəbul edir:
   - təşkilatın rəsmi simvollarının və fərqləndirici nişanlarının reyestrdə qeydiyyata alınması barədə;
   - təşkilatın rəsmi simvollarının və fərqləndirici nişanlarının reyestrdə qeydiyyata alınmasından imtina edilməsi barədə;
   - təşkilatın rəsmi simvollarının və fərqləndirici nişanlarının reyestrdə qeydiyyata alınmasından dayandırılması barədə;
10. Bu Əsasnamənin 9.1-ci bəndində nəzərdə tutulan qərara uyğun olaraq təşkilatın rəsmi simvolları və fərqləndirici nişanları onların qrafik və sözlə təsvirinin reyestrə daxil edilməsi vasitəsi ilə qeydiyyata alınır.
11. Təşkilatın rəsmi simvolları və fərqləndirici nişanlarının reyestrdə qeydiyyata alınması Şuranın katibinin imzası və üzərində Azərbaycan Respublikasının Dövlət gerbi həkk olunmuş möhür ilə təsdiq edilir.
12. Təşkilatın rəsmi simvolları və fərqləndirici nişanlarının reyestrdə qeydiyyata alınması reyestrdən verilən çıxarışla təsdiq edilir. Çıxarışa təşkilatın reyestrdə qeydiyyata alınmış rəsmi simvolunun və fərqəlndirici nişanın qrafik və sözlə təsviri əlavə edilir.

    Reyestdən çıxarış bu Əsasnamənin 9.1-ci bəndində nəzərdə tutulan qərar qəbul edildikdən sonra ən geci on beş gün müddətində maraqlı təşkilata göndərilir (təqdim edilir).
13. Əgər reyestrdə qeydiyyata alınması xahiş edilən rəsmi simvollar və fərqləndirici nişanlarla tamamilə eyni və ya çox oxşar qrafik və sözlə təsvirə malik olan rəsmi simvollar və fərqləndirici nişanlar artıq qeydiyyatdadırsa və ya belə simvolların və ya nişanların reyestrdə qeydiyyata alınması barədə Şuraya zaman baxımından daha tez edilmiş müraciət mövcuddursa, bu Əsasnamənin 9.2-ci bəndində nəzərdə tutulan əsaslandırılmış qərar qəbul edilir.
14. Şura təşkilatının reyestrdə qeydiyyata alınması xahiş edilən rəsmi simvollarının və fərqləndirici nişanlarının qrafik və ya (və ya) sözlə təsvirində müəyyən dəyişiliklərin aparılması məqsədəuyğun hesab edildikdə və ya bu Əsasnamənin 8-ci bəndi ilə müəyyən edilmiş hallar mövcud olduqda bu Əsasnamənin 9.3-cü bəndində nəzərdə tutulan qərar qəbul edilir.

    Bu qərarda onun qəbul edilmə səbəbləri konkret əsaslandırılmalıdır. Şura həmin qərara öz tövsiyyələrini daxil edə bilər.

    Maraqlı təşkilat qərarda göstərilənləri nəzərə aldıqdan sonra bu Əsasnamə-

nin 6-cı və 7-ci bəndləri ilə müəyyən edilmiş qaydada yenidən Şuraya müraciət etmək hüququna malikdir.

15. Bu Əsasnamənin 9.2-ci və 9.3-cü bəndlərində nəzərdə tutulan qərarların surətləri həmin qərarlar qəbul edildiyi gündən ən geci yeddi gün müddətində maraqlı təşkilata göndərilməlidir (təqdim edilməlidir).

**III. Yekun müddəalar**

16. Reyestrdə qeydiyyata alınmamış rəsmi simvolların və fərqləndirici nişanların Azərbaycan Respublikasının ərazisində istifadə edilməsinə yol verilmir.
17. Bu Əsasnamənin pozulmasında təqsirli olan şəxslər qanunvericilikdə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.



## Azərbaycan Respublikası Prezidenti yanında Heraldika Şurasının tərkibinin təsdiq edilməsi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Prezidenti yanında Heraldika Şurasının fəaliyyətini təmin etmək məqsədi ilə qərara alıram:

**1.** Azərbaycan Respublikası Prezidenti yanında Heraldika Şurasının aşağıdakı tərkibi təsdiq edilsin

**Şuranın sədri**

| | |
|---|---|
| Mehdiyev Ramiz Ənvər oğlu | - Azərbaycan Respublikası Prezidenti İcra Aparatının rəhbəri |

**Şuranın sədr müavini**

| | |
|---|---|
| Kərimov Mahmud Kərim oğlu | - Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti |

**Şuranın üzvləri**

| | |
|---|---|
| Abdullayev Kamal Mehdi oğlu | - Azərbaycan Mədəniyyət Fondunun sədri |
| Abdullazadə Fatma Hüseyn qızı | - Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının Humanitar siyasət məsələləri şöbəsinin müdiri |
| Bağırov Elçin Tələt oğlu | - Azərbaycan Respublikası Prezidentinin Protokol xidmətinin rəisi |
| Eldarov Ömər Həsən oğlu | - Azərbaycan Rəssamlıq Akademiyasının rektoru |
| Əliyev Şahin Məhərrəm oğlu | - Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının Qanunvericilik və hüquq ekspertizası məsələləri şöbəsinin müdiri |
| Xəlilov Fərhad Qurban oğlu | - Azərbaycan Rəssamlar İttifaqının sədri |

| | |
|---|---|
| İbrahimbəyov Maqsud Məmmədibrahim oğlu | - xalq yazıçısı |
| Qarayev Əbülfəz Mürsəl oğlu | - Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri |
| Mahmudov Yaqub Mikayıl oğlu | - Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunun direktoru |
| Məmmədov Tokay Həbib oğlu | - xalq rəssamı |
| Məmmədova Gülçöhrə Hüseyn qızı | - Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru |
| Nəbiyev Bəkir Əhməd oğlu | - Azərbaycan Milli Elmlər Akademiyasının Ədəbiyyat İnstitutunun direktoru |
| Salahov Tahir Teymur oğlu | - xalq rəssamı |
| Vəlixanlı Nailə Məmmədəli qızı | - Azərbaycan Tarixi Muzeyninin direktoru |

**2.** Bu sərəncam dərc edildiyi gündən qüvvəyə minir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 7 fevral 2006-cı il,*
*№ 1274*



# VI. Azərbaycan Respublikasının normativ aktları ilə dövlət rəmzlərinin aliliyinin qorunması

## AZƏRBAYCAN RESPUBLİKASININ CİNAYƏT MƏCƏLLƏSİ

(30.12. 1999-cu il Azərbaycan Respublikasının Qanunu ilə təsdiq edilmişdir; 01.10.2001-ci ilədək olan dəyişikliklərlə)

**Maddə 42. Cəzanın növləri**

42.0. Cəzanın növləri aşağıdakılardır:

42.0.1. cərimə;

42.0.2. nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə;

42.0.3. müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə;

42.0.4. ictimai işlər;

42.0.5. xüsusi və ya hərbi rütbədən, fəxri addan və dövlət təltifindən məhrum etmə;

**Maddə 48. Xüsusi və ya hərbi rütbədən, fəxri addan və dövlət təltifindən məhrum etmə**

Ağır və ya xüsusilə ağır cinayət törətmiş şəxsin məhkum olunması zamanı məhkəmə cinayətin xarakterini, təqsirkarın şəxsiyyətini və işin digər hallarını nəzərə alaraq onun xüsusi və ya hərbi rütbədən, fəxri addan və dövlət təltifindən məhrum edilməsinin zəruriliyi nəticəsinə gəldikdə, bu barədə xüsusi və ya hərbi rütbəni, fəxri adı və dövlət təltifini vermiş orqana müvafiq təqdimat göndərir.

**Maddə 116. Silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma**

116.0. Silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma, yəni:

116.0.1. mühüm dağıntılara səbəb ola bilən müharibə üsullarından istifadə etmə;

116.0.2. ətraf mühitə qəsdən geniş, uzun sürən və ciddi ziyan vurma;

116.0.3. sülh məramlı tədbirlərin həyata keçirilməsinə və ya humanitar yardımın göstərilməsinə cəlb olunmuş şəxsi heyətə, o cümlədən Qızıl Xaç və ya Qızıl Aypara fərqləndirici emblemləri olan heyətə, tikililərə, qurğulara, nəqliyyat vasitələrinə hücum etmə;

**Maddə 119. Müdafiə olunan nişanlardan sui-istifadə**

119.1. hərbi əməliyyat rayonunda Qızıl Xaç və ya Qızıl Aypara nişanlarını daşımaq hüququ olmayan şəxslər tərəfindən həmin nişanları daşıma, habelə müharibə zamanı Qızıl Xaç və Qızıl Aypara bayraqlarından və ya nişanlarından və ya sanitariya köçürmə nəqliyyat vasitələrinin rəngindən sui-istifadə etmə - Iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

119.2. Ağ bayraqdan, Birləşmiş Millətlər Təşkilatının bayraq, nişan və ya geyimlərindən, o cümlədən 1949-cu il tarixli Cenevrə Konvensiyaları ilə müdafiə olunan fərqləndirici nişanlardan sui-istifadə etmə, bu əməllər zərərçəkmiş şəxsin ölümünə və ya onun sağlamlığına ağır zərər vurulmasına səbəb olduqda - beş ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**Maddə 197. Əmtəə nişanlarından qanunsuz istifadə etmə**

197.1. Özgənin əmtəə və ya xidmət etmə nişanından, əmtəənin mənşə yerinin adından və eynicinsli əmtəələrin adına oxşar adlardan istifadə olunması təkrar törədildikdə və ya xeyli miqdarda ziyan vurduqda - Şərti maliyyə vahidi məbləğinin min mislindən beş min mislinədək miqdarda cərimə və ya bir ilədək müddətə islah işləri və ya bir ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

197.2. Eyni əməllər külli miqdarda ziyan vurduqda - Iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya eyni müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**Maddə 320. Rəsmi sənədləri, dövlət təltiflərini, möhürləri, ştampları, blankları saxtalaşdırma, hazırlama, satma və ya saxta sənədlərdən istifadə etmə**

320.1. Hüquq verən və ya vəzifədən azad edən vəsiqəni və ya digər rəsmi sənədi istifadə etmək məqsədi ilə saxtalaşdırma və ya bu cür sənədi satma, habelə eyni məqsədlə Azərbaycan Respublikasının saxta dövlət təltifini, ştampı, möhürü, blankı hazırlama və ya satma - üç ilədək



müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

320.2. Bu Məcəllənin 320.1-ci maddəsində göstərilmiş bilə-bilə saxta sənədlərdən istifadə etmə - Şərti maliyyə vahidi məbləğinin iki yüz mislindən beş yüz mislinədək miqdarda cərimə və ya səksən saatadək müddətə ictimai işlərlə və ya bir ilədək müddətə islah işləri və ya eyni müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**Maddə 324. Azərbaycan Respublikasının Dövlət bayrağı və ya Azərbaycan Respublikasının Dövlət gerbi barədə təhqiredici hərəkətlər**

Azərbaycan Respublikasının Dövlət bayrağı və ya Azərbaycan Respublikasının Dövlət gerbi barədə təhqiredici hərəkətlər - iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya bir ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**Maddə 325. Dövlət təltiflərini və rəsmi sənədi əldə etmə və ya satma**

Hüquq verən və ya vəzifədən azad edən rəsmi sənədləri, habelə Azərbaycan Respublikasının dövlət təltifini qanunsuz yolla əldə etmə və ya satma - şərti maliyyə vahidi məbləğinin üç yüz mislinədək miqdarda cərimə və ya bir ilədək müddətə islah işləri və ya altı ayadək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**Maddə 326. Rəsmi sənədləri, ştampları, möhürləri oğurlama və ya məhv etmə**

326.1. Rəsmi sənədləri, ştampları və ya möhürləri tamah məqsədi və ya digər şəxsi niyyətlə oğurlama, məhv etmə, zədələmə və ya gizlətmə - Şərti maliyyə vahidi məbləğinin beş yüz mislinədək miqdarda cərimə və ya bir ilədək müddətə islah işləri və ya bir ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya altı ayadək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

326.2. Vətəndaşın şəxsiyyət vəsiqəsini, pasportunu və ya digər mühüm şəxsi sənədini oğurlama - Şərti maliyyə vahidi məbləğinin üç yüz mislinədək miqdarda cərimə və ya bir ilədək müddətə islah işləri və ya eyni müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

## AZƏRBAYCAN RESPUBLİKASININ İNZİBATİ XƏTALAR MƏCƏLLƏSİ

(11.06. 2000-ci il Azərbaycan Respublikasının Qanunu ilə təsdiq edilmişdir)

**Maddə 74. Tarix və mədəniyyət abidələrinin qorunması və onlardan istifadə qaydalarının pozulması**

Tarix və mədəniyyət abidələrinin qorunması və onlardan istifadə qaydalarının pozulmasına görə - xəbərdarlıq edilir və ya minimum əmək haqqı məbləğinin on beş mislindən qırx mislinədək miqdarında cərimə edilsin.

**Maddə 173. Poçt markalarının və digər poçt ödəniş nişanlarının buraxılması və ya yayılması**

Poçt ödənişi nişanlarının (poçt markaları, markalı zərflər və açıqçalar) və digər poçt ödəniş nişanlarının və başqa filateliya əşyalarının qanunsuz olaraq *buraxılmasına və ya onların nəşri və dövriyəsi qaydalarının pozulmasına görə* -

İnzibatı xəta törədilməsinə səbəb olmuş poçt ödənişi nişanları və digər poçt ödəniş nişanları və başqa filateliya əşyaları müsadirə edilməklə və ya edilməməklə fiziki şəxslər minimum əmək haqqı məbləğinin iyirmi beş mislindən otuz beş mislinədək miqdarda, vəzifəli şəxslər minimum əmək haqqı məbləğinin altmış mislindən səksən mislinədək miqdarda, hüquqi şəxslər minimum əmək haqqı məbləğiinin iki yüz əlli mislindən üç yüz mislinədək miqdarda cərimə edilir.

**Maddə 190. Statistik məlumatların verilməsi qaydalarının pozulması**

Statistika müşahidələrinin keçirilməsi və ya uçot vahidlərinin dövlət reyestrinin aparılması üçün zəruri olan məlumatların təqdim edilməsinə və ya vaxtında təqdim edilməməsinə, yaxud hesabatların təhrif edilməsinə görə - minimum *əmək haqqı məbləğinin otuz beş mislindən əlli mislinədək miqdarda cərimə edilir.*

**Maddə 192. Arxiv sənədlərinin, sənəd kolleksiyalarının saxlanılması, qeydiyyatı və ya istifadə edilməsi qaydalarının pozulması**

Arxiv sənədlərinin, sənəd kolleksiyalarının saxlanılması, qeydiyyatı və ya istifadə edilməsi qaydalarının pozulmasına qörə - xəbərdarlıq edilir və ya fiziki şəxslər minimum əmək haqqı məbləğinin yeddi mislindən on mislinədək miqdarda, vəzifəli şəxslər minimum əmək haqqı məbləğinin qırx mislindən altmış mislinədək miqdarda cərimə edilir.



**Maddə 205. Əmtəə nişanlarından qanunsuz istifadə edilməsi**

Özgənin əmtəə və ya xidmət etmə nişanindan, əmtəənin mənşə yerinin adından və ya eynicinsli əmtəələrin adına oxşar adlardan istifadə olunmasına görə, bu az miqdarda ziyan vurduqda - fiziki şəxslər minimum əmək haqqı məbləğinin on mislindən on beş mislinədək miqdarda, vəzifəli şəxslər minimum əmək haqqı məbləğinin otuz beş mislindən altmış mislinədək miqdarda, hüquqi şəxslər minimum əmək haqqı məbləğinin yüz otuz mislindən yüz yetmiş mislinədək miqdarda cərimə edilir.

**Maddə 207. Qiymətli kağızların buraxılması (emissiyası) qaydalarının pozulması**

Qiymətli kağızların buraxılması (emissiyası) qeydiyyatı və yerləşdirilməsi qaydalarının pozulmasına görə - vəzifəli şəxslər xəbərdarlıq edilir və ya onlar minimum əmək haqqı məbləğinin əlli mislindən yetmiş mislinədək miqdarda, hüquqi şəxslər minimum əmək haqqı məbləğinin yüz əlli mislindən iki yüz mislinədək miqdarda cərimə edilir.

**Maddə 221. Reklam haqqında qanunvericiliyin pozulması**

221.1. Əmtəələr, işlər və xidmətlər haqqında, yaxud onların istehsalçıların (icraçıları, satıcıları) haqqında tamah məqsədilə bilə-bilə yalan məlumatlardan reklamda istifadə etməyə görə, bu az miqdarda ziyan vurduqda - fiziki şəxslər minimum əmək haqqı məbləğinin on beş mislindən iyirmi mislinədək miqdarında, vəzifəli şəxslər minimum əmək haqqı məbləğinin qırx mislindən əlli beş mislinədək miqdarda, cərimə edilir.

221.2. Azərbaycan respublikası müvafiq *icra hakimiyyəti orqanının razılığı olmadan* nəqliyyat vasitələrində reklamın yazılmasına görə - fiziki şəxslər minimum əmək haqqı məbləğinin üç mislindən on mislinədək miqdarda, vəzifəli şəxslər minimum əmək haqqı məbləğinin qırx mislindən əlli mislinədək miqdarda cərimə edilir.

**Maddə 222. Valyuta tənzimi qaydalarının pozulması**

222.1. Valyuta tənzimi haqqında Azərbaycan Respublikası qanunvericiliyini pozmaqla valyuta sərvətlərinin ictimai yerlərdə alınıb-satılmasına və ya dəyişdirməsinə görə - fiziki şəxslər minimum əmək haqqı məbləğinin iyirmi mislindən otuz mislinədək miqdarda, vəzifəli şəxslər minimum əmək haqqı məbləğinin qırx mislindən yetmiş mislinədək miqdarda cərimə edilir.

222.2. Valyuta sərvətlərinin ödəniş vasitəsi kimi qəbul edilməsinə görə - fiziki şəxslər minimum əmək haqqı məbləğinin on beş mislindən əlli mislinədək miqdarda, vəzifəli şəxslər minimum əmək haqqı məbləğinin əlli mislindən səksən mislinədək miqdarda cərimə edilir.

**Maddə 317. Dövlət standartlarının tələblərinə riayət edilməsinə dövlət nəzarətini həyata keçirən Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanlarının göstərişlərinin yerinə yetirilməməsi**

Məhsulların realizə edilməsinin (tədarükünün, göndərilməsinin), işlərin yerinə yetirilməsinin və xidmətlər göstərilməsinin dayandırılması və ya qadağan edilməsi haqqında dövlət standartlarının tələblərinə riayət edilməsinə dövlət nəzarətini həyata keçirən Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanlarının tələbnamələrinin və qərarlarının yerinə yetirilməsinə görə - minimum əmək haqqı məbləğinin iyirmi mislindən qırx mislinədək miqdarda cərimə edilir.

**Maddə 341. Dövlət təltifləri barəsində qanunsuz hərəkətlər**

Ordenin, medalın, fəxri ad döş nişanının və ya planka üzərində orden və medal lentlərinin buna huququ olmayan şəxs tərəfindən istifadəsinə, yaxud ordenin, medalın, fəxri ad döş nişanının qanunsuz saxlanılmasına görə - xəbərdarlıq edilir və ya minimum əmək haqqı məbləğinin səkkiz mislindən on mislinədək miqdarında cərimə edilir.

**Maddə 342. Qızıl Xaç və Qızıl Aypara nişanlarıdan qanunsuz istifadə etmə**

Qızıl Xaç və Qızıl Aypara nişanlarıdan istifadə etmək huququ olmayan şəxslər tərəfindən bu nişanlardan istifadə etməyə görə, bu hərəkətlər hərbi əməliyyatlar rayonunda edilmədikdə - fiziki şəxslər minimum əmək haqqı məbləğinin beş mislindən on mislinədək miqdarda, vəzifəli şəxslər minimum əmək haqqı məbləğinin otuz beş mislindən əlli beş misinədək miqdarda, hüquqi şəxslər minimum əmək haqqı məbləğinin yüz iyirmi mislindən yüz əlli mislinədək miqdarda cərimə edilir.

**Maddə 348. Möhürün (plombun) qəsdən zədələnməsi və qirilməsi**

Bu Məcəllənin 132.1, 139.2 və 147.2-ci maddələrində nəzərdə tutulmuş hallar istisna edilməklə, səlahiyyətli vəzifəli şəxs tərəfindən vurulmuş möhürün (plombun) qəsdən zədələnməsinə və ya qırılmasına görə - minimum əmək haqqı məbləğinin on beş mislindən iyirmi mislinədək miqdarında cərimə edilir.



## SİYASİ PARTİYALAR HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

**Maddə 7. Partiyanın adı**

Partiyanın adı, adının qısaldılmış şəkli və rəmzləri Azərbaycan Respublikasında qeydə alınmış digər partiyaların adından və rəmzlərindən fərqlənməlidir.

Partiyaların adı dəyişildikdə onlar bu Qanunla müəyyən edilmiş qaydada yenidən qeydə alınmalıdırlar.

*Bakı şəhəri, 3 iyun 1992-ci il,*
*№ 147*

## REKLAM HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

### I FƏSİL

"Sosial reklam" - qeyri- kommersiya xarakteri daşıyan Azərbaycan Respublikasının müstəqilliyi və dövlətçiliyinin möhkəmləndirilməsi istiqamətində görülən tədbirlərin, həyata keçirilən islahatların mahiyyətinin açıqlanması və geniş xalq kütləsinə çatdırılan, Azərbaycan Resiublikasının müstəqilliyinə qarşı biganəliyə qarşı barışmazlıq, milli, hərbi vətənpərvərlik, xeyriyyəçilik kimi milli ənənələri bərpa edən, əhalidə nikbinlik, gələcəyə inam, təmkinlik ovqatlarını formalaşdıran, siyasi, sanitariya, ekoloji mədəniyyət səviyyəsinin yüksəldilməsi məqsədi ilə dövlət orqanları, ictimai institutlar tərəfindən sifariş olunan və istənilən reklam daşıyıcıları ilə yayılan informasiya;

"reklam daşıyıcısı" - mülkiyyət formasından asılı olmayaraq, reklamın istehlakçıya bilavasitə çatdırılması üçün istifadə olunan (kütləvi informasiya vasitələri, kino, audio,video və nəşr məhsulları, stasionar, mobil və digər texniki qurğu və avadanlıqlar) istənilən vasitədir.

**Maddə 19. Sosial reklam**

1. Sosial reklam ictimai və dövlət maraqlarına xidmət edir və xeyriyyəçilik məqsədi daşıyır. Sosial reklamda kommersiya təşkilatlarının, fərdi iş adamlarının adları, onların əmtəələrinin kokret markaları, yeni zamanda qeyri-kommersiya təşkilatlarının sahibkarlıq fəaliyyəti nəticəsində istehsal olunmuş əmtəənin markaları (modelləri, artikulları) göstərilə bilməz.
2. Hüquqi və fiziki şəxslərin sosial reklamın istehsalı və yayımı sahəsində təmənnasız fəaliyyətləri, sosial reklam istehsal etmək ıə yaymaq üçün digər hüquqi şəxslərə ödəmələri xeyriyyəçilik hesab edilir və qanunvericilikdə nəzərdə tutulan güzəştlərə malikdir.
3. Reklam yayıcılar - kütləvi informasiya təşkilatları - reklam sifarişçisi tərəfindən təqdim olunan sosial reklamın yayımı üçün bu Qanunda nəzərdə tutulan efir vaxtının və reklam sahəsinin 5 faizi həcmində yer ayırmağa borcludurlar.

Reklam yayıcıları qeyri - kütləvi informasiya təşkilatlarının təqdim etdiyi illik xidmət qiymətinin 5 faizi qayəsində sosial reklamın yayımını təmin etməyə borcludurlar.



Reklam istehsalçısı özünün illik reklam istehsalının 5 faizi həcmində sosial reklamının istehsalına xidmət göstərməyə borcludur. Əgər reklam sifarişçisi reklam yayıcısına sosial reklamın yayımının vaxt və forması şərtlərini bir aydan gec olmayaraq müvafiq qaydada öz müraciətilə bildirmişsə, həmin sifarişin reklam yayıcısı tərəfindən təmin edilməsi zəruridir.

4. Sosial reklamın yerləşdirilməsinin və yayımının ödənişi müqavilə əsasında aparılır.
5. Sosial reklamın istehsalına, yerləşdirilməsinə, yayımına reklam istehsalçısı və reklam yayıcısı tərəfindən bu maddənin 3-cü bəndinin şərtlərindən kənar hər hansı bir maneə yaradıldıqda qanunvericiliklə müəyyən edilmiş qaydada məhkəməyə müraciət edilə bilər.

*Bakı şəhəri, 3 oktyabr 1997 - ci il,*
*№ 376 - IQ*

## TİCARƏT GƏMİÇİLİYİ MƏCƏLLƏSİ

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

**Maddə 8. Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzmək hüququ**

8.1. Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzmək hüququ Azərbaycan Respublikasının hüquqi və fiziki şəxslərinin, Azərbaycan Respublikasının dövlət və bələdiyyə mülkiyyətində olan gəmilərə verilir.

8.2. Müvafiq icra hakimiyyəti orqanının qərarı əsasında xarici dövlətin gəmi reyestrində qeydiyyata alınmış, berbout - çarterə (heyətsiz gəminin fraxtedilmə müqaviləsinə) əsasən Azərbaycan fraxtedəninin istifadəsinə və sahibliyinə verilmiş gəmilərə Azərbaycan Respublikasının Dövlət bayrağı altında müvəqqəti üzmək hüququ aşağıdakı hallarda verilə bilər:

8.2.1. berbout-çarter üzrə gəmini fraxtedən bu Məcəllənin 8.1-ci maddəsində göstərilən tələblərə cavab verdikdə;

8.2.2. gəmi mülkiyyətçisi gəminin Azərbaycan Respublikasının Dövlət bayrağı altına keçirilməsi barədə yazılı razılıq verdikdə;

8.2.3. gəmi mülkiyyətçisinin dövlətinin qanunvericiliyinə müvafiq olaraq müəyyənləşdirilmiş və qeydə alınmış gəminin ipotekasının və ya həmin xarakterli yüklü edilmənin girovsaxlayanı gəminin Azərbaycan Respublikasının Dövlət bayrağı altına keçirilməsi barədə yazılı razılıq verdikdə;

8.2.4. gəmi mülkiyyətçisinin dövlətinin qanunvericiliyi gəmiyə xarici dövlətin bayrağı altında üzmək hüququnun verilməsini qadağan etmədikdə;

8.2.5. gəmiyə Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzmək hüququ verilən anda gəminin xarici dövlətin bayrağı altında üzmək hüququ dayandırılıbsa və ya dayandırılacaqsa.

8.3. Gəmiyə Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzmək hüququ berbout - çarterin qüvvədəolma hüququnda iki ildən artıq olmayan müddətə, sonradan onun hər iki ildən bir uzadılması hüququ ilə verilə bilər. Bayrağın dəyişdirilməsi məqsədləri üçün berbout - çarterin qüvvədəolma müddəti bir ildən artıq olmamalıdır.

8.4. Gəmiyə Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzmək hüququnun verilməsi barədə qərarın qüvvədən düşməsinin təsdiqi həmin qərarın qəbul edilmə qaydasında həyata keçirilir.



**Maddə 9. Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzmək hüququnun yaranması**

9.1. Gəmi bu Məcəllənin 26.1.-ci maddəsində nəzərdə tutulmuş Azərbaycan Respublikasının gəmi reyestrlərinin birində qeydiyyata alındığı anda Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzmək hüququnu əldə edir.

9.2. Azərbaycan Respublikasının hüdudlarından kənarda əldə edilən gəmi Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzmək hüququndan Azərbaycan Respublikasının konsulluq idarəsi və ya Azərbaycan Respublikasının dəniz limanı kapitanı tərəfindən ona belə hüququn verilməsini təsdiq edən müvəqqəti şəhadətnamənin verildiyi andan istifadə edir.

9.3. Müvəqqəti şəhadətnamə Azərbaycan Respublikasının müvafiq gəmi reyestrində gəmi qeydiyyata alındığı vaxta qədər, lakin altı aydan çox olmamaq şərti ilə qüvvədə qalır.

**Maddə 10. Gəminin milliliyi**

10.1. Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzmək hüququndan istifadə edən gəmi Azərbaycan Respublikasının milli mənsubiyyətinə məxsusdur.

10.2. Azərbaycan Respublikasının milli mənsubiyyətinə malik olan gəmi Azərbaycan Respublikasının Dövlət bayrağını daşımalıdır.

**Maddə 11. Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzmək hüququnun itirilməsi**

11.0. Gəmi Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzmək hüququnu aşağıdakı hallarda itirir:

11.0.1. bu Məcəllənin 8.1.-ci maddəsində nəzərdə tutulmuş tələblərə uyğun olmadıqda;

11.0.2. bu Məcəllənin 8.2 və 8.3-cü maddələrinə müvafiq olaraq Azərbaycan Respublikasının Dövlət bayrağı altında gəmiyə üzmək hüququnun verildiyi müddət bitdikdə və ya həmin hüququn verilməsinə dair qərar ləğv edildikdə.

**Maddə 12. Gəminin müvəqqəti olaraq xarici dövlətin bayrağı altına keçirilməsi**

12.1. Dövlət gəmi reyestrində və ya gəmi kitabında qeydiyyata alınmış gəmi berbout- çarter üzrə xarici fraxtedənin istifadəsinə və sahibliyinə Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzmək hüququnun dayandırılması

şərti ilə müvafiq icra hakimiyyəti orqanının qərarı əsasında verildikdə, belə gəmi aşağıdakı hallarda xarici dövlətin bayrağı altına müvəqqəti keçirilə bilər;

12.1.1. gəmi mülkiyyətçisi gəminin xarici dövlətin bayrağı altına keçirilməsinə yazılı razılıq verdikdə;

12.1.2. müvafiq qaydada müəyyənləşdirilmiş və qeydə alınmış gəmi ipotekası vaxtında ödənilmədikdə, ipoteka saxlayan gəmini xarici dövlətin bayrağı altına keçirilməsi barədə yazılı razılıq verdikdə;

12.1.3. fraxtedənin dövlətinin qanunvericiliyində Dövlət gəmi reyestrində və ya gəmi kitabında qeydiyyata alınmış gəmiyə həmin dövlətin bayrağı altına keçirilməyə və belə dövlətin bayrağı altında üzməyə verilmiş hüququn müddəti bitdikdə Azərbaycan Respublikasının Dövlət bayrağı altına qaytarılmasına dair qadağa qoyan müddəalar olmadıqda.

12.2. Gəmi xarici dövlətin bayrağı altında berbout-çarterin qüvvədəolma hüdudunda iki ildən artıq olmayan müddətə, sonradan onun hər iki ildən bir uzadılması hüququ ilə keçirilə bilər. Bayrağın dəyişdirilməsi məqsədləri üçün berbout-çarterin qüvvədəolma müddəti bir ildən az olmamalıdır.

12.3. Gəminin xarici dövlətin bayrağı altına keçirilməsinə dair qərarın qüvvədən düşməsinin təsdiqi həmin qərarın qəbul edilmə qaydasında həyata keçirilir.

**Maddə 13. Gəminin adı**

13.1. Dövlət gəmi reyestrində və ya gəmi kitabında qeydiyyata alınacaq gəminin öz adı olmalıdır.

13.2. Gəminin adı Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada gəmi mülkiyyətçisi tərəfindən verilir.

13.3. Gəmi üzərində mülkiyyət hüququ başqasına keçdikdə və ya kifayət qədər olan digər əsaslarla gəminin adı dəyişdirilə bilər. Gəminin qeydə alınmış ipotekasını saxlayanlar gəminin adının dəyişdirilməsi barədə dərhal məlumatlandırılır.

**Maddə 14. Çağırış siqnalı**

14.1. Gəmiyə çağırış siqnalı verilir. Texniki təchizatından asılı olaraq gəmiyə həmçinin gəmi peyk rabitə stansiyasının identifikasiya nömrəsi və gəmi radiostansiyasının fərdi çağırış nömrəsi verilir.

14.2. Gəmiyə çağırış siqnalının, gəmi peyk rabitə stansiyasının identifikasiya nömrəsinin və gəmi radiostansiyasının fərdi çağırış nömrəsinin verilmə qaydasını müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.



**Maddə 18. Əsas gəmi sənədləri**

18.1. Gəminin aşağıdakı göstərilən əsas gəmi sənədləri olmalıdır:

18.1.1. Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzmək hüququ haqqında şəhadətnamə;

**Maddə 22. Gəmi sənədləri verən orqanlar**

22.1. Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzmək hüququ haqqında və gəmiyə mülkiyyət hüququ haqqında şəhadətnamələr gəmini qeydiyyata alan orqan tərəfindən verilir.

**Maddə 23. Xarici dövlətin bayrağı altında üzən gəminin sənədlərinin tanınması**

Xarici dövlətin bayrağı altında üzən və Azərbaycan Respublikasının limanlarına daxil olan gəminin sənədlərinin tanınması Azərbaycan Respublikasının beynəlxalq müqavilələri əsasında həyata keçirilir.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


Azərbaycan dilində

1. Abbaslı M. Şah Ismayılın həyat yolu miniatürlərdə, Bakı, 1981.
2. Azərbaycan bayraqları. Kataloq. N.Vəlixanlının redaktəsi ilə. Bakı, 2005
3. Azərbaycan dövlətçiliyi və onun rəmzləri. N.Vəlixanlının redaktəsi ilə. Bakı, 2000.
4. Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (Stenoqrafik hesabat). Bakı, 1998, cild I.
5. Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası, Y.Mahmudovun redaktəsi ilə, Bakı, cild I, 2004, cild II, 2005.
6. Azərbaycan tarixi. Yeddi cilddə // AMEA A.Bakixanov adına Tarix Institutunun nəşri. Bakı, 2000, c. IV.
7. Azərbaycan Sovet Ensiklopediyası, cild I, III, IV, IX, X.
8. Cavad Ə. Haqq bağıran səs. Bakı,1991.
9. Əfəndiyev T. Xalq sənətimizdə rəmzi işarələr// Elm və həyat, 1984, №10.
10. Əhmədov S. Azərbaycan Ordusu: uniforma, rəmzlər, nişanlar. Bakı, 2008.
11. Əhmədov S. Bayraqların inkişaf mərhələləri. //Hərbi bilik, 1998, № 2.
12. Əhmədov S. Illüstrativ mənbələr Azərbaycan hərb sənətinin tədqiqində mənbə kimi (knyaz Q.Qaqarinin albomu əsasında) // Azərbaycan Tarixi Muzeyi, məqalələr toplusu, 2003.
13. Əhmədov S. "Kitabi-Dədə Qorqud" dastanında hərbi texniki terminlər//Azərbaycan Tarixi Muzeyi, məqalələr toplusu, 2006.
14. Əhmədov S. XIII-XV əsrlərdə Azərbaycanda hərb işinin tarixi. // T.e.n. dissertasiyasının avtoreferatı. B., 2001.
15. Əliyev I., Məhərrəmov E. Azərbaycan Respublikasının dövlət rəmzləri. Bakı, 2000.
16. Heyət C. Türklərin tarix və mədəniyyətinə bir baxış. Bakı, 1993.
17. Kitabi-Dədə Qorqud (tərt. - Zeynalov F., Əlizadə S., qeydlər - Əliyarov S.). Bakı, 1988.
18. Mərdanov M., Quliyev Ə. Azərbaycan Respublikasının dövlət rəmzləri. Bakı, 2001.
19. Mirzə Camal Cavanşir Qarabaği. Qarabağ tarixi. //Qarabağnamələr. I kitab, Bakı, 2006.
20. Mir Mehti Xəzani. Kitab-i tarixi Qarabağ. Müqəddimə və şərhlər A.Fərzəliyevindir, transliterasiya A.Fərzəliyev və A.Ramazanovundur. //Qarabağnamələr. II kitab, Bakı, 2006.
21. Muradova E.A. Şirvan zonasında aşkar olunmuş işarə və tamğalar //Azərbaycanın maddi mədəniyyəti. VII, X. Bakı, 1976.
22. Rüstəmov C. Qobustan qayaüstü təsvirinin izahına dair qeydlər //"Azərbaycan tarixinin problemləri, müasir tədris və elmi nəşrlərdə onların əksi" konfransının materialları Bakı, 1995.
23. Rzaqulu bəy Mirzə Camal oğlu. Pənah xan və İbrahim xanın Qarabağda hakimiyyətləri və o zamanın hadisələri. Ön söz, farscadan tərcümə və şərhlər N.Axundovundur. // Qarabağnamələr. II kitab, Bakı, 2006.





24. Seyfullaoğlu A. Xürrəmilər üsyanının hərbi-siyasi cəhətləri //"Hərbi bilik", 1999 № 2.
25. Tihrani Əbu-Bəkr. Kitabi-Diyar Bəkriyyə (tərc. R.Şükürov). Bakı, 1988.
26. Yezdi Şərəf əd -Din Əli. Zəfərnamə. B., 1996.

Türk dilində

27. Bodur F. Türk maden sanati, Istanbul, 1987.
28. Kurtoğlu F. Türk bayrağı və ay-yıldız. Ankara, 1992.
29. Sumer F. Kara-Koyunlular. Ankara, 1992, c.1.

Rus dilində

30. Агасиева Э. Азербайджан - страна огней, древнейший очаг цивилизации// «Azərbaycan dünyanın ən qədim sivilizasiya mərkəzlərindən biridi» konfransının materialları Bakı, 2004.
31. Мурад Аджи. Европа, тюрки, Великая степь. Москва, 1998.
32. Азербайджанская Демократическая Республика (1918-1920). Законодательные акты (Сборник документов). Баку, 1998.
33. Алекбер А. Азербайджан - это «страна света» // «Azərbaycan tarixinin problemləri, müasir tədris və elmi nəşrlərdə onların əksi» konfransının materialları Bakı,1995.
34. Алиева Ф. К вопросу о мировоззрении населения античного Азербайджана // Azərbaycan arxeologiyası, 2005, №1-4.
35. Антонова Е.Б. К исследованию места сосудов в картине мира первобытных земледельцев// Восточный Туркестан и Средняя Азия в системе культур древнего и средневекового Востока. Москва, 1986.
36. Артиллерийский Исторический Музей. Знаменный отдел. Краткий указатель коллекции. Составитель Белавенец П.И. Ленинград, 1927.
37. Ахмедов С.А, Гаибова Г.Н. Росписи дворца Шекинских ханов как источник по военной истории Азербайджана. //Respublika elmi konfransının materialları, Bakı, 1997.
38. Ахундов Д.А. Архитектура древнего и раннесредневекового Азербайджана. - Баку, 1986.
39. Бакиханов Аббасгулу ага. Гюлистани-Ирем. Баку, 1926.
40. Барбаро и Контарини о России. Перевод Е.Ч.Скржинской. Ленинград, 1971.
41. Бахшиева А.Т., Из истории музейного дела в Азербайджане (на материалах МИА), Баку, 2005.
42. Брокгауз Ф.А, Ефрон Н.А. Энциклопедический словарь. Санкт-Петербург, 1891, т.4.
43. Василевич Г.М. Древние охотничьи и оленеводческие обряды эвенков// Собрание Музея Антропологии и Этнографии АН СССР, XVII, Москва-Ленинград, 1957.
44. Виллинбахов Г.В. Русские знамёна. Очерки. Санкт-Петербург, 2005.
45. Виноградов А.Б. Тысячелетия, погребённые пустыней. Москва, 1966.
46. Вторая записка Абу Дулафа. Пер. П.Г.Булгакова, А.Б.Халидова. Москва, 1960.
47. Гийас ад-Дин Али. Дневник похода Тимура в Индию. Москва, 1958.
48. Голубкина Т.И. К сематике некоторых археологических находок (по материалам МИА АН Аз. ССР). //Материалы научной сессии - Итоги научных работ МИА за 1987 г. Баку,1988.
49. Государева Оружейная Палата. Санкт-Петербург, 2002.
50. Гулузаде Н. Ещё раз о культе быка в Азербайджане. // «Qafqazın arxeologiyası, texnologiyası, folkloru» beynəlxalq konfransının materialları. Bakı, 2005.

51. Дельбрук Г. История военного искусства в рамках политической истории. т.3., Москва, 1938.
52. Денисов Е.Н., Портнов М.З., Денисова М.М. Русское оружие (IX-XIX вв.). Москва, 1953.
53. Дмитриев С.Б. Знаменный комплекс в военно-политической культуре средневековых кочевников Центральной Азии// Пара беллум, № 14, 2002.
54. Еремеев Д.Э. Этногенез турок. Москва, 1971.
55. Зайн ад Дин Казвини. Зайл-и тарихи гузида. Перевод Кязимова М.Д., Пириева В.З. Баку, 1990.
56. Ибн ал-Асир. Тарих ал-Камил (Материалы по истории Азербайджана). Перевод Жузе П.К. Баку, 1940.
57. Иванов К.А. Флаги государств мира. Москва,1971.
58. Измайлов В. В блеске мисюрок и бахтерцов //«Родина», 1997.
59. Исмайлов М. Карабах в XIX - начале XX века. // Карабах. Сборник статей. Баку, 2004.
60. Каменцева Е.И., Устюгов Н.В. Русская сфрагистика и геральдика. Москва, 1974.
61. Керим ага Фатех. Краткая история шекинских ханов, Баку, 1958.
62. Керимов К. Азербайджанские миниатюры, Москва, 1980.
63. Клавихо, Руи Гонсалес де. Дневник путешествия в Самарканд ко двору Тимура (1403-1406). Перевод И.С.Мироновой. Москва, 1990.
64. Книга Орудж бека Баята Дон Хуана Персидского. Перевод О.А.Эфендиева. Баку, 1988.
65. Курочкин Н. Знамя части. Киев, 1970.
66. Липец С.С. Образы батыра и его коня в тюрко-монгольском эпосе. Москва, 1984.
67. Локкарт Л. Надир шах. Критическое исследование на основе первоисточников. Лондон, 1938// Перевод с английского Гезаловой Н.Р. Баку, 2004.
68. Маковеев М. О знамени, которому присягаем. Москва, 1974.
69. Мамедов С.Г. История военного дела в Азербайджане (с древнейших времен до XVII века). Баку, 1998.
70. Менгес К.Г. Восточные элементы в «Слове о полку Игореве». Ленинград, 1979.
71. Несеви, Шихаб ад -Дин Манкбурны. Жизнеописание султана Джалал ад-Дина Манкбурны. Перевод Буниатова З.М., Баку, 1973.
72. Окладников А.П., Васильевский Р.С. Северная Азия на заре истории. Новосибирск, 1980.
73. Петрушевский И.П. Государства Азербайджана в XV в. //Сборник статей по истории Азербайджана, Баку, 1949.
74. Потто В.А. Утверждение русского владычества на Кавказе, т. I, Тифлис, 1901.
75. Пронштейн А.П., Кияшко В.Я. Вспомогательные исторические дисциплины. Москва, 1973.
76. Похлебкин В.В. Международная символика и эмблематика. Москва, 1994.
77. Путеводитель по Кавказскому Военно-Историческому Музею, Изд.4, Тифлис, 1913.
78. Радлов Б.Б. Опыт словаря тюркских наречий. т. IV, Москва, 1963.
79. Рашид ад -Дин Фазлуллах. Джами ат-таварих. т. II, Пер. Ю.П.Верховского. Москва - Ленинград, 1960.
80. Рашид ад -Дин Фазлуллах. Джами ат-таварих. т. III. Перевод А.К.Арендса, автор критич. текста А.А.Ализаде. Баку. 1957.



81. Рол Д. Генезис цивилизации. Откуда мы произошли. Москва, 2003.
82. Самак-айар. Перевод Кондыревой Н.М. кн. I., Москва, 1984.
83. Санкалийа Х.Д. Некоторие связи между энеолитом Инамгаона в Махараштре и Алтын-Депе Южной Туркмении//Древние культуры Средней Азии и Индии. Л., 1984
84. Соколова. Культ животных в религиях. Москва, 1972.
85. Степанов Ю.С. Семиотика. Москва, 1971
86. Средняя Азия в древности и средневековье. История и культура. Сборник статей, Москва, 1977.
87. Тревер К.В.Очерки по истории и культуре Кавказской Албании. Москва, - Ленинград, 1959.
88. Федюшина И. Первые художники и скульпторы. Москва, 1971.
89. Флаги рассказывают. Ленинград, 1972.
90. Форти С. Символы. Энциклопедия. Москва, 2005.
91. ал-Халаби Мухаммед. Поход эмира Йашбека. Пер. З.М.Буниятова. Баку, 1998.
92. Халилов М. Реликты в миниатюре XVI века// ИРС-Наследие 2004, №1 (9).
93. Хиллебрандт К. Крестовые походы. Взгляд с Востока. Мусульманская перспектива. Москва, - Санкт-Петербург, 2008.
94. Хунджи Фазлуллах ибн Рузбихан. Тарих-и алям арай-и амини. Перевод В.Минорского, Буниятова З.М. Баку, 1987.
95. Шатунов Г. Символ воинской чести, доблести и славы. Москва, 1975.
96. Шюкюров К.К. Кюрекчайский договорб об основных положениях, претворении в жизнь и последствиях упразднения //Кюрекчайский договор-200. Баку, 2005.
97. Шейнина Е.Я. Энциклопедия символов, знаков, эмблем. Москва, 2006.

Fars dilində
98. Mirzə Məhəmməd Mehdi Xan Astrabadi. Tarix-e cahanqoşaji Nadiri, Tehran, 1991.

İngilis dilində
99. Lukonin V., Ivanov A. Persian art. Sankt-Peterburg, 2001.
100. Minorski V. A çivil and military review in Fars in 881 (1476). //BSOAS, London, v.10.

Alman dilində
101. Wendalen Boeheim. Waffenkunde. Leipzig, 1890.

# MÜNDƏRİCAT

Ön söz 5
Giriş 8
"Bayraq" anlayışı. Dövlət bayrağı 12
Azərbaycanda bayraqların təkamül tarixi 23
Azərbaycan Xalq Cümhuriyyətinin Dövlət Bayrağı 45
Azərbaycan Respublikasının Dövlət bayrağı 55
Azərbaycan Respublikası Dövlət Bayrağının rənglərinin tarixi 63
Bayraqlar üzərində olan rəmzlərin təsnifatı.
Şərqdə aypara və səkkizgüşəli ulduz təsvirləri 71
Azərbaycanda ay-ulduz rəmzinin tarixi 89
Nəticə 98
Əlavələr 105
I. Azərbaycan Bayrağına həsr olunmuş şerlər 105
II. Azərbaycan Xalq Cümhuriyyəti dövründə Dövlət Bayrağına aid qanunlar 110
III. Azərbaycan Respublikası Dövlət Bayrağına aid normativ aktlar 112
IV. Azərbaycan Respublikası Silahlı Qüvvələrində mövcud olan bayraqlar (04.11.1997-ci il tarixində təsdiq edilib) 127
V. Azərbaycan Respublikası Prezidenti yanında Heraldika Şurası haqqında normativ aktlar 128
VI. Azərbaycan Respublikasının normativ aktları ilə dövlət rəmzlərinin aliliyinin qorunması 137
İstifadə olunmuş ədəbiyyat 150

## DÖVLƏT BAYRAĞI MEYDANI

**Əsas Texniki Göstəricilər:**

**Kompleksin ümumi ərazisi - 60 hektar**
**Meydanın yuxarı hissəsinin sahəsi - 31 min m²**
**Meydanın alt hissəsinin sahəsi - 60 min m²**
**Bayraq dirəyinin hündürlüyü - 162 metr**
**Bayrağın ölçüləri - 35x70 metr**

**Dünyada ən hündür bayraq dirəyi kimi Ginnes dünya rekordları təşkilatı tərəfindən 29 may 2010-cu il tarixində təsdiq edilmişdir.**

**Meydanda qurulmuş Azərbaycan Respublikasının Dövlət Gerbi qızıl suyuna salınmış bürüncdən hazırlanmışdır. Ölçüləri - 9x11 metr, çəkisi - 16 ton.**

**Meydanın tikintisində Azərbaycanın müxtəlif rayonlarından gətirilmiş 28 milyon daş istifadə olunmuşdur.**

## THE STATE FLAG SQUARE

**The Main Technical Parameters:**

**Total area of the complex - 60 hectares**
**The area of the top circle - 31 thousand m²**
**The area of lower circle - 60 thousand m²**
**Height of flagpole - 162 m (531 ft 5 in)**
**Flag dimensions - 35x70 m**

**The flagpole has been recognised as the highest in the world by the Guinness World Records Organization on the 29th of May 2010.**

**The State Emblem of Azerbaijan Republic placed on the square is made of gold plated bronze. Dimensions - 9x11 meters, Weight - 16 tons.**

**28 million stones brought from various regions of Azerbaijan are used in the construction of the Square.**

### Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində Dövlət bayrağı meydanının yaradılması haqqında

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikasının Dövlət bayrağı Dövlət gerbi və Dövlət himni kimi Azərbaycan Respublikasının müstəqilliyini təcəssüm etdirən rəsmi dövlət rəmzidir. Dövlət atributu olaraq Azərbaycan bayrağına ehtiram göstərilməsi ölkə vətəndaşlarının müqəddəs borcudur. Azərbaycan əsgəri Vətənin suverenliyinin və ərazi bütövlüyünün qorunması ilə bağlı ali missiyanı öz üzərinə götürərkən Dövlət bayrağına and içir. Dövlət bayrağının Azərbaycan Respublikasının dövlət qurumlarının və diplomatik nümayəndəliklərinin üzərində dalğalanması, ən mötəbər məclislərdə və mərasimlərdə, rəsmi tədbirlərdə və yarışlarda qaldırılması hər bir azərbaycanlının qəlbini qürur hissi ilə doldurur.

Azərbaycanın Dövlət bayrağı ilk dəfə Azərbaycan Xalq Cümhuriyyətinin 1918-ci il 9 noyabr tarixli qərarı ilə milli bayraq kimi qəbul edilmiş və 1920-ci ilin aprelinə qədər dövlət rəmzi kimi istifadə olunmuşdur. Tariximizin sovet dövründə o, Azərbaycan Sovet Sosialist Respublikasının bayrağı ilə əvəz edilmişdir.

Dağlıq Qarabağ ətrafında cərəyan edən ictimai-siyasi proseslər zamanı ziyalıların təşəbbüsü ilə Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı qeyri-rəsmi olaraq 1988-ci il noyabrın 17-də Bakıda indiki Azadlıq meydanında qaldırılmışdır. Rəsmi olaraq bu bayraq Azərbaycan ərazisində Naxçıvan Muxtar Respublikası Ali Sovetinin 1990-cı il 19 yanvar tarixli qərarı əsasında Naxçıvan Ali Sovetinin binası üzərində ucaldılmışdır. Həmin qərar səkkiz gün sonra Azərbaycan SSR Ali Soveti tərəfindən ləğv edilsə də, 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ümummilli lider Heydər Əliyevin sədrliyi ilə keçirilən sessiyasında Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul olunmuşdur. 1991-ci il fevralın 5-də Azərbaycan ictimaiyyətinin tələbi ilə Azərbaycan Respublikasının Ali Soveti Dövlət bayrağı haqqında Qanun qəbul edərək üçrəngli bayrağa Azərbaycan Respublikasının dövlət bayrağı statusunu vermişdir.

1991-ci il oktyabrın 18-də müvafiq Konstitusiya aktı ilə dövlət müstəqilliyini bərpa edən Azərbaycan Respublikası özünü Azərbaycan Xalq Cümhuriyyətinin varisi elan edərkən onun dövlət rəmzlərini, o cümlədən Dövlət bayrağını qəbul etmişdir.

Azərbaycan Respublikasının Dövlət bayrağının Azərbaycan vətəndaşlarının milli həmrəyliyinin, vahid məfkurə ətrafında sıx birləşmələrinin başlıca amillərindən biri olduğunu nəzərə alaraq və onun təbliğinin daim diqqət mərkəzində saxlanılmasını təmin etmək məqsədilə **qərara alıram**:

1. Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində Dövlət bayrağı meydanı yaradılsın.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.
3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 17 noyabr 2007-ci il



# DÖVLƏT BAYRAĞI MEYDANI





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Dövlət Bayrağı Meydanının təməlqoyma mərasimində, 30 dekabr 2007-ci il

Ilham Aliyev, the President of the Republic of Azerbaijan takes part at the groundbreaking ceremony of the State Flag Square, 30 December 2007








